# QARABAĞ AZƏRBAYCANDIR!


RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 216 (8532) ÇƏRŞƏNBƏ AXŞAMI, 20 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az


## Ali Baş Komandan generalı təbrik etdi



Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin rəisi (DSX) general-polkovnik Elçin Quliyevi Xudafərin körpüsündə Azərbaycan bayrağının qaldırılması və DSX-nin iştirakı ilə bir neçə yaşayış məntəqəsinin azad edilməsi münasibətilə təbrik edib və təbriklərinin bütün şəxsi heyətə çatdırılmasını tapşırıb. General-polkovnik E.Quliyev DSX-nin şəxsi heyətinin Ali Baş Komandanın bütün tapşırıqlarını bundan sonra da layiqincə yerinə yetirəcəyini məruzə edib.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan-Türkiyə birliyi sarsılmazdır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz. Sizi səmimiyyətlə salamlayıram.

**Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa ŞENTOP:**

- Xoş gördük.

**Prezident İlham ƏLİYEV:**

- Çox şadam ki, Siz gəlmisiniz. Ölkəmiz üçün bu çətin bir dövrdə Sizin gəlişiniz xüsusi məna daşıyır. Bu, bir daha Türkiyənin Azərbaycana göstərdiyi qardaşlıq münasibətinin təzahürüdür, həmrəyliyin təzahürüdür. Biz bu hadisələr baş verəndən dərhal sonra Türkiyənin dəstəyini hiss etdik, bu gün də hiss edirik. Əziz qardaşım, hörmətli Prezident çox müsbət və çox dəqiq açıqlamalar vermişdir. Bu açıqlamalar Azərbaycan xalqını çox məmnun etdi, bütün dünyaya göstərdi ki, Türkiyə-Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə biz bir-birimizin yanındayıq. Mən bunu bir neçə dəfə demişəm, bir daha demək istəyirəm ki, əgər bu açıq mövqe göstərilməsəydi, bu gün başqa qüvvələr bu işlərə qarışa bilərdi. Onsuz da Ermənistanın məqsədi bundan ibarətdir, onlar bu münaqişənin coğrafiyasını genişləndirmək istəyirlər və çox yanlış yoldadırlar. Çünki görürlər ki, bizim qarşımızda təkbaşına duruş gətirə bilmirlər. Döyüş meydanında biz onları məğlub edirik. Hər gün cəbhədən çox gözəl xəbərlər gəlir. Bu gün səhər mən yeni kəndlərin azad edilməsi haqqında məlumat vermişəm. Azərbaycan Ordusu zəfər marşındadır və qarşımızda duran bütün vəzifələr yerinə yetirilir.

Türkiyə dövlətinin və xalqının dəstəyi xüsusi önəm daşıyır. Türkiyə və Azərbaycan dünya miqyasında bir-birinə ən yaxın olan ölkələrdir. Dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın ikinci ölkə tapmaq mümkün deyil. Hər zaman bir-birimizin yanındayıq. Bundan sonra da belə olacaq. Həm Türkiyə Böyük Millət Məclisinin açıqlamaları, Sizin, hörmətli cənab Sədr, açıqlamalarınız, nazirlərin açıqlamaları, Türkiyədən adi vətəndaşlardan mənə gələn məktublar böyük həmrəyliyin təzahürüdür.

Bu mövqeyə, qardaşlıq mövqeyinə görə və gəldiyiniz üçün bir daha Sizə təşəkkürümü bildirirəm. Əminəm ki, səfəriniz bizim qardaşlıq əlaqələrimizin tarixində yeni gözəl səhifə olacaqdır. Xoş gəlmisiniz.

❖ ❖ ❖

**Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa ŞENTOP:**

- İnşallah. Xoş gördük, cənab Prezidentim.

*Ardı 2-ci səh.*

## *Mehriban ƏLİYEVA:* “Qoy Azərbaycanın müstəqilliyi əbədi olsun!”



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instagram” hesabında Müstəqillik Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir:

“Bu günlərdə bütün dünya ictimaiyyəti Azərbaycan xalqının yenilməz iradəsinin, qətiyyətinin, əzminin, birlik və həmrəyliyinin, Vətənə sadiqliyinin şahididir. Əminəm ki, xalqımızın məhz bu xüsusiyyətləri bizə qarşımızda dayanan bütün vəzifələrin öhdəsindən uğurla gəlməyə, o cümlədən müstəqilliyimizi qoruyub saxlamağa hər zaman kömək edəcəkdir. Qoy Azərbaycanın müstəqilliyi əbədi olsun! Uca Tanrı xalqımızı, Vətənimizi qorusun!”

## *Prezident İlham ƏLİYEV:* “Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar”

“Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!”

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində bildirib.

## *Prezident İlham ƏLİYEV:* “Cəbrayıl rayonunun 13 kəndi azad edilib”

“Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri azad edilmişdir. Qarabağ Azərbaycandır!”

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi “Twitter” hesabında bildirib.

## *Prezident İlham ƏLİYEV:* “Ermənistan silahlı qüvvələri razılaşdırılmış müvəqqəti humanitar atəşkəs rejimini kobudcasına pozub”

“Ermənistan silahlı qüvvələri razılaşdırılmış müvəqqəti humanitar atəşkəs rejimini kobudcasına pozaraq oktyabrın 18-də saat 00:02-dən sonra Azərbaycanın yaşayış məntəqələrini və döyüş mövqelərini ağır artilleriyadan atəşə tutub”.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi “Twitter” hesabında bildirib.

Dövlət başçısı qeyd edib ki, bu çirkin əməllər nəticəsində ölən və yaralananlar var: “Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək bir neçə yaşayış məntəqəsini işğaldan azad edib”.

## “Biz Ermənistanın işğal edilmiş ərazilərdə yerləşən əsas hərbi-texniki potensialını praktiki olaraq məhv etmişik”

İlham Əliyev Rusiyanın TASS İnformasiya Agentliyinə müsahibə verib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Rusiyanın TASS informasiya agentliyinə videomüsahibə verib. AZƏRTAC videomüsahibəni təqdim edir.

*Ardı 3-cü səh.*

## Prezident Rəcəb Tayyib Ərdoğan “Twitter” səhifəsində Azərbaycanın Müstəqilliyi Günü münasibətilə təbriklərini çatdırıb

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan özünün rəsmi “Twitter” səhifəsində 18 oktyabr - Azərbaycanın Müstəqilliyi Günü münasibətilə təbriklərini çatdırıb.

AZƏRTAC xəbər verir ki, Türkiyə Prezidentinin paylaşımında qeyd olunub: “Can qardaşımız, can dostumuz Azərbaycanın 18 oktyabr - Müstəqillik Gününü təbrik edirəm. Bir millət, iki dövlət amalı ilə Azərbaycanı hər sahədə dəstəkləməkdə və Vətən uğrunda mübarizəsində qardaşlarımızın yanında olmaqda davam edəcəyik”.

## Pakistanın Baş Naziri Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Azərbaycana dəstəyini bildirib

Pakistan İslam Respublikasının Baş Naziri İmran Xan rəsmi “Twitter” səhifəsində etdiyi paylaşımda Azərbaycana dəstəyini ifadə edib.

AZƏRTAC xəbər verir ki, Baş Nazir paylaşımda bildirib: “Müstəqillik Günü münasibətilə Azərbaycan Prezidentinə və qardaş Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram. Ölkələrinin ərazi bütövlüyünü şücaətlə qoruyan Azərbaycan Silahlı Qüvvələrinə ehtiramımızı bildiririk. Pakistan Dağlıq Qarabağ məsələsinin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həllində Azərbaycanı dəstəkləyir”.

## *Birinci vitse-prezident:* “Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm”

“Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir”.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi “Instagram” hesabında edilən paylaşımda deyilir:

“Azərbaycan Ordusunun növbəti qələbəsi! Füzuli şəhəri və Füzuli rayonunun bir sıra kəndləri işğaldan azad edilib. İllər boyu bir çox soydaşımız Vətən həsrəti ilə yaşayıb! Nə qədər həmvətənimiz doğma diyarını heç olmasa bir dəfə də olsun yenidən görmək arzusunda idi! Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir. Bu, ədalətin təntənəsidir! Ona görə ki, bu yerlər bizim doğma torpaqlarımızdır, əcdadlarımızın torpaqlarıdır. Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm. Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!”

## Düşmənin 2 ədəd S-300 ZRK, 3 ədəd BM-21 “Qrad” YARS, 2 ədəd “Smerç” yaylım atəşli raket sistemi, 5-dən çox tank, bir neçə haubitsa və zenit topları, o cümlədən avtomobil texnikaları və xeyli sayda canlı qüvvəsi məhv edilib

# Azərbaycan-Türkiyə birliyi sarsılmazdır

*Əvvəli 1-ci səh.*

Əvvəla, Türkiyədən hörmətli Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın salamlarını çatdırmaq istəyirəm. Türkiyə Böyük Millət Məclisindən deputatlarımızın hamısının Sizə salamları var, parlamentimizin duaları sizinlədir.

Burada fərqli partiyalardan dostlarımız var. Biz təmsilçilik qabiliyyəti yüksək olan bir heyətlə gəldik, dəstəyimizi ifadə etmək istədik.

Bunu Türkiyədə hər zaman deyirik, Tovuz hücumlarında da Məclisimizdə dörd siyasi partiya bir açıqlama vermişdi, 27 sentyabrdan sonra da bir daha açıqlama verdi. Amma bütün bunları bir də Bakıda təkrarlamaq, söyləmək istədik. Millətimizin də dəstək və duaları daim Azərbaycanladır, Sizinlədir. Azərbaycanın uğuru, müvəffəqiyyəti üçün dua edirik, o sevindirici xəbərləri aldıqca da bütün millət olaraq sevinirik. Allah müvəffəq etsin, zəfər nəsib etsin.

Təbii ki, Türkiyənin Azərbaycana dəstəyinin təməli dostluq və qardaşlıqdır. Zati-aliləri, Sizin də dediyiniz kimi, dünyada Azərbaycan-Türkiyə dostluğuna, qardaşlığına bənzər ikinci ölkə yoxdur. "Bir millət, iki dövlət" deyirik. Bunun tarixi əsasları var. Axşam Şəhidlər xiyabanında idik, orada Türkiyədəki 34 vilayətimizdən şəhidlər var, onlar burada uyuyurlar, adları məzar daşlarında var. Biz Türkiyə olaraq Azərbaycanın çətin günündə burada - Azərbaycanın yanında olmuşuq, onun kədəri bizim kədərimiz, sevinci isə bizim sevincimizdir. Bu, həm də sizin üçün də eynidir. Siz Yunanıstan səfirini qəbul edərkən verdiyiniz açıqlama Türkiyədə çox böyük diqqətlə, sevinclə izlənildi və çox yüksək dəyərləndirildi.



Bizim Azərbaycana dəstəyimiz təkcə dostluqla bağlı deyil, bu mübarizə Azərbaycanın haqlı mübarizəsidir. Həm tarixən haqlıdır, çünki Dağlıq Qarabağ tarix boyunca, yüz illərlə həmişə Azərbaycan torpağı, Azərbaycan Vətəninin bir hissəsi olub. Sovet dövründə də, Çar Rusiyası dövründə də belə olub. Azərbaycan beynəlxalq hüquq baxımından da haqlıdır.

Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Sonda xatirə şəkli çəkdirildi.

## *TBMM-in sədri:* "İşğalçı Ermənistan Azərbaycan ərazilərindən çıxmalıdır"

İşğalçı Ermənistan Azərbaycan ərazilərindən çıxmalıdır. ATƏT-in Minsk qrupunun 30 ildir apardığı danışıqlar nəticəsiz qaldı və bu qurum Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan çıxarılmasına nail ola bilmədi. Bu gün Azərbaycan Ordusu bu işi görməkdədir.

AZƏRTAC xəbər verir ki, bu sözləri oktyabrın 19-da Azərbaycanda rəsmi səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentop Bakıda jurnalistlərlə keçirdiyi görüşdə bildirib.

Mustafa Şentop deyib ki, bütün Türkiyə xalqı Azərbaycan Ordusu üçün dua edir. İnanıram ki, Azərbaycan Ordusu zəfər çalacaq.

Türkiyə-Azərbaycan əlaqələrinə toxunan M.Şentop qeyd edib ki, bu münasibətlər digər iki ölkə arasında mövcud olan münasibətlərlə müqayisə edilə bilməz. Bu münasibətlər tarixən ən yüksək səviyyədə olub. O deyib: "Ötən əsrin əvvəlində Türkiyənin 34 şəhərindən insanlarımız burada döyüşüblər. Türkiyədən gələrək Azərbaycanda döyüşüb şəhid olanların Şəhidlər xiyabanında abidələri var. Bu gün Azərbaycanın işğal olunmuş ərazilərini azad etmək üçün apardığı savaşı Türkiyədə insanlarımız ölkənizin vətəndaşları qədər həyəcanla izləyirlər".

## *Mustafa ŞENTOP:* "Ermənistan təkcə Azərbaycan üçün deyil, bölgədə və dünyada sülhə təhdiddir"



Təkcə dostumuz olduğu üçün deyil, həm də haqlı olduğu üçün Azərbaycanın yanındayıq. Azərbaycan tarix və beynəlxalq hüquq baxımından da haqlıdır.

AZƏRTAC xəbər verir ki, bu sözləri oktyabrın 19-da Azərbaycanda rəsmi səfərdə olan Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop Bakıda jurnalistlərlə keçirdiyi görüşdə bildirib.

M.Şentop deyib ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində, Avropa Şurası və ATƏT-in qərarlarında Ermənistanın işğalçı olduğu əksini tapıb.

Ermənistanın Gəncəyə hücumunun müharibə cinayəti olduğunu qeyd edən TBMM-in sədri deyib: "Müharibə cinayətləri törədənlərin bu gün, sabah da olmasa, başqa vaxt mühakimə olunduğu dünyada yaşayırıq. Ermənistan tək Azərbaycan üçün deyil, bölgədə və dünyada sülhə təhdiddir. Buna görə də Türkiyə haqlı mübarizəsində qardaş Azərbaycanın yanındadır. Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir. Bizim dostluğumuz əbədiyyətə qədər davam edəcək".

Dağlıq Qarabağın heç zaman Azərbaycandan ayrı olmadığını vurğulayan M.Şentop bildirib: "Dağlıq Qarabağ tarixboyu heç vaxt müstəqil olmayıb və bundan sonra da olmayacaq. Bütün beynəlxalq təşkilatlar da Dağlıq Qarabağın Azərbaycan torpağı olduğunu və Ermənistan tərəfindən işğal edildiyini bildirir".

Ermənistanın Azərbaycanın Gəncə şəhərində mülki əhalini atəşə tutmasını müharibə cinayəti adlandıran TBMM-in sədri deyib ki, vaxt gələcək, bunu törədən Ermənistan rəsmiləri məsuliyyətə cəlb ediləcək.

## *Mustafa ŞENTOP:* "Türkiyə Azərbaycanı haqlı mübarizəsində sonadək dəstəkləməkdə qətiyyətlidir"

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyə həmişə Azərbaycanın yanındadır və qardaş dəstəyini daim davam etdirəcək. Dağlıq Qarabağ Azərbaycanın ərazisidir, Azərbaycanın bir hissəsidir. Türkiyə dövləti haqlı mübarizəsində sonadək Azərbaycanı dəstəkləməkdə qətiyyətlidir. Bunu hər dəfə, hər yerdə demişik və Bakıda da təkrar ifadə edirik.

AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə müsahibəsində Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop deyib.

Türkiyə parlamentinin Sədri işğal altındakı Azərbaycan ərazilərinin azad edilməsi uğrunda şəhid olan Azərbaycan əsgərlərinə, eyni zamanda həlak olan mülki vətəndaşlara Allahdan rəhmət diləyib, yaralananların tezliklə sağalmalarını arzulayıb.

◆ **Prezidentə yazırlar**

## "Fəxr edirik ki, Azərbaycanın güclü Ordusu və Sizin kimi müdrik rəhbəri var"

Azərbaycan Ordusunun cəbhədə həyata keçirdiyi uğurlu əməliyyatlar, torpaqlarımızın ard-arda düşmən işğalından azad edilməsi vətəndaşlarımız, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları tərəfindən böyük sevinclə qarşılanır. Onlar sevinc hisslərini Prezident, Ali Baş Komandan İlham Əliyevə ünvanladıqları məktublarda ifadə edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

Türkiyənin İstanbul şəhərindən **Uğur Ceylan** yazır: "Hörmətli cənab Prezident, Azərbaycanda baş verən hadisələri narahatlıqla və eyni zamanda qürurla izləyirik. Xalqın yenilməz lideri olaraq torpaqlarınızı azad etməyinizə və erməni terrorçularına qarşı qətiyyətli mövqe göstərdiyinizə görə Sizinlə şərəf duyuruq. Türk milləti olaraq daim Sizinləyik, dualarımız Sizinlədir. Bununla yanaşı, cəbhədə də Sizinlə çiyin-çiyinə döyüşməyə hazırıq. Allah qəhrəman şəhidlərimizə rəhmət eləsin. Allahdan əziz Azərbaycan xalqına cansağlığı diləyirəm".

Ankara şəhərindən **Onur Gündüz:** "Hörmətli cənab Prezident, Türkiyədə yaşayan qardaşlarınız olaraq qəlblərimizin Sizin ürəklərinizlə birlikdə döyündüyünü bildirmək istəyirəm. Mən Sakaryada doğulmuşam. Amma mənim üçün Qarabağın Sakaryadan heç fərqi yoxdur. Allah Vətən yolunda Sizə və ordunuza, xalqınıza kömək olsun. Oğuz tayfalarının davamçıları daim zülmə qarşı vuruşub və qalib gəlib. Dualarımız Sizinlədir".

Niderlandda yaşayan soydaşlarımız **Elvin Hulşer** və **Tariyel Mirzəyev** yazırlar: "Möhtərəm cənab Prezident, Azərbaycan-Niderland Biznes Qovşağının heyəti adından Azərbaycan xalqına öz dəstəyimizi ifadə etmək istəyirik. Ürəyimiz hərbi əməliyyatlar nəticəsində zərər çəkmiş insanların yanındadır. Arzu edirik ki, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri dərhal icra edilsin və beləliklə, sülh və davamlı rifah geri qayıtsın".

Bakı şəhər sakini **Xanağa Əhədli:** "Əziz Prezidentimiz, Sizi salamlayan 86 saylı orta məktəbin 5ç sinif şagirdidir. Mən Sizə təşəkkür etmək üçün məktub yazıram. Hər gün torpaqlarımızın düşməndən azad edilməsi barədə verdiyiniz xəbərləri dinləyən anamın gözündəki sevinc göz yaşlarını görmək məni də sevindirir. Biz də ailəliklə daim cəbhədəki vəziyyəti düşünürük və deyirik ki, Qarabağ Azərbaycandır!"

Masallı rayon sakini **Tofiq Canaliyev:** "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin komandanlığınız altında Azərbaycan Ordusunun Qarabağ torpaqlarının işğaldan azad olunması uğrunda göstərdiyi şücaət bu gün dillər əzbəridir. Bu uğurların şəninə şeirlər qoşulur, nəğmələr oxunur. Xalqımızda çox yüksək əhvali-ruhiyyə müşahidə olunur. Cənab Prezident, bu qətiyyətli və şücaətli işlərinizə görə Masallı rayonunun Xəlfələr kəndinin sakinləri adından Sizə böyük minnətdarlığımızı bildiririk. Sizə uzun ömür, cansağlığı və gələcək işlərinizdə müvəffəqiyyətlər arzu edirik. İnanırıq ki, tezliklə Azərbaycan ərazisinin bütövlüyünü bərpa edəcəksiniz. Yaşasın Azərbaycan xalqı, onun şanlı Ordusu və Ali Baş Komandanı!"

Şəki sakini **Ömər Mirzəyev:** "Hörmətli Prezidentimiz, bu gün Ulu Öndərimiz Heydər Əliyevin hər bir azərbaycanlının ömürlük yaddaşında həkk olunmuş şüarını xatırlatmaq istərdim: "Hər bir insanın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən fəxr edirəm ki, azərbaycanlıyam!" Elə bu şüar altında da Şəki rayonunun Kiş kənd sakini olan xalam oğlu Vüsal Rzayev könüllü olaraq 31 yaşında Şəki Hərbi Komissarlığından Vətənə xidmət etmək üçün yola düşüb. Cənab Ali Baş Komandan, Ulu Tanrı Sizə və əsgərlərimizə yar olsun. Hər zaman Sizdən qələbə xəbərləri eşidək. Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır!"

Quba sakini **Tofiq Məmmədovun** məktubunda deyilir: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, sentyabrın 27-dən, Vətən müharibəsi başlayan gündən bu günədək hər bir vətəndaş kimi, mən də televiziya kanallarından verilən xəbərləri, Sizin çıxışlarınızı, verdiyiniz müsahibələri həvəslə və diqqətlə dinləyirəm. Sizin rus, ingilis və türk dillərində sərbəst danışığınız, çox yüksək intellektual biliyə malik olmağınızdan qürur hissi duyuram. Sizin kimi dəyanətli, qətiyyətli dövlət başçımız, Prezidentimiz olduğu üçün özümü çox xoşbəxt hiss edirəm. Sizin uzaqgörən siyasətiniz sayəsində artıq bütün dünya Azərbaycanın necə güclü dövlət olduğunu bilir. Əziz Prezidentimiz, bu gün xalq Sizin ətrafınızda səfərbərdir, Sizin əmrinizə hazırdır. Bunu Siz öz bacarığınız və xalqımızda yaratdığınız inam hissi ilə qazanmısınız. Sizin və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın hərbi hospitalda yaralı əsgərlərlə necə səmimi görüşdüyünüzün, qayğınızın şahidi oldum. Cənab Prezident, artıq bıçaq sümüyə dirənib, səbir kasamız dolub, hamı istəyir ki, torpaqlarımız erməni tapdağından azad olunsun və üçrəngli bayrağımız milli musiqimizin beşiyi olan Şuşamızda, Qarabağımızda dalğalansın. Bununla da şəhidlərimizin qanı yerdə qalmasın. Bu məktubu Ordumuzun dünən qazandığı şanlı zəfərdən ruhlanaraq yazdım. 67 yaşım olmasına baxmayaraq, torpaqlarımızın azad olunması üçün mən də ölməyə hazıram, böyük xalq şairimiz Səməd Vurğun demişkən: "Müsəlləh əsgərəm mən də bu gündən". Siz atanızın yolunu, arzularını şərəflə yerinə yetirirsiniz. Bu gün Sizin xalqımız üçün gördüyünüz işlərdən, xüsusən şəhid ailələrinə göstərdiyiniz diqqət və qayğıdan çox danışmaq olar. Mən fəxr edirəm ki, Ulu Öndər Heydər Əliyevin imzası olan partiya biletini daşıyıram. Tez bir zamanda şanlı komandan kimi işğaldan azad edilmiş torpaqlarımıza zəfər bayrağımızı sancasınız! Bu yolda Tanrıdan Sizə uğurlar diləyir, yeni-yeni qələbələr nəsib etməsini arzulayıram. Allah Sizi və müzəffər Ordumuzu qorusun! Qoy haqq-ədalət zəfər çalsın! Qarabağ Azərbaycandır!"

İmişlidən **Osman İbrahimov** yazır: "Hörmətli cənab Prezident, biz Sizinlə qürur duyuruq. Allah Sizi var eləsin. Sizin Azərbaycanımıza olan sevginiz biz gənclərə ruh yüksəkliyi verir. Allah Sizə yar olsun. Biz gənclər əminik ki, üçrəngli müqəddəs bayrağımız Sizin və Ordumuzun sayəsində tezliklə Qarabağda, Şuşada dalğalanacaqdır. Sizə inanır və işlərinizdə uğurlar arzulayırıq".

Bərdə sakini **Musa Quliyev:** "Hörmətli cənab Prezident, bu məktubu sevinc içərisində yazıram. Otuz ildən bəri gözlədiyimiz bu günlər - Sizin rəhbərliyiniz altında qəhrəmanlıq tarixi yazan Azərbaycan Ordusunun Qarabağ torpaqlarını qarış-qarış azad etdiyi zəfər günləri hamımızı sevindirir. Mənfur ermənilərə qarşı apardığınız haqlı mübarizədə Sizinləyik, həmişə Sizin arxanızdayıq və yanınızdayıq. Möhtərəm Prezidentimiz, əminliklə deyə bilərəm ki, bu gün hər bir Azərbaycan vətəndaşı qüdrətli, güclü dövləti ilə və öz sözünü, xalqın istəyini dünyaya çatdıran müdrik, cürətli Prezidenti ilə fəxr edir. Sizə bu haqq mübarizənizdə yeni-yeni uğurlar diləyir, Ulu Tanrıdan cansağlığı, uzun ömür arzulayıram. Arzum budur ki, doğma torpaqlarımız uğrunda canından keçməyə hazır olan mərd, igid oğullarımız Azərbaycanın üçrəngli bayrağını Şuşada dalğalandırsın. Qoy Allah-təala yolunuzu açıq eləsin, məğlubedilməz Ordumuzu mənfur düşməndən qorusun. Allah Sizinlə və Ordumuzla olsun".

Şamaxı sakini **Ruslan Əmrahov:** "Hörmətli cənab Prezident, sentyabrın 27-dən xalqımız şərəfli, həyəcanlı, qürurlu günlər yaşayır. İlk qələbə xəbərlərindən sonra isə sevincimizin həddi-hüdudu yox idi. Mən döyüşə getmək üçün könüllü kimi ilk qeydə alınanlardan biriyəm. Çağırılacağım günü səbirsizliklə gözləyirəm. Ətrafımda isə minlərlə mənim kimi qərarlı gənc var. Kimin üzünə baxsan məğrurdur, Sizin səlis, dəqiq, dürüst nitqinizdən razıdır. Açığı, bütün hisslərimi, sevincimi sözlə ifadə etməkdə çətinlik çəkirəm. Amma şükür edirəm ki, düşmənləri doğma torpaqlardan qorumaq vaxtı çatıb. Hamımız Sizə minnətdarıq, hörmətli Prezident, Sizə və ailənizə ən xoş arzularımızı bildirir, Sizinlə fəxr edirik. Belə bir liderimiz olduğu üçün qürur duyuram. Biz həmişə Sizinləyik. Allah Sizi və Ordumuzu qorusun. Amin".

Bakı şəhər sakini **Namiq Şavruqov:** "Hörmətli Prezident, cənab Ali Baş Komandan, işğal olunmuş bəzi ərazilərimizi vəhşi erməni qəsbkarlardan Sizin rəhbərliyiniz altında müzəffər Ordumuz azad etmişdir. Ermənilərə dediyiniz kimi, elə bilirdiniz ki, Azərbaycan sizin işğal və təhqirlərinizlə barışacaq? Təbii ki, barışmayacaq. Buna görə Silahlı Qüvvələrimizin şəxsi heyətinə və Ali Baş Komandan kimi şəxsən Sizə sonsuz təşəkkürümü bildirirəm. Allahdan bütün şəhidlərimizə rəhmət, yaralılarımıza şəfa diləyirəm. Amin. Mən əminəm ki, apardığınız bu uğurlu hərbi əməliyyatlara görə şəhidlərimizin və Azərbaycanı parçalanmaqdan qurtaran Ulu Öndər Heydər Əliyevin ruhları şaddır. İndi Siz bir oğul kimi atanızın müqəddəs missiyasını davam etdirirsiniz. Lakin çox təəssüf ki, bəzi güclər işğalçı və başqasına güvənən Ermənistanı yenə də himayə edir. Bu çətin və müqəddəs mübarizədə Sizə və Ordumuza Uca Allahdan sağlamlıq, möhkəm dəyanət və sarsılmaz qətiyyət arzulayıram".

Şirvan sakini **Asiman Nadirli:** "Hörmətli Prezident, Cənab Ali Baş komandan, Sizin uğurla apardığınız siyasət nəticəsində bu gün ordumuzdan qələbə xəbərləri alırıq. Nəhayət ki, 27 ildir həsrətində olduğumuz torpaqlarımızı Sizin qətiyyətiniz sayəsində işğalçılardan geri alırıq. Biz fəxr edirik ki, Azərbaycan xalqının güclü ordusu və Sizin kimi müdrik rəhbəri var! Qələbə bizimdir! Qarabağ Azərbaycandır!"

Lerik sakini **Gülbala Kamilov:** "Hörmətli cənab Prezident, Sizin yürütdüyünüz daxili və xarici siyasət nəticəsində şanlı, qüdrətli və qorxmaz Ordumuz formalaşdırılmışdır. Bu Ordu Azərbaycanın mərd və igid oğullarını özündə cəmləşdirərək düşmən üzərində Qələbəni təmin etməkdədir. Cənab Ali Baş Komandan, erməni işğalçıları ilə cəbhədə hər zaman vuruşmağa hazırıq. Qələbə bizimlədir, Qarabağ Azərbaycandır! Allah Sizləri, Ordumuzu, xalqımızı qorusun!"

Tərtər sakini **Məhəmməd Orucov:** "Hörmətli cənab Prezident, nəhayət ki, 27 il düşmən taptağı altında qalan torpaqlarımızın alınacağı gün gəldi. Bu yolda atdığınız hər bir addımı bütün azərbaycanlılar kimi mən də bir Tərtər oğlu olaraq dəstəkləyir, Sizə və döyüş meydanındakı əsgərlərimizə möhkəm iradə, cansağlığı, qələbə sevinci arzulayıram. 9-cu sinif şagirdi olsam da, mən də silaha sarılıb Vətənimizi qorumağa, düşməndən azad etməyə getmək istəyirəm. Bilirik ki, bu bir döyüş meydanıdır, müharibədir. Əlbəttə, şəhidlərimiz olacaq, evlər dağılacaq. Təki tökülən şəhid qanı erməni tapdağı altında qalmasın. Cənab Ali Baş Komandan, Ulu Tanrıdan arzu edirəm ki, qara buludlar başımızın üstündən götürülsün, şəhidlərimizin qanı yerdə qalmasın, Azərbaycan xalqının üzü gülsün. Azərbaycan Ordusu üçrəngli bayrağımızı Şuşada, Laçında, Kəlbəcərdə və bütün işğal olunmuş ərazilərimizdə dalğalandırsın. Bu yol bizim haqq yolumuzdur! Mən və ailəmiz hər gün dua edirik ki, başda Ali Baş Komandan olmaqla bütün əsgərləri Allah qorusun, gözlərinə işıq, qollarına qüvvət, dizlərinə təpər versin, hər biri sevinclə ailəsinin yanına qayıtsın. Amin!".

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə
## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti zati-aliləri xanım Mehriban Əliyevaya

Hörmətli cənab Prezident!

Sentyabrın 27-dən başlayaraq Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi və son günlərdə dinc sakinlər arasında itkiyə səbəb olan hücumlarını dərin kədər və narahatlıq hissi ilə yaxından izləyirəm.

Sizə və hörmətli Birinci vitse-prezident Mehriban xanıma ölkənizdə mülki insanların həlak olması ilə əlaqədar dərin hüznlə başsağlığı verir, eləcə də həm İtaliya-Azərbaycan Ticarət Palatası, həm də şəxsən mən bu cür hücumları qətiyyətlə pisləyir, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək hüququnu birmənalı şəkildə dəstəkləyirik.

Biz İtaliyada rəsmi ikitərəfli biznes təşkilatı və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) milli nümayəndəliyi olaraq, münaqişə ilə bağlı doğru məlumatları yayır, cəmiyyətimizdə BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 822, 853, 874 və 884 saylı qətnamələri ilə bağlı təbliğat işi aparırıq.

Biz münaqişənin bu çərçivədə və beynəlxalq hüquqa uyğun olaraq öz həllini tapmasını səbirsizliklə gözləyirik. Həmçinin sülhün və sabitliyin, eləcə də Azərbaycanın suverenliyinin bərpa edilməsindən sonra Dağlıq Qarabağın və bütün bölgənin daha parlaq gələcəyi olacağına ümid bəsləyirik.

Hörmətli cənab Prezident, hörmətli Birinci vitse-prezident Mehriban xanım, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Manuela TRALDİ,***
***İtaliya-Azərbaycan Ticarət Palatasının (İTAZERCOM) prezidenti***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı yenidən başlanan hücumlarını kədər hissi ilə öyrəndik və yaxından izləyirik. Bu hücumlar bölgəmizdə sülh səylərinə böyük zərbə vurur.

Bu hücumlarla beynəlxalq hüquq açıq şəkildə pozulmaqdadır. Mülki şəxslər arasında da itkilərə səbəb olan hücumları şiddətlə qınayırıq. Ermənistan bu hücumlarla bölgədə sülhə və sabitliyə ən böyük təhdid olduğunu bir daha göstərdi.

Azərbaycanın öz xalqını və ərazi bütövlüyünü qorumaq üçün legitim müdafiə hüququnu dəstəkləyirik. Bu prosesdə türk biznes aləminin, o cümlədən Türk Ticarət və Sənaye Palatasının Azərbaycana dəstəyi tamdır. Beynəlxalq ictimaiyyəti də haqlının yanında olmağa çağırırıq.

Fürsətdən istifadə edərək, həlak olan azərbaycanlı qardaşlarımıza Allahdan rəhmət, yaralılara tezliklə sağalmalarını diləyir, can Azərbaycana başsağlığı veririk.

*Dərin hörmətlə,*

***Rıfat HİSARCIKLIOĞLU,***
***Türkiyə Palatalar və Birjalar Birliyinin sədri,***
***Türk Ticarət və Sənaye Palatasının sədri***

Hörmətli Prezident Əliyev!

Dağlıq Qarabağda davam edən hərbi əməliyyatlarla yanaşı, tarixi Gəncə şəhərinin dəhşətli hücumlara məruz qalmasından böyük kədər hissi keçiririk. Bu dəhşətli zorakılığın qurbanlarının ailələrinə dərin hüznlə başsağlığı veririk.

Biz Sizin rəhbər kimi daşıdığınız məsuliyyətli yükü yalnız təsəvvür edə bilərik. Amma inanırıq ki, müdrikliyiniz və qətiyyətliyiniz sayəsində düşmənlərinizə və maneələrə baxmayaraq, ölkənizi bu ağır sınaqdan uğurla çıxararaq ədalətə və beynəlxalq hüquqa hörmətə əsaslanan sülhə doğru aparacaqsınız.

Oktyabrın 18-i - Azərbaycanın müstəqilliyini qeyd etdiyimiz bu gün gələcəyə baxarkən keçmiş nailiyyətlərimizdən güc və inam almaq üçün daha bir səbəbdir. Gəncə və bütün Azərbaycan vətəndaşları ilə həmrəy olduğumuzu vurğuladığımız bir vaxtda bu gün həm də gələcək barədə düşünmək üçün bir imkandır.

Dəstəyimizi və ən xoş arzularımızı qəbul etməyinizi xahiş edirik.

***Vaira VİKE-FREYBERQA,***
***1999-2007-ci illərdə Latviyanın Prezidenti,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri***

***İsmail SERAGELDİN,***
***1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri***

Hörmətli cənab Prezident!

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yenidən alovlanmasından və beynəlxalq hüququn normalarına zidd olaraq Gəncəyə mülki şəxslərin ölümü ilə nəticələnən hücumların davam etməsindən dərin narahatlıq keçirirəm. Gərginliyin daha da artmaması və insan tələfatının, eləcə də insan haqlarının pozulmasının qarşısının alınması üçün bütün hərbi əməliyyatların dərhal dayandırılmasını arzulayıram.

Mən bütün tərəfləri Dağlıq Qarabağ münaqişəsi ilə bağlı uzun müddətdir davam edən fikir ayrılıqlarının sülh yolu ilə həll olunması üçün səylər göstərməyə, ölkələrin suverenliyi, ərazi bütövlüyü və dövlət sərhədlərinin toxunulmazlığı prinsipləri çərçivəsində BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, həmçinin beynəlxalq hüquqa əməl etməyə çağırıram.

Qlobal Bakı forumlarındakı çıxışlarınızı çox gözəl xatırlayıram. Sizin çıxışlarınız münaqişənin heç vaxt güc yolu ilə həlli barədə olmayıb. Biz yeni vasitəçilik modeli axtarmağa başlamalıyıq.

Həmsədrlərimizin rəhbərliyi ilə beynəlxalq hüququn normalarının təbliği istiqamətində birgə işləyirik.

Azərbaycanda sülhün bərqərar olmasını səmimi-qəlbdən arzu edirəm.

*Hörmətlə,*

***Petre ROMAN,***
***1989-1991-ci illərdə Rumıniyanın Baş Naziri,***
***1999-2000-ci illərdə Xarici İşlər naziri,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

# “Biz Ermənistanın işğal edilmiş ərazilərdə yerləşən əsas hərbi-texniki potensialını praktiki olaraq məhv etmişik”

## İlham Əliyev Rusiyanın TASS İnformasiya Agentliyinə müsahibə verib

Əvvəli 1-ci səh.



*- Hər vaxtınız xeyir. Biz Bakıdayıq və Azərbaycan Prezidenti İlham Əliyevlə görüşürük. Mən, Yuliya Şarifulina TASS Agentliyi adından cənab Prezidentə Dağlıq Qarabağ ətrafında vəziyyətlə bağlı bir neçə sual verəcəyəm.*

**- Salam, cənab Prezident.**

**Prezident İlham Əliyev:** Salam.

**- Sağ olun ki, bizi qəbul etməyə razılıq vermisiniz. Aydındır ki, son vaxtlar Siz kütləvi informasiya vasitələrinə çoxsaylı müsahibələr vermisiniz. Lakin vəziyyət sürətlə dəyişir. Biz bunu hər gün müşahidə edirik. Biz bəlkə də hələ zamana uyğun olmayan və Sizin ölkənin mövqeyini daha yaxşı anlamaqda bizim auditoriyaya kömək edəcək bəzi baza məsələləri üzərində daha ətraflı dayanmaq istərdik. Biz hamımız Moskvada 11 saatlıq danışıqlar marafonunun şahidləri olduq. Siz necə hesab edirsiniz, əldə olunmuş atəşkəsin tamamilə yerinə yetirilməsinə qayıtmaq mümkündür, yoxsa həmin atəşkəs tamamilə pozulub?**

- Biz öz tərəfdaşlarımızla əlaqələr çərçivəsində üzərimizə götürdüyümüz öhdəliklərə sadiqik. Həm əvvəldən, həm də münaqişənin nizamlanmasına dair danışıqlar prosesində biz həmişə həm beynəlxalq hüquqa, həm də münaqişənin dinc yolla həllinə sadiqliyimizə, o cümlədən Moskva danışıqlarından sonra Azərbaycanın öz üzərinə götürdüyü öhdəliklərə əsaslanmışıq, həmin öhdəlikləri yerinə yetirməyə çalışırdıq və hazırlaşırdıq. Lakin təəssüf ki, Ermənistan atəşkəs rejimini kobud şəkildə pozdu. Danışıqlardan sonra heç 24 saat keçməmiş Gəncə şəhərinə hücum edildi. Gecə vaxtı - yatmış Gəncə şəhərinin yaşayış məhəllələrinə məqsədyönlü şəkildə zərbə endirildi. Birinci hücumdan sonra, - iki hücum olub, - həlak olanlar və yaralananlar hədsiz çox idi. Yəni Ermənistan atəşkəsi nümayişkaranə şəkildə pozdu. Beləliklə, o, vasitəçilərə hörmətsizlik, Moskvada belə uzun danışıqlardan sonra öz üzərinə götürdüyü öhdəliklərə hörmətsizlik göstərdi. Bundan əvvəl, həlak olanların cəsədlərinin, əsirlərin və girovların mübadiləsi məqsədilə atəşkəsin şərtləri razılaşdırıldıqdan sonra Ermənistan döyüş meydanında da atəşkəs rejimini pozurdu. Lakin görünür, onlar bununla kifayətlənmədi və Gəncə şəhərinə hücum etdilər. Yeri gəlmişkən, yaxın vaxtlarda, iki gün bundan əvvəl onlar eyni cür hərəkət etdilər. Yenə gecə vaxtı. Bu, çox alçaq cinayətdir. Bu, beynəlxalq terrorizmdir. Dünya birliyinin bu qanlı cinayəti bir səslə pisləməsi o deməkdir ki, bu, ermənilərə baha başa gələcək. BMT-nin Baş katibi də, Avropa İttifaqı da, bir çox ölkələr də bu beynəlxalq terrorizm aktını milli səviyyədə pisləyiblər.

Vəziyyətin hələ də qaynar fazada olması bizim təqsirimiz deyil. Mən dəfələrlə demişəm ki, Azərbaycan nizamlama prinsiplərinə sadiqdir. Bu prinsiplər çoxillik danışıqlar prosesində işlənib hazırlanıb. Mən öz açıq çıxışlarım və bu günlərdə mətbuat nümayəndələri ilə əlaqələrim çərçivəsində təsdiq etmişəm ki, əgər Ermənistan danışıqlar məcrasında özünü konstruktiv apararsa, biz günü sabah hərbi əməliyyatları dayandırmağa hazırıq. Lakin Yerevandan eşitdiyimiz bəyanatlar ATƏT-in Minsk qrupu tərəfindən hazırlanmış baza prinsiplərinə tamamilə ziddir. Ermənistan rəhbərliyi lap yaxın vaxtlarda baza prinsiplərini faktiki olaraq təkzib edən çox təhlükəli bəyanatlarla çıxış edib. Prinsip etibarilə, Ermənistanın yeni rəhbərliyinin bütün fəaliyyəti danışıqlar prosesinin pozulmasına yönəlib. Bu prosesi zəiflətməyə yox, məhz pozmağa. Mən onların çoxsaylı bəyanatları, təhrikçi hərəkətləri və Azərbaycanın dinc əhalisinə hücumları barədə danışmışam. Buna görə də əgər erməni tərəfi, nəhayət, başa düşsə ki, hərbi təxribatlar yolu onları fəlakətə aparır, biz hərbi əməliyyatları yenidən dayandırmağa və məsələni danışıqlar masası arxasında həll etməyə hazırıq.

**- Sizin ölkəniz hərbi xətt üzrə təcili görüş keçirilməsinin zəruri olması fikrinə razıdırmı? Rusiya bunu deyir. Yəni əgər Sizin ölkə razıdırsa, onda həmin görüş hansı formatda, hansı tərəflərin iştirakı ilə keçirilə bilərdi?**

- Bilirsinizmi, indiki halda birinci dərəcəli məsələ Ermənistan və Azərbaycan rəhbərliklərinin siyasi iradəsidir. Bizim tərəfdən bu iradə var. Mən bu gün öz mövqeyimizi bir daha təsdiq edirəm. Özü də bunu elə bir vaxtda təsdiq edirəm ki, işğal altında olan ərazilərdə daha 13 yaşayış məntəqəsinin azad olunması bu gün elan edilib. Elə bir vaxtda ki, erməni ordusu, əslində, fiaskoya uğrayır. Azərbaycan döyüş meydanında öz üstünlüyünü nümayiş etdirir. Lakin bununla belə, biz qan tökülməsinin davam etməsini istəmədən, insanların həyatını qoruyub saxlamağı arzu edərək bu məsələni siyasi yolla həll etməyə hazırıq.

Hərbçilər arasında, əlaqələr məsələsinə gəldikdə isə, bu məqamlar baza prinsiplərində dəqiq müəyyən edilib və biz baza prinsiplərinə sadiqik, onların barəsində danışmışam, zənnimcə, təkrarlamağın mənası yoxdur. Bunlar Ermənistan tərəfindən işğal edilmiş ərazilərin qaytarılması, Dağlıq Qarabağın gələcəyinə dair danışıqlar, qaçqınlar və məcburi köçkünlərin əvvəlki yaşayış yerlərinə, o cümlədən Dağlıq Qarabağa, Şuşaya qaytarılmasıdır. Bütün bunlar baza prinsiplərində yazılıb. Ermənistan tərəfi də müxtəlif mərhələlərdə bütün bunlara razılıq verib. Buna görə indi sizin müraciət etdiyiniz məsələ baza prinsiplərində razılaşmanın sonundadır. İşğala son qoyulması ilə bağlı bütün məsələlər nizamlandıqda xarici sülhməramlı qüvvələrin iştirakı nəzərdə tutulurdu. Lakin nizamlanması tələb edilən əsas məsələlər razılaşdırılmadığına görə, tərəflər bu məsələyə hələ də başlamayıblar. Buna görə həmin qüvvələrin kimlərdən ibarət olacağı, orada hansı beynəlxalq qurumların, hansı ölkələrin təmsil olunacağı barədə dəqiq anlayış yox idi. Odur ki, bütün bu məsələlər müzakirə edilmirdi. Lakin aydın idi ki, sülhməramlı qüvvələrin tərkibi Azərbaycan və Ermənistan ilə razılaşdırılmalıdır. Həmin qüvvələrin dislokasiya yerləri də müəyyən edilməmişdir. Ona görə bu gün təmas xəttinin olmadığı, status-kvonun pozulduğu, - onu biz pozmuşuq və bunu Rusiya, ABŞ və Fransa dövlət başçılarının bəyanatları, status-kvonun qəbuledilməz olması barədə dövlət başçılarının dəfələrlə səsləndirdiyi bəyanatları çərçivəsində etmişik. Biz bu bəyanatları eşitmişik, lakin onların implementasiyasını görməmişik. Buna görə biz özümüz onu implementasiya etdik. Yəni status-kvo yoxdur, təmas xətti yoxdur. Hərbi müşahidəçilər texniki baxımdan necə və harada yerləşdirilə bilər? Axı, döyüş meydanında vəziyyət hər gün dəyişir. Hansısa xarici müşahidəçilər oraya gələndə harada dayanacaqlar? Haradasa dağlarda, vadilərdə, körpülərin üstündə? Yəni bütün bunlar çox ətraflı işlənib hazırlanma tələb edir. Bu, öz hərbi kontingentini oraya göndərməyi lazım bilənlər üçün böyük riskdir. Ona görə də bütün bunlar - sülhməramlıların tərkibi, mandatı, müddəti, məqsədləri razılaşdırılmalıdır. Əlbəttə, bütün bunlar baza prinsipləri çərçivəsində olmalıdır, həmin prinsipləri isə artıq dediyim kimi, biz qəbul edirik, amma erməni tərəfi təkzib edir.

**- Lakin hər halda vəziyyət tələb edərsə, Sizin ölkəniz rusiyalı hərbi müşahidəçilərin yeridilməsinə razılaşarmı? Əgər rusiyalılar olmasa, bu missiyada daha hansı ölkələr iştirak edə bilərdi? Siz hansı ölkələrin iştirakına qəti etiraz edərdiniz?**

- Bilirsiniz, ABŞ və Fransa kimi Rusiya da ATƏT-in Minsk qrupunun həmsədridir və bu mandat çərçivəsində ölkələr öz arasında çox sıx qarşılıqlı fəaliyyət göstərir. İndi münaqişənin qaynar fazası dövründə mən həm Qərb mətbuatında, həm də Rusiya mətbuatında müşahidə edirəm ki, Dağlıq Qarabağ məsələsi həmin ölkələr arasında fikir ayrılığı doğurmayan yeganə məsələdir. Yəqin ki, bu, həqiqətən, belədir. Ona görə ki, haraya baxsaq hər yerdə sanksiyalar, qarşıdurmalar, narazılıqlar və sair, özü də qarşılıqlı. Buna görə, əlbəttə, mən əminəm ki, həmsədrlik formatı çərçivəsində bu məsələ həmin ölkələr arasında razılaşdırılmalıdır. Bu məsələ razılaşdırılandan sonra tərəflərə təqdim edilməlidir. Yəni bütün bunlar baza prinsiplərində də nəzərdə tutulmuşdur. Ona görə sülhməramlıların və ya indi adlandırmaq istədikləri kimi desək, müşahidəçilərin kimlər olacağını biz müəyyən etməyəcəyik. Bunu ATƏT-in Minsk qrupunun həmsədrləri təklif edəcəklər. Azərbaycan və Ermənistan isə öz tərəflərindən bu və ya digər ölkəyə veto qoya, ya da razılaşa bilər. Buna görə mən düşünmürəm ki, bu məsələnin birtərəfli qaydada həlli hansısa hərbi kontingentin müəyyən edilməsi üçün üç həmsədr ölkə arasında əməkdaşlığın ruhuna uyğun olardı. Ən başlıcası, onlar harada olacaq? Budur məsələ. İş onda deyil ki, Azərbaycan razılaşacaq və ya razılaşmayacaq. Biz mandatı - onun, necə deyərlər zaminini, funksiyalarını, yerləşdiyi məkanı, fəaliyyətini bilməliyik. Onlar dağlarda və ya boş bir sahədə dayanıb kimin haraya atəş açmasını müşahidə edəcəklər? Əvvələn, bu, təhlükəlidir. İkincisi, məsələn, atəşkəsi kimin pozduğunu müşahidə etmək üçün hətta onu kimin pozduğu müəyyən edilsə belə, sonra nə olsun? Həmin insanları məsuliyyətə cəlb edəcəklər? Hansısa cinayət işləri açılacaq? Buna görə, ilk növbədə, baza prinsiplərinin implementasiyası qaydası müəyyən edilməlidir. Erməni tərəfi baş nazirin şəxsində bu prinsiplərə sadiqliyini dəqiq təsdiq etməlidir. Erməni tərəfi isə baş nazirin şəxsində hər şeydən danışır, amma bu barədə danışmır. Rusiya KİV-nin nümayəndələri ilə bizim paralel əlaqələrimiz çərçivəsində mən aydın demişəm ki, biz işğala son qoyulmasını, erməni və azərbaycanlı əhalinin əvvəlki yaşayış yerlərində birgə yaşamasını, azərbaycanlıların Şuşaya, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin digər yaşayış məntəqələrinə qaytarılmasını nəzərdə tutan baza prinsiplərinə sadiqik. Ermənistanın baş naziri yalnız təyini-müqəddərat barədə danışır. Yəni o, bu prinsipləri qəbul etmir, daha əvvəl özünün “Qarabağ Ermənistandır və nöqtə” kimi və digər səmərəsiz bəyanatları ilə, əslində, danışıqlar prosesini pozub. Onda bizə nə təklif edilir? 30 il mövcud olmuş və heç bir nəticəyə gətirib çıxarmamış status-kvoya yenidən qayıtmaq? Əgər biz görsək ki, erməni tərəfi deyir: bəli, biz Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq, ikincisi, biz baza prinsiplərinə sadiqik, üçüncüsü, biz işğal edilmiş ərazilərdən öz qoşunlarımızı çıxarmağa razıyıq. Bax, onda gəlin müşahidəçilər məsələsini müzakirə edək. Mənim fikrimcə, bu məsələ tezliklə razılaşdırıla bilər. Lakin bunlar olmadıqda, bizə mahiyyət etibarilə nə təklif edilir? Dayanmaq? Bizim ərazilərimizin işğaldan azad olunmasını davam etdirməmək? Bizə təklif edirlər ki, Ermənistana güzəştə gedək, birtərəfli güzəştə, lakin əvəzində bizə heç nə təklif edilmir. Bu, ədalətsizlikdir. Hesab edirəm ki, Azərbaycana münasibətdə bu, düzgün olmayan yanaşmadır. Qoy, erməni tərəfi desin, qoy, Ermənistanın çox danışmağı xoşlayan və çox vaxt danışdıqları ölkəsinə çox baha başa gələn baş naziri desin ki, bəli, torpaqlar işğaldan azad ediləcək, qoşunlar çıxarılacaq. Mən qoşunların işğal edilmiş ərazilərdən çıxarılması qrafikinin verilməsini də təklif etmişdim. Sonra biz Moskvada birgünlük danışıqlar çərçivəsində bunu etməyin texniki baxımdan mümkün olmadığını başa düşdük və bu mövqedən geri çəkildik. Bununla belə, biz Ermənistan tərəfinin öz qoşunlarını işğal altında olan ərazilərdən çıxarmağa hazır olmasını eşitmədik. Bu, baş verən kimi belə adlandırılan müşahidəçilər məsələsinə baxıla bilər.

**- Prinsip etibarilə nizamlamanın ardıcıllığı barədə danışmalı olsaq, Azərbaycanda yeddi rayonun mərhələli şəkildə Azərbaycana qaytarılması, lakin Qarabağın qəti statusu müəyyən edilənə qədər Laçın dəhlizinin Ermənistanın nəzarəti altında saxlanılması şərti ilə nizamlamaya başlamağa razıdırlarmı?**

- Bilirsiniz, axı bütün bunlar baza prinsiplərində yazılıb və biz bunu qəbul etmişik. Bizim mövqeyimiz həmişə çox konstruktiv olub və biz həmişə demişik ki, bəli, biz anlayırıq, insanlar arasında əlaqə olmalıdır və Laçın dəhlizi baza prinsiplərinin tərkib hissəsidir. Bununla bərabər, axı baza prinsiplərində yazılıb ki, təkcə Laçın dəhlizi deyil, bütün kommunikasiyalar, həmçinin Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında kommunikasiyalar açılır. Erməni tərəfi bu dəhlizin təhlükəsizliyinə zəmanət təqdim etməli idi. Ermənistanla Azərbaycan arasında sərhəddə kommunikasiyalar açılır. Həmçinin nəzərdə tutulurdu ki, Ermənistan Rusiya Federasiyasının ərazisinə maneəsiz yerüstü keçmək imkanına malik olacaq. Hazırda Ermənistan bu imkandan məhrum deyil, lakin bunu Azərbaycan ərazisindən keçməklə etmək qat-qat rahatdır və bu, hava şəraitindən, dağlarda qar yağmasından və sair məsələlərdən asılı deyil. Yəni bütün bunlar Azərbaycan ərazilərinin işğaldan azad edilməsini, azərbaycanlı məcburi köçkünlərin qovulduğu bütün torpaqlara, təkcə yeddi rayona deyil, həm də Dağlıq Qarabağın ərazisinə, - münaqişə başlayana qədər orada yaşayan bütün əhalinin 25 faizi azərbaycanlılar idi, - qaytarılmasını nəzərdə tutan kompromis paketinin bir hissəsidir. Əlbəttə, Dağlıq Qarabağ ilə Ermənistan arasında Laçın dəhlizi vasitəsilə maneəsiz gediş-gəliş də nəzərdə tutulurdu. Biz bu mövqeyimizi bir daha təsdiq edirik.

**- Cənab Prezident, sirr deyil ki, Rusiya Yaxın Şərqdən, xüsusən Suriya və Liviyadan münaqişə zonasına silahlılar gətirilməsi barədə xəbərlərə görə narahatlığını bildirib. Siz bunu necə şərh edərdiniz?**

- Mən bu barədə dəfələrlə açıq demişəm ki, bu cür narahatlıqlar əsassızdır. İndiyə qədər bizə heç bir tərəf heç bir fakt təqdim etməyib. Bu cür bəyanatlar təkcə Rusiya tərəfindən deyil, Fransa tərəfindən də səslənirdi və biz xahiş etdik ki, bizim hansısa terrorçuları dəvət etməyimizə dair konkret faktlar, konkret sübutlar təqdim edilsin. İndiyə qədər bizə sözlərdən başqa heç bir fakt təqdim edilməyib. Nə Prezident kimi mənə, nə bizim xüsusi xidmətlərin rəhbərlərinə, nə də Müdafiə Nazirliyinin rəhbərlərinə heç bir fakt təqdim edilməyib. Yaxşı, əgər belə faktlar varsa, əgər bunu bəyan edirlərsə, nə üçün bizə faktlar təqdim edilmir. Hansısa qəzet məqalələrinə istinad edirlər. Bilirsiniz, indi nə istəsən yazmaq olar. Ona görə biz bu yanaşmanı əsla qəbul etmirik və bəyənmirik. Bu, birincisi.

İkincisi, mən artıq demişəm ki, Azərbaycan Ordusu həm döyüş meydanında, həm də texniki təchizat baxımından üstünlüyünü göstərib. Biz Ermənistanın işğal edilmiş ərazilərdə yerləşən əsas hərbi-texniki potensialını praktiki olaraq məhv etmişik. Mən bu rəqəmləri göstərmişəm. 230-dan çox tank əsasən pilotsuz uçuş aparatları vasitəsilə, habelə tank əleyhinə müasir mübarizə sistemləri - bunu gizlətmirəm, özü tuşlanan “Spike” raketləri vasitəsilə məhv edilib. Biz dünənə qədər 36 tankı qənimət götürmüşük, çoxlu sayda digər texnikanı, o cümlədən ən müasir “S-300” zenit-raket komplekslərini, bir neçə işəsalma qurğusunu, 40-a yaxın OSA zenit-raket kompleksi qurğusunu, TOP qurğularını məhv etmişik. Prinsip etibarilə onlar pilotsuz uçuş qurğularına qarşı işləməlidirlər, lakin PUA-lar onları məhv edib. Məgər bunları Suriyanın harasındansa gəlmiş terrorçular ediblər? Yaxud bu gün bizim Ordumuz əraziləri azad edərkən kim orada həmin terrorçuları görüb? Bunlar bizim əsgərlər və zabitlərdir. Bizim ehtiyatda olanları saymasaq, Azərbaycanın nizami ordusunda 100 min döyüşçümüz var. Biz hətta səfərbərlik elan etməmişik - nə üçün? Bizə lazım deyil. Biz qismən səfərbərlik elan etdik, neçə nəfər cəlb etməyimiz barədə rəqəmlər göstərmək istəmirəm. Lakin onlardan əsasən azad edilmiş ərazilərin monitorinqinin və həmin ərazilərə nəzarətin təmin olunması üçün istifadə edirik. Biz ehtiyatda olanları döyüşə buraxmırıq, hazırda onlar bizim azad etdiyimiz ərazilərdə yerləşirlər ki, erməni tərəfin təxribat cəhdlərinin qarşısını alsınlar. Buna görə faktlar yoxdur, zərurət yoxdur. Yalnız qeybətlər, şayiələr var. Açıq deyim, mən təəssüflənirəm ki, belə söz-söhbətlər yayılır, bununla da Azərbaycana qara yaxmağa cəhd göstərilir. Eyni zamanda erməni tərəfin alçaldılmış vəziyyətdə olması bizə aydındır. Onlar bütün bu illər ərzində qürrələnir, özlərinin “məğlubedilməz ordusu” ilə lovğalanırdı. Biz onları torpaqlarımızdan elə qovduq ki, dabanlarına tüpürüb qaçdılar. Belə halda onlar, əlbəttə, güman etmək və ya təsəvvür etmək istəyirlər ki, bunu edən Azərbaycan Ordusu deyil, hansısa terrorçular və ya hansısa ölkələrdir. Bizim tərəfimizdən heç bir ölkə münaqişəyə cəlb edilməyib, bizim tərəfimizdə heç bir terrorçu yoxdur. Qarşı tərəfə, erməni tərəfinə gəldikdə isə, biz Rusiya tərəfinə belə bir narahatlığımızı çatdırmışdıq ki, qarşıdurmanın aktiv fazasında Rusiya şəhərlərindən Ermənistan ərazisinə külli miqdarda silah keçirilir. Bizdə bu barədə məlumatlar var, uçuşların xəritələri var, silahların tipləri var. Bütün bunlar Rusiya tərəfinə çatdırılıb. Əlbəttə, bu, bizim cəmiyyətdə çoxlu suallar və müəmmalar doğurur. Bax, vəziyyət belədir. Zəruri hallarda biz bu müddətdə Rusiya tərəfindən Ermənistana göndərilmiş silahların nomenklaturunu, bunların hansı nəqliyyat vasitələri ilə, hansı aviaşirkətlər tərəfindən çatdırılması barədə məlumatları dərc edə bilərik. Bunlar indi əsasən qeyri-qanuni şəkildə çatdırılır. Biz ICAO-ya rəsmən müraciət etmişik. Azərbaycan Xarici İşlər Nazirliyi ICAO-ya müraciət edib ki, müəyyən şirkətlərin nəqliyyat vasitələri ilə humanitar yüklər və Fövqəladə Hallar Nazirliyinin yükləri adı altında Ermənistana ölümsaçan silahlar çatdırılır, - yeri gəlmişkən, bütün bu məlumatlar bizdə də var, mətbuatda da. Həm Gürcüstan, həm də İran öz hava məkanını hərbi yüklər üçün bağladıqlarına görə, bu cür qaçaqmalçılıq metodlarından istifadə edilir. Biz Rusiya tərəfinə bildirmişik ki, bu işlərin qaçaqmalçılıq yolu ilə görüldüyünü güman edirik. Ona görə ki, Rusiyanın, həmçinin Fransa və ABŞ-ın da ATƏT-in Minsk qrupunun həmsədri və bitərəfliyi saxlamalı olan ölkə kimi münaqişənin aktiv fazası dövründə erməni tərəfini silahlandırmasına inanmağımız çətindir. Bizdə olan məlumata görə, bu sxemdə erməni mənşəli rusiyalı iri sahibkarların əli var, bu məsələdə beynəlxalq sanksiyalar tətbiq edilmiş məşhur silah alverçilərinin əli var. Bizim Rusiyaya müraciətimiz, o cümlədən bu məsələnin araşdırılmasına yönəlmişdi. Ona görə ki, əgər Rusiya silahları qaçaqmalçılıq yolu ilə, necə deyərlər, keş üsulu ilə nağd pulla ödənilir və daşınırsa, araşdırmaq lazımdır, bu, necə ola bilər? Bizim bu cür narahatlığımız var və bizim narahatlığımız faktlara əsaslanır. “Terrorçular” məsələsinə gəldikdə isə, bunlar hamısı əsassız sözlərdir.

**- İlham Heydər oğlu, amma 26 il ərzində dünya hər halda başa düşməyib ki, Ermənistan ilə Azərbaycan arasında Qarabağ üzrə yekun razılaşma necə görünə bilərdi. Siz bunu necə görürsünüz, hər halda sülh naminə hansısa güzəştlər mümkündürmü?**

- Bilirsiniz, mən yenə də demək istəyirəm ki, Minsk qrupunun həmsədrləri heç bir nəticəyə nail olmasalar da, - buna görə də haqlı olaraq Azərbaycan ictimaiyyətinin tənqidinə məruz qalırlar, - lakin mən son 17 ildə bu məsələ ilə praktik surətdə gündəlik rejimdə məşğul olan və bu illər ərzində vaxtının çox hissəsini məhz həll yolu tapmağa sərf etmiş bir insan kimi deməliyəm ki, Minsk qrupu səy göstərib, təkliflər verib, fəaliyyətsiz qalmayıb. Buna görə də mən bu cür əsassız ittihamları rədd edirəm. Bu, belə deyil. Ermənistanın keçmiş rəhbərliyi, bundan əvvəlki iki prezidenti ilə mənim əlaqələrim dövründə biz irəliyə çox böyük addımlar atmışdıq. Biz razılaşdırılması, ümumiyyətlə, qeyri-mümkün görünən məsələlərin razılaşdırılmasında irəliyə getmişdik. Bütün bunlar nəticəyə nail olmaq istəyi və güzəşt yolu ilə nizamlanmaya doğru getmək arzusu əsasında idi. Müəyyən mərhələdə, nizamlamaya həddən artıq yaxınlaşdığımız vaxtda erməni tərəfinin geriyə addım atması başqa bir məsələdir. Bu, artıq faktdır, hərçənd onlar həmişə bizi bunda ittiham etməyə çalışırdılar. Lakin son anda onlar Kəlbəcər və Laçının qaytarılmasından imtina etdilər. Çünki digər beş rayon çoxdan razılaşdırılmışdı. Biz artıq Kəlbəcər və Laçının nə vaxt qaytarılacağı məsələsini müzakirə edirdik. Yəni biz müddəti müzakirə edirdik. Bu məsələnin həll olunacağına nə mənim, nə də Minsk qrupunun şübhəsi yox idi. Düşünürəm ki, Minsk qrupunun o vaxt bu məsələdə iştirak edən sabiq həmsədrləri bunu təsdiqləyə bilərlər. Lakin sonra erməni tərəfi bir addım geri çəkildi və Kəlbəcərlə Laçının qaytarılması məsələsi həll edilməmiş qaldı. Başqa sözlə desək, elə mexanizm təklif olunurdu ki, bu iki rayon həmişəlik ermənilərin nəzarəti altında qalmalı idi və mən bununla qətiyyən razı ola bilməzdim.

Odur ki, mən yenə də sizin sualınıza qayıdıram, Minsk qrupu nizamlama üçün bünövrə yaradıb. Buraya ərazilərin işğaldan azad edilməsi, məcburi köçkünlərin qaytarılması, kommunikasiyaların açılması, azərbaycanlı və erməni icmalarının birgə yaşayışı daxildir. Bu, beynəlxalq hüququn və ümumiyyətlə, bəşəri əxlaqın normalarına tamamilə uyğun gəlir. Çünki Ermənistan prezidentlərindən biri ermənilərin və azərbaycanlıların milli uyuşmazlığından danışarkən, o, bir daha özünün faşist mahiyyətini nümayiş etdirib. Niyə azərbaycanlılar və ermənilər Rusiyada sakit yaşaya, ümumi biznesə, qarışıq ailəyə sahib ola bilirlər? Niyə bəzi gürcü kəndlərində ermənilər və azərbaycanlılar bir yerdə yaşayır, həm müsəlman, həm də xristian bayramlarını qeyd edirlər? Niyə Azərbaycanda minlərlə erməni bizim vətəndaşlarımız kimi layiqli həyat yaşayır? Buna görə də bu cür faşist niyyətli tezislər, əlbəttə ki, nizamlamaya kömək etmirdi. Beləliklə, sadaladığım bütün bu baza prinsipləri, üstəgəl kommunikasiyaların açılması nizamlamanın əsasıdır. Minsk qrupunun həmsədrləri də Azərbaycanın mövqeyini dəstəkləyirlər, lakin Ermənistanın indiki rəhbərliyi başqa yolla getdi. Baş nazir bəyan edirdi ki, Azərbaycana bircə qarış da torpaq verməyəcəklər. Onlar qondarma “Dağlıq Qarabağ respublikası”nın xəritələrini dərc edib, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından kənarda olan yeddi rayonun hamısını da oraya daxil ediblər. Onlar bizim bütün şəhərlərimizin, kəndlərimizin adlarını dəyişiblər. Bizim döyüş meydanında gördüklərimiz, sadəcə, onların 30 il ərzində qurduqları müdafiə xəttini yarıb keçmək deyildi. Biz gördük ki, onlar bu əraziləri verməyə hazırlaşmırdılar. Ona görə ki, orada o qədər iş görülmüşdü, mühəndis kommunikasiyalarına, möhkəmləndici qurğulara o qədər sərmayə qoyulmuşdu ki, bu, onların həmin torpaqlardan çıxıb getməyə hazırlaşmadıqlarını göstərirdi. Münaqişənin qaynar fazası başa çatdıqdan sonra biz onların orada nələr tikdiyi barədə tam informasiya təqdim edəcəyik. Buna görə bir daha demək istəyirəm ki, indi baş verənlərin bütün təqsiri şəxsən Paşinyanın üzərindədir. Bu insan, sadəcə, təsadüfən hakimiyyətə gəlməyib, o, həm Azərbaycan xalqına, həm də erməni xalqına həddən artıq iztirab və qəm-qüssə gətirib. O, Sorosun əlaltısıdır. Bu insan əvvəllər həmişə Ermənistanın Rusiya ilə əməkdaşlığının əleyhinə çıxış edirdi. Onun partiyası “Çıxış” adlanırdı - Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxış, Avrasiya İqtisadi Birliyindən çıxış. Paşinyanın bütün komandası praktik olaraq Qərbin, Soros Fondunun, “Amnesty International”, “Transparency”, “Human Rights Watch”, “Freedom House”un maliyyələşdirdiyi qeyri-hökumət təşkilatlarının nümayəndələrindən ibarətdir. Bu gün Ermənistan hakimiyyətində təmsil olunan insanlar vaxtilə Rusiya səfirliyinə yumurta atır, “Rusiyalı işğalçılar, rədd olun” şüarları ilə çıxış edirdilər. Buna görə də mən, düzünü desəm, Rusiyanın siyasi isteblişmentinin müəyyən hissəsinin bu cinayətkar terrorçu rejimi dəstəkləməsinə təəccüblənirəm. Onların gecə vaxtı Gəncə şəhərinə ballistik raketlərdən zərbə endirməsi, özü də mümkün qədər daha çox insanı məhv etmək üçün yaşayış massivlərinə bilərəkdən zərbə endirməsi qanlı cinayətdir. Onlar bu cinayətə görə hazırda döyüş meydanında cavab verirlər. Əgər ağıllarını başlarına yığmasalar, onların sonu çox acınacaqlı olacaq. Buna görə də sualınıza qayıdıram, biz baza prinsiplərinə tərəfdarıq, hesab edirəm ki, nizamlama mümkündür. Lakin bunun üçün erməni tərəfi elə indi, nə qədər ki, gec deyil, nə qədər ki, qarşımızda diz çöküb bu prinsipləri qəbul etmək və münaqişəni qaynar fazadan siyasi nizamlama mərhələsinə keçirmək üçün onun hələ vaxtı var.

**- Sonda məntiqə uyğun olardı soruşum ki, Siz Rusiya Federasiyasının vasitəçiliyi ilə Ermənistandan olan həmsöhbətinizlə görüşmək üçün Moskvaya gəlməyə hazırsınızmı?**

- Bilirsiniz, mən Moskvada çox olmuşam. İndiki halda mən belə dəvət almamışam, ona görə bu sual mənə deyil. Dəfələrlə şəxsən Prezident Vladimir Vladimiroviç Putin və ondan əvvəl Dmitri Anatolyeviç Medvedev Ermənistan və Azərbaycan rəhbərləri arasında üçtərəfli görüşlər keçiriblər. Lakin Ermənistanda hakimiyyət şərti Sorosun əlinə keçəndən sonra bu cür əlaqələr dayandırıldı. Rusiya münaqişənin nizamlanmasında həmişə mühüm rol oynayıb və mən bu barədə demişəm, bunun üçün həm tarixi, həm də coğrafi xarakterli obyektiv səbəblər var. Səbəblərdən biri də budur ki, Rusiya onilliklərboyu bizim regionda aktiv fəaliyyət göstərir və qarşılıqlı əlaqələr yüksək səviyyədədir. Buna görə də biz hər cür əlaqəyə hazırıq, yeri gəlmişkən, Xarici İşlər nazirlərinin görüşünün təşkil olunması barədə təklif gələn kimi biz dərhal razılaşdıq. Bu da bizim mövqeyimizin göstəricisidir. Axı, o vaxt Azərbaycan Ordusu strateji ərazilərin bir hissəsini artıq uğurla azad etmişdi və bu, münaqişənin təqribən on gündən çox davam etdiyi vaxt baş vermişdi. Kimin nəyə qadir olması praktik olaraq artıq hamıya aydın idi. Döyüş əməliyyatlarının sonrakı gedişatını təxmin etmək, yəqin ki, çox çətin deyildi. Lakin buna baxmayaraq, biz vaxtı uzatmadıq və ya imtina etmədik. Biz dedik, bəli, biz hazırıq. O vaxt Rusiya Prezidenti ilə söhbət zamanı dedim ki, mən naziri göndərirəm, yeri gəlmişkən, Xarici İşlər naziri həmin vaxt Cenevrədə idi, Minsk qrupu ilə danışıqlar aparırdı. Münaqişənin qaynar fazasında bizim nazir Cenevrədə idi, erməni nazir isə oraya gedib çatmadı, hərçənd o da orada olmalı idi. Buna görə biz qarşıdurmaya son qoymaq və nizamlama yollarını tapmaq üçün Moskvada və ya hər hansı başqa bir yerdə görüşməyə həmişə hazırıq. Biz də sülh istəyirik, lakin Ermənistandan fərqli olaraq, biz öz qanuni ərazilərimizi də istəyirik.

**- Cənab Prezident, müsahibəyə görə sağ olun.**

-Siz sağ olun.

# Azərbaycanın Baş Naziri Türkiyə Böyük Millət Məclisinin Sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb



Oktyabrın 19-da Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentopun rəhbərlik etdiyi, Türkiyə parlamentində təmsil olunan dörd partiyanın təmsilçilərinin daxil olduğu nümayəndə heyəti ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Baş Nazir Əli Əsədov Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 2 şəhər, 1 qəsəbə və 71 kəndi işğaldan azad etdiyini bildirdi. Qeyd olundu ki, Azərbaycan üçün bu çox mürəkkəb bir dövrdə Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla Türkiyənin bütün rəhbərliyi, türk xalqı Azərbaycanın yanında oldu. Baş Nazir göstərilən dəstəyə görə öz adından və hökumət adından minnətdarlığını bildirdi.

Baş Nazir Əli Əsədov ötən il Türkiyə ilə Azərbaycan arasında ticarət dövriyyəsinin 33 faiz artdığını, bu ilin səkkiz ayı ərzində isə pandemiyaya baxmayaraq artımın 8 faiz olduğunu vurğuladı.

Baş Nazir Türkiyə ilə Azərbaycanın həyata keçirdikləri birgə enerji layihələrinin uğurla davam etdirildiyini bildirdi, Qara dənizdə qaz ehtiyatlarının kəşfi ilə əlaqədar təbriklərini çatdırdı.

Qeyd olundu ki, qarşılıqlı investisiyaların həcmi artmaqdadır.

Əli Əsədov Qars-İğdır-Aralık-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti layihəsinin və Türkiyə-Naxçıvan qaz xəttinin mühüm əhəmiyyət kəsb etdiyini vurğuladı.

Baş Nazir pandemiya dövründə Türkiyə və Azərbaycanın səhiyyə işçilərinin səmərəli fəaliyyətini qeyd etdi.

Azərbaycan Prezidentinin Türkiyə televiziyalarına müsahibələrinin bütün dünyada diqqətlə izləndiyini vurğulayan Baş Nazir Türkiyə televiziyalarının Azərbaycanın ədalətli müharibəsi ilə bağlı doğru xəbərləri işıqlandırdığını diqqətə çatdırdı.

TBMM-in sədri Mustafa Şentop Azərbaycan və Türkiyə rəhbərlərinin ilk səfərlərini bir-birinin ölkələrinə etmələrinin bir ənənə olduğunu qeyd edərək özünün də Məclis sədri seçildikdən sonra ilk səfərini Azərbaycana etdiyini vurğuladı. O, bu səfərlərinin Azərbaycanın haqlı mübarizəsinə dəstək səfəri olduğunu deyərək Azərbaycanı bütün şərtlər daxilində müdafiə etdiklərini bəyan etdi.

Mustafa Şentop Ermənistanın Azərbaycanın mülki əhalisinə hücumlarını pislədi və qeyd etdi ki, hücuma məruz qalan Gəncə şəhərinə getməyi planlaşdırır. TBMM-in İnsan haqları komitəsinin alt komitəsində Dağlıq Qarabağ da daxil olmaqla müharibə zonalarında insan haqlarının pozulması hallarının araşdırıldığı və Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi insanlıq əleyhinə cinayətlər barədə də məruzə hazırlanacağı qeyd olundu.

# Azərbaycan Milli Məclisinin Sədri Türkiyə Böyük Millət Məclisinin Sədri ilə görüşüb



Oktyabrın 19-da Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Milli Məclisin Sədri Sahibə Qafarova ilə Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop arasında təkbətək görüş keçirilib.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam edib.

Qonaqları salamlayan Parlamentin Spikeri Sahibə Qafarova Azərbaycan və Türkiyənin dost və qardaş ölkələr olduğunu vurğulayıb. Bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev dediyi kimi, bu gün dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olan ikinci ölkələr yoxdur. Qeyd edilib ki, ölkələrimiz arasında mövcud olan münasibətlərdə təqdirəlayiq bir ənənə formalaşıb. Yüksək vəzifəyə seçilmiş hər iki ölkə rəsmiləri ilk səfərlərini qarşılıqlı olaraq qardaş ölkələrimizə edirlər. Milli Məclisin Sədri kimi ilk səfərini bu ilin sentyabrında Türkiyəyə etdiyini xatırladan Sahibə Qafarova TBMM-in Sədri Mustafa Şentopun başçılığı ilə nümayəndə heyətinin bu səfərinin də analoji xarakter daşıdığını və Azərbaycan üçün çox həssas bir dönəmə təsadüf etdiyini söyləyib.

"Bildiyiniz kimi, sentyabrın 27-də Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağda növbəti təxribat törədiblər. Buna cavab olaraq Azərbaycan Ordusu əks-hücuma keçərək, 30 ilə yaxındır işğal altında olan torpaqlarını azad etməyə başlayıb. Əməliyyatların ilk günündən Azərbaycan xalqı və dövləti qardaş Türkiyənin dəstəyini hər zaman hiss edir. Hər iki ölkənin prezidentləri, Xarici İşlər nazirləri və digər vəzifəli şəxslər arasında mütəmadi olaraq aparılan telefon danışıqları buna əyani sübutdur. Bu hadisələrlə əlaqədar TBMM-in Sədri Mustafa Şentopun mənə şəxsən zəng etməsini, bu məsələyə xüsusi diqqət göstərməsini yüksək qiymətləndiririk. Bu dəstəyə görə şəxsən öz adımdan, Milli Məclisin deputatları və xalqımızın adından Türkiyə tərəfinə təşəkkür edirəm", - deyə Milli Məclisin Sədri Sahibə Qafarova bildirib.

Parlamentin Sədri həmçinin deyib ki, müzəffər Azərbaycan Ordusu öz torpaqlarını işğaldan azad edir. Döyüş meydanında məğlub olması ilə barışa bilməyən işğalçı ölkə Azərbaycanın mülki insanlarını hədəfə alır. Cəbhə xəttindən uzaqda yerləşən Gəncə, Mingəçevir şəhərlərinə edilən hücumlar, Tərtər və digər rayon mərkəzlərinin ağır artilleriyadan atəşə tutulması bunun əyani göstəricisidir. Ermənistanın bu cür hərəkətləri beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması, müharibə cinayətidir.

Spiker Azərbaycan ilə Türkiyə arasında əlaqələrin təkcə siyasi sahədə deyil, iqtisadi sahədə də sürətlə inkişaf etdiyini söyləyib. Qeyd edilib ki, ötən il ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 4,5 milyard ABŞ dolları olub. Cari ilin yanvar-sentyabr aylarında isə bu göstərici 3 milyarda yaxınlaşıb. Qarşılıqlı investisiyaların həcminin artması ticarət dövriyyəmizin yüksəlməsinə müsbət təsir göstərir. Bugünədək ölkələrimiz arasında 249 sənəd imzalanıb. Bu hüquqi sənədlər həyatın müxtəlif sahələrində əməkdaşlığımızın möhkəm hüquqi təməlini təşkil edir.

Azərbaycanla Türkiyənin Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi neft və qaz kəmərlərinin reallaşmasında birgə fəaliyyətini vurğulayan Sədr bu cür layihələrin ölkələrimizin beynəlxalq nüfuzuna da müsbət təsir etdiyini deyib.

Milli Məclisin Sədri dövlətlərarası münasibətlərin inkişafında parlamentlərin mühüm rol oynadıqlarını vurğulayaraq, hər iki ölkənin qanunvericilik orqanında dostluq qruplarının fəaliyyət göstərməsinin əhəmiyyətini qeyd edib. Bildirilib ki, parlamentlərimiz ikitərəfli əməkdaşlıqla yanaşı, beynəlxalq parlament təşkilatlarında da prinsipial məsələlərlə bağlı birgə mövqe nümayiş etdirirlər.

Milli Məclisin Sədri TBMM-in nümayəndə heyətinin ölkəmizə budəfəki səfərinin parlamentlərarası əlaqələrimizin daha da möhkəmləndirilməsinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Səmimi görüş üçün minnətdarlığını bildirən Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop dost və qardaş Azərbaycana səfərindən məmnunluğunu söyləyib. Səfərin Azərbaycan üçün çox həssas bir dönəmə təsadüf etdiyini dilə gətirən türkiyəli Spiker Azərbaycan xalqına torpaqlarının işğaldan azad olunması uğrunda apardığı mübarizədə uğurlar arzulayıb, şəhidlərimizə Allahdan rəhmət, yaralılara şəfa diləyib. Qonaq deyib ki, qardaş Türkiyə dövləti həmişə birmənalı şəkildə Azərbaycanın yanındadır və bir millət iki dövlət olaraq ölkəmizin haqq işinə dəstək verir.

Qeyd edilib ki, hələ bu ilin iyul ayında Tovuzda, Ermənistanla sərhəddə baş verən toqquşmalar zamanı TBMM-də təmsil olunan 4 siyasi partiya birgə bəyanat qəbul edərək Azərbaycanı dəstəkləyib.

Mustafa Şentop deyib ki, Ermənistan silahlı qüvvələri cəbhədəki uğursuzluğun heyfini dinc əhalidən, qocalardan, körpələrdən çıxmağa çalışır. Onların Azərbaycanın cəbhə xəttindən kənarda yerləşən şəhər və qəsəbələrinə hücumları məhz bununla bağlıdır. "Biz işğalçı Ermənistanın bu cür hərəkətlərini qətiyyətlə pisləyirik. Bu, insan hüquqlarının kobud şəkildə pozulmasıdır. Çox təəssüf ki, beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycan torpaqlarını 30 ilə yaxın işğalda saxlamasına və onun bu cür hərəkətlərinə biganə yanaşır. Biz problemin tezliklə ədalətli həllinə inanırıq və Azərbaycanın yanındayıq. Azərbaycan Prezidenti İlham Əliyev dediyi kimi, "Qarabağ Azərbaycandır!", - deyə M.Şentop bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## *Giorgi QAXARİYA:* "Azərbaycan həm sosial-iqtisadi baxımdan, həm də beynəlxalq səviyyədə nüfuzunun möhkəmlənməsi baxımından fəxarətli yol keçib"

Gürcüstanın Baş Naziri Giorgi Qaxariya Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədova Müstəqillik Günü münasibətilə təbrik məktubu ünvanlayıb. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

Baş Nazir Giorgi Qaxariya Gürcüstan hökuməti adından və şəxsən öz adından Baş Nazir Əli Əsədovu Azərbaycanın Müstəqilliyi Günü münasibətilə təbrik etdiyini bildirib. O, qeyd edib ki, Azərbaycan həm sosial-iqtisadi baxımdan, həm də beynəlxalq səviyyədə nüfuzunun möhkəmlənməsi baxımından fəxarətli yol keçib. Bizim ümumi səylərimiz nəticəsində Gürcüstan və Azərbaycan Respublikası arasında sarsılmaz strateji tərəfdaşlıq münasibətləri formalaşıb və dostluq ruhu daşıyan bu tərəfdaşlığımız ikitərəfli və çoxtərəfli səviyyədə ümumi məqsəd və maraqlarımızla daha da möhkəmlənməkdədir.

"Əminəm ki, münasibətlərimizin daha da genişlənməsi və strateji tərəfdaşlığımızın dərinləşməsi üçün biz sıx əməkdaşlığımızı bundan sonra da uğurla davam etdirəcəyik", - deyə Gürcüstanın Baş Naziri qeyd edib. O, Baş Nazir Əli Əsədova və Azərbaycan xalqına sülh, uğurlar və əmin-amanlıq diləyib.

## BP-nin regional prezidentinin Baş Nazir Əli Əsədova məktubunda Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə xalqımıza dəstək ifadə olunub

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədova məktub ünvanlayıb.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, məktubda Azərbaycanın öz ərazi bütövlüyünün bərpa edilməsi uğrunda apardığı mübarizədə xalqımıza dəstək ifadə edilib.

Qəri Counz Gəncə şəhərinin, eləcə də Azərbaycanın digər şəhər və kəndlərinin son günlərdə atəşə tutulması nəticəsində mülki əhali arasında itkilərin olması xəbərindən dərindən kədərləndiyini vurğulayıb, həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verib.

Azərbaycan üçün müstəsna əhəmiyyət daşıyan bu dövrdə cari neft və qazın hasilatı və nəqli prosesinin fasiləsiz həyata keçirilməsini təmin etmək üçün BP-nin heyəti tərəfindən bütün mümkün səylərin göstərildiyi qeyd olunub.

## İsrailin Baş Naziri Müstəqillik Günü münasibətilə Azərbaycanın Baş Nazirinə təbrik məktubu göndərib

İsrailin Baş Naziri Benyamin Netanyahu Müstəqillik Günü münasibətilə Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədova təbrik məktubu ünvanlayıb.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Benyamin Netanyahu məktubunda İsrailin Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olmaqdan qürur duyduğunu vurğulayıb.

Həmin tarixdən keçən 30 ilə yaxın müddət ərzində İsrail və Azərbaycan xalqlarının həqiqi dostluğuna əsaslanaraq, iki ölkə arasında möhkəm münasibətlərin qurulduğu qeyd olunub.

İsrailin Baş Naziri ümumi maraq doğuran sahələrdə ikitərəfli münasibətlərin genişləndirilməsi üçün birgə səylərin göstərilməsinə hazır olduğunu ifadə edib.

Benyamin Netanyahu Azərbaycan xalqına inkişaf, sabitlik və firavanlıq arzulayıb.

## *Sahibə QAFAROVA:* "Ümid edirik ki, beynəlxalq ictimaiyyət Azərbaycan xalqına qarşı törədilən terrora biganə qalmayacaq"

Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının Sədri Vyaçeslav Volodinə məktub ünvanlayıb.



Məktubda başçılıq etdiyi nümayəndə heyətinin keçən ay Rusiya Federasiyasında rəsmi səfərdə olmasını və rus həmkarları ilə keçirdikləri görüşləri xoş təəssüratlarla xatırlayan Sahibə Qafarova əmin olduğunu söyləyib ki, həmin səfər qarşılıqlı əlaqələrimizin bundan sonra da inkişafına mühüm töhfələr verəcək.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, məktubda bu il oktyabrın 16-da Dövlət Dumasının deputatı, Vətəndaş cəmiyyətinin inkişafı, ictimai və dini birliklər məsələləri Komitəsinin üzvü, "Vahid Rusiya" fraksiyasının üzvü Vitali Milonovun Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qeyri-qanuni səfər edib orada qondarma, separatçı qurumun başçısı ilə görüşərək bir sıra təxribatçı fikirlər səsləndirdiyi diqqətə çatdırılıb.

Qeyd olunub ki, Dövlət Dumasının deputatı tərəfindən separatçı rejimin nümayişkaranə şəkildə dəstəklənməsi bizdə dərin təəssüf və qınaq doğurur.

Bildirilib ki, Rusiyanın ali qanunvericilik və nümayəndəlik orqanının deputatının bu cür davranışı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasındakı strateji tərəfdaşlıq münasibətlərinin ruhuna uyğun gəlmir, Azərbaycanın Milli Məclisi ilə Rusiya Federal Məclisinin Dövlət Duması arasında mövcud olan yüksək səviyyəli parlamentlərarası əlaqələrlə ziddiyyət təşkil edir.

Nəzərə çatdırılıb ki, Azərbaycan Respublikasının rəsmi orqanlarının müvafiq icazəsi olmadan hər hansı şəxsin Dağlıq Qarabağa səfəri ölkə qanunvericiliyinin ciddi şəkildə pozulmasıdır. Azərbaycan Respublikasının beynəlxalq hüquq çərçivəsində öz ərazi bütövlüyünün və suverenliyinin bərpası uğrunda mübarizə apardığı şəraitdə, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində Rusiya Federasiyasının vasitəçiliyini nəzərə aldıqda V.Milonovun qanundankənar əməlləri qətiyyən qəbuledilməzdir.

Azərbaycan parlamentinin Spikeri bundan sonra bu kimi qanunsuz səfərlərin qarşısının alınması üçün müvafiq tədbirlərin görülməsinin zəruriliyini diqqətə çatdırıb.

Məktubda həmçinin təəssüf hissi ilə qeyd edilib ki, Ermənistan silahlı qüvvələri bu yaxınlarda Rusiyanın vasitəçiliyi ilə Moskvada əldə olunmuş atəşkəs rejiminin arxasında gizlənərək işğalçı siyasətini və hərbi cinayətlərini davam etdirir. Milli Məclisin Sədri oktyabrın 17-nə keçən gecə Azərbaycanın Gəncə şəhərinə Ermənistan silahlı qüvvələri tərəfindən humanitar atəşkəsdən sonra ikinci dəfə mənfur raket hücumunun həyata keçirildiyini bildirib. Raket atəşinin mülki əhali arasında ağır itkilərə səbəb olduğunu vurğulayan Sahibə Qafarova Ermənistan tərəfindən törədilən bu vandalizm aktının beynəlxalq humanitar hüququn və Cenevrə konvensiyalarının kobud şəkildə pozulması, müharibə cinayəti və insanlıq əleyhinə cinayət olduğunu qeyd edib.

Məktubun sonunda Sahibə Qafarova beynəlxalq ictimaiyyətin Azərbaycan xalqına qarşı törədilən terrora biganə qalmayacağına və təcavüzkar ölkənin əməllərinə düzgün qiymət verəcəyinə ümidvar olduğunu ifadə edib.

# Türkiyə Böyük Millət Məclisinin Sədri Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib







Azərbaycanda səfərdə olan Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop oktyabrın 19-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub. AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Mustafa Şentop görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarlarını da ziyarət edib.

Sonra Şəhidlər xiyabanına gələn qonaq ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən Mustafa Şentopa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Türkiyə parlamentinin sədri həmçinin Şəhidlər xiyabanında qəhrəman türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə əklil qoyub. Şəhidlik kitabəsinin üstünə gül dəstələri düzən Mustafa Şentop xatirə kitabına ürək sözlərini yazıb.

## Özbəkistan parlamentinin Sədri Ermənistan tərəfindən Gəncənin artilleriya atəşinə tutulması ilə bağlı narahatlığını bildirib

Özbəkistan Ali Məclisinin Sədri Nurdinjon İsmailov Milli Məclisin Sədri Sahibə Qafarovaya məktub ünvanlayıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Nurdinjon İsmailov məktubunda dost ölkə olaraq Özbəkistanın Dağlıq Qarabağ ətrafında silahlı münaqişə və azərbaycanlı mülki şəxslərin öldürülməsi ilə bağlı ciddi narahatlığını ifadə edib. O, Azərbaycanın ikinci ən böyük şəhəri Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə tutulması nəticəsində həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verib.

Məktubda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Özbəkistanın prinsipial mövqeyi bir daha diqqətə çatdırılıb. Bildirilib ki, münaqişə BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün qorunması şərtilə həll olunmalıdır.

Özbəkistan parlamentinin Sədri gələcəkdə ölkələrimiz və xalqlarımız arasında əlaqələrin daha da inkişaf edəcəyinə əminliyini bildirib.

## Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop Azərbaycana rəsmi səfərə gəlib

Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop oktyabrın 18-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Türkiyə Böyük Millət Məclisi Sədrinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Mustafa Şentopu Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli və digər rəsmi şəxslər qarşılayıblar.

# *Hikmət HACIYEV:* "Ermənistan Azərbaycanın mülki əhalisinə qarşı dövlət səviyyəsində terror aktları həyata keçirir"



"Ermənistan Azərbaycanın mülki əhalisini atəşə tutmaqda davam edir. Ermənistan Azərbaycanın mülki əhalisinə qarşı dövlət səviyyəsində terror aktları həyata keçirir".

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev oktyabrın 19-da ADA Universitetində keçirilən brifinqdə deyib.

Prezidentin köməkçisi qeyd edib ki, oktyabrın 10-da Ermənistanla Azərbaycan arasında humanitar atəşkəs barədə razılaşma əldə edilməsinə baxmayaraq, bir qədər sonra münaqişə zonasından kənarda yerləşən Gəncə şəhərində mülki əhali atəşə tutuldu. Gəncədə hərbi hədəf yox idi. Sadəcə, ermənilər bilərəkdən dinc vətəndaşları qətlə yetirmək üçün həmin əraziləri atəşə tutdular.

Hikmət Hacıyev qeyd edib ki, Ermənistan Azərbaycanın digər şəhərlərini, o cümlədən sənaye şəhəri olan Mingəçeviri də atəşə tutub. Onlar Gəncədə böyük vəhşilik törədiblər. Ermənistan Azərbaycanın mülki əhalisinə qarşı dövlət səviyyəsində terror aktları həyata keçirsə də, xalqımızın iradəsini qıra bilmədi. Azərbaycan öz torpaqlarını işğaldan azad etməkdə davam edir. İkinci dəfə oktyabrın 18-də humanitar atəşkəs barədə razılaşmaya baxmayaraq, Ermənistan öz xislətini göstərdi və yenidən mülki əhalimizi atəşə tutdu. Bu, Ermənistanın terrorçuluq mahiyyətini bir daha göstərir.

* * *

"Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrinə və mülki əhalisinə qarşı hücumları ilə bağlı hər bir fakt Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən sənədləşdirilir, cinayət işləri başlanır, materiallar toplanır".

AZƏRTAC xəbər verir ki, bu sözləri oktyabrın 19-da ADA Universitetində diplomatik korpusun nümayəndələri üçün keçirilən brifinqdə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi bildirib ki, daxili prosedurlar başa çatdıqdan sonra Ermənistan silahlı qüvvələri tərəfindən yaşayış məntəqələrinə və mülki əhaliyə qarşı hücumlarla bağlı Avropa İnsan Hüquqları Məhkəməsinə və digər aidiyyəti qurumlara müraciətlərin edilməsi nəzərdə tutulub.

* * *

"Humanitar atəşkəs elan ediləndən 2 dəqiqə sonra Ermənistan silahlı qüvvələri təxribatlar törətdi. Azərbaycan Silahlı Qüvvələri isə onların layiqli cavablarını verdi. Bunun nəticəsində bir sıra kəndlərimiz işğaldan azad edildi. Bununla bağlı Prezident, Ali Baş Komandan İlham Əliyev də özünün "Twitter" hesabından xalqımıza xoş xəbəri çatdırıb".

AZƏRTAC xəbər verir ki, bu sözləri oktyabrın 19-da ADA Universitetində diplomatik korpusun nümayəndələri üçün keçirilən brifinqdə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi bildirib ki, hazırda ön cəbhədə vəziyyət gərgin olmaqda davam edir. Azərbaycan Silahlı Qüvvələri düşmənin təxribatlarına layiqli cavab verir.

* * *

"Bizim məqsədimiz yalnız Azərbaycanın ərazi bütövlüyünü bərpa etməkdir. Azərbaycanın Ermənistan ərazisində heç bir hərbi məqsədi yoxdur".

AZƏRTAC xəbər verir ki, bunu oktyabrın 19-da ADA Universitetində diplomatik korpusun nümayəndələri üçün keçirilən brifinqdə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev söyləyib.

Prezidentin köməkçisi qeyd edib ki, münaqişə artıq öz həllini tapmalıdır. Biz bu münaqişəni gələcək nəsillərə saxlamamalıyıq.

Hikmət Hacıyev deyib ki, Ermənistan müxtəlif ölkələrdən muzdlular gətirərək Azərbaycana qarşı istifadə edir. Eyni zamanda Ermənistan öz diasporunun köməyi ilə "qara bazar"dan silahlar alaraq mülki təyyarələr vasitəsilə Ermənistana daşıyır və həmin silahlardan Azərbaycanın mülki əhalisinə qarşı istifadə edir. Ermənistana mülki təyyarələr vasitəsilə silahların daşınması beynəlxalq qanunların, o cümlədən beynəlxalq mülki aviasiya qaydalarının kobud şəkildə pozulmasıdır. Beynəlxalq təşkilatlar Ermənistanın pozucu hərəkətlərinin qarşısını almalıdır.

* * *

"Ermənistanın hərbi-siyasi rəhbərliyi yeni ərazilərin ələ keçirilməsi ilə bağlı absurd iddialar irəli sürürdü. Bu kimi addımlar təbii ki, sülh danışıqlarının və münaqişənin dinc yolla həll olunmasının üzərindən xətt çəkirdi. Reallıq bir daha göstərir ki, Azərbaycan tərəfi təhlükə altındadır, Ermənistan yox. Çünki Ermənistan tərəfi Azərbaycanın dinc əhalisinə qarşı məqsədyönlü raket hücumları həyata keçirir. Məhz buna görə də Azərbaycan əhalisi təhlükə qarşısındadır".

AZƏRTAC xəbər verir ki, bu fikirləri oktyabrın 19-da ADA Universitetində diplomatik korpusun nümayəndələri üçün keçirilən brifinqdə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi bildirib ki, Azərbaycan Silahlı Qüvvələri və Azərbaycan rəhbərliyi müvəqqəti humanitar atəşkəsə sadiqdir. Lakin Ermənistan tərəfinin davam edən təxribatları bizi vadar edir ki, öz əhalimizin, dinc sakinlərimizin təhlükəsizliyini təmin edək. Təkcə dünən gün ərzində Azərbaycanın 5 rayonu 229 mərmiyə hədəf olub. Ermənistanın davam edən hərbi təcavüzü nəticəsində Azərbaycanın yaşayış məntəqələrinə, mülki obyektlərinə 24 mindən çox mərmi atılıb, 1846 ev yararsız vəziyyətə düşüb. Həmçinin bir sıra digər mülki obyektlər də dağılıb.

* * *

"Azərbaycan Ermənistandan fərqli olaraq mülki əhalini hədəfə almır, yalnız hərbi hədəflərə istiqamətlənir. Ermənistanın törətdiyi vəhşiliklərə ad tapmaq olmur. Azərbaycan humanitar atəşkəsə əməl etsə də, Ermənistanın təxribatlarına cavab vermək məcburiyyətində qalır. Ermənistanın bu hərəkətləri bütün konvensiya və qanunların kobud şəkildə pozulmasıdır. Çünki bütün konvensiya və qanunlarda mülki əhali və infrastrukturun atəşə tutulmamasının vacibliyi qeyd edilir. Lakin biz görürük ki, Ermənistan bütün bu konvensiya və qanunları ayaq altına atır və Azərbaycan xalqına qarşı müharibə cinayətləri törətməkdə davam edir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev oktyabrın 19-da ADA Universitetində keçirilən brifinqdə bildirib.

Hikmət Hacıyev deyib: "Ermənistan hazırda da Azərbaycanın mülki əhalisini atəşə tutur. Hətta Ermənistan öz ərazisindən də Azərbaycanın mülki əhalisini atəşə tutmaqla münaqişəni genişləndirməyə çalışır. Biz dünən bəyan etdik ki, müharibədə həlak olan ermənilərin cəsədlərini verməyə hazırıq, lakin bunun cavabında Ermənistan tərəfi öz təxribatlarını davam etdirdi və mülki əhalimizi yenə də atəşə tutdu".

## *Hikmət HACIYEV:* "5 bölgəyə 229 mərmi atılıb"

18 oktyabr - humanitar atəşkəsin birinci günü, saat 00:00-dan etibarən Ermənistan silahlı qüvvələri mülki şəxslərə və mülki obyektlərə raket zərbəsi endirib.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün rəsmi "Twitter" hesabında yazıb:

"5 bölgəyə 229 mərmi atılıb: Tərtərə 160, Ağdama 63, Goranboya 6;

- 3 raket hücumu: 1 Xızı rayonuna, 2 Ağcabədidəki Poladlı kəndinə;

- 1 dron hücumu".

## *Elçin ƏMİRBƏYOV:* "Beynəlxalq təşkilatlar Ermənistanın vandalizm hərəkətlərinin qarşısını almalıdır"

"Ermənistan Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasəti həyata keçirib. Onlar Azərbaycan ərazisinin 20 faizini işğal edib. Ermənistan işğal olunmuş Azərbaycan ərazilərində qanunsuz iqtisadi fəaliyyət həyata keçirib".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov oktyabrın 19-da ADA Universitetində keçirilən brifinqdə deyib.

Elçin Əmirbəyov qeyd edib ki, Azərbaycan uzun illər münaqişənin sülh yolu ilə həll olunmasını gözləyib. Lakin əfsuslar olsun ki, Ermənistan qeyri-konstruktiv mövqe göstərərək, münaqişənin sülh yolu ilə həllinə imkan vermədi. Azərbaycan konstruktiv mövqe nümayiş etdirsə də, Ermənistan təxribatlara əl atdı. Bu gün də Ermənistan Azərbaycan xalqına qarşı müharibə cinayətləri törətməkdə davam edir. Paşinyan da öz sələflərindən heç nə ilə fərqlənməyib və xalqımıza qarşı müharibə cinayətlərinin törədilməsinə davam edib. Ermənistanın bütün bu əməllərinə baxmayaraq, Azərbaycan tərəfi münaqişənin sülh yolu ilə həll olunmasının mümkünlüyünü bildirdi. Lakin Ermənistan son iki humanitar atəşkəs razılaşmasını pozaraq Azərbaycanın mülki əhalisini, Gəncə, Mingəçevir və digər şəhərlərini raket atəşinə tutdu. Gəncədə faciə yaşandı. Beynəlxalq təşkilatlar Ermənistanın bu vandalizm hərəkətlərinin qarşısını almalıdır və onlara qarşı təzyiqləri artırmalıdır.

# Prezidentin köməkçisi Hikmət Hacıyevin "Al Jazeera" televiziya kanalına müsahibəsi

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın son təxribatları, xüsusilə Gəncə şəhərinə raket hücumu ilə bağlı "Al Jazeera" televiziya kanalına müsahibə verib.

AZƏRTAC müsahibəni təqdim edir.

*- Ermənistan bildirir ki, onların raketlərinin Gəncə şəhərini vurmaq üçün lazımi uçuş məsafəsi yoxdur. Bu barədə nə deyə bilərsiniz?*

- Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən bunun təkzib edilməsi qeyri-əxlaqi təfəkkürün məhsuludur. Ermənistan silahlı qüvvələri Azərbaycanın ən böyük şəhərlərinə və oktyabrın 4-dən isə Gəncə şəhərinə raket hücumu həyata keçirir.

İlk dəfə deyil ki, ermənilər Azərbaycanın mülki əhalisinə qarşı qəsdən belə hücumlar törədirlər. Onlar bir vaxtlar Səddam Hüseynin mülki şəxslərə qarşı istifadə etdiyi SCUD taktiki ballistik raketlərindən istifadə edirlər. Ermənilər məhz gecə saat 1 radələrində insanların yatdığı zaman Azərbaycanın ikinci ən böyük şəhəri Gəncəni və xüsusilə də şəhərin əhalinin sıx məskunlaşdığı ərazisini amansız şəkildə raket atəşinə tutublar. Ermənistanın bu raket hücumlarını həyata keçirməkdə yeganə məqsədi mülki insanlar arasında təşviş və çaxnaşma yaratmaq, bacardıqca çoxlu mülki şəxsləri qətlə yetirməkdir.

*- Bir neçə saat əvvəl Azərbaycan Stepanakerti atəşə tutub.*

- Bu, tamamilə yalandır. Əvvəla, həmin şəhərin adı Xankəndidir və ermənilər onun adını dəyişiblər. İkincisi, Azərbaycan Prezidenti xalqa müraciətində də bir daha vurğulayıb ki, Azərbaycan mülki şəxsləri hədəfə almır və onlara qarşı vuruşmur. Bu da Ermənistan ilə Azərbaycan arasındakı fərqdir. Azərbaycan yalnız legitim hərbi hədəflərə qarşı silah və raketlərdən atəş açır. Gəncənin raket atəşinə tutulması Ermənistanın məhz SCUD taktiki ballistik raketlərdən mülki şəxslərə qarşı istifadə etməsinin əyani təsdiqidir. Bu hücum nəticəsində 13 mülki şəxs qətlə yetirilib, 40 nəfərdən çox insan yaralanıb. Həmin hücumdan bir həftə əvvəl ermənilərin Gəncəyə raket hücumu nəticəsində isə 11 mülki şəxs həlak olmuş və 30-dan çox insan yaralanmışdı. Bütün bu hücumlar qəsdən törədilmiş vandalizm və terrorizm aktı, o cümlədən müharibə cinayəti hesab edilir. Ermənistanın hərbi-siyasi rəhbərliyi bu cinayətə görə tam məsuliyyət daşıyır.

*- Bu münaqişənin dayandırılması üçün beynəlxalq səylər göstərilirmi? Yəni bu münaqişə bu cür davam edə bilməz. Bu barədə nə düşünürsünüz?*

- Azərbaycan və Ermənistan arasında humanitar atəşkəs razılaşması əldə olunub. Amma Ermənistan bilərəkdən razılaşmanın şərtlərini kobud şəkildə pozur. Bu razılaşma əldə olunduqdan dərhal sonra Ermənistan SCUD raketi ilə Gəncəyə hücum həyata keçirdi və yenidən mülki əhalini hədəfə aldı. Həmçinin Gəncə şəhəri coğrafi cəhətdən döyüş zonasından kənarda yerləşir. Bu şəhəri, xüsusilə də heç bir hərbi obyektin yerləşmədiyi həmin ərazini raket atəşinə tutmaq vandalizm aktıdır. Bütün bunlara görə Ermənistanın növbəti atəşkəs razılaşmasından sonra da atəş açmayacağına necə inana bilərik?

Dünya birliyinin Ermənistanın qeyri-qanuni fəaliyyətinə və törətdiyi hərbi cinayətlərə qarşı susqunluq nümayiş etdirməsi və bu hadisələri kəskin şəkildə pisləməməsi Ermənistanın özünü cəzasızlıq şəraitində hiss etməsinə rəvac verir. Biz beynəlxalq ictimaiyyəti Ermənistanın bu hərəkətlərini kəskin şəkildə pisləməyə və onun belə təxribatlar törətməkdən çəkindirməyə, həmçinin bu işğala son qoymasını tələb etməyə çağırırıq. Ermənistan regionda sabitliyə və təhlükəsizliyə yeganə ciddi təhdid olaraq qalır.

# Prezidentin köməkçisi Hikmət Hacıyev "Əl-Ərəbiyə" kanalına müsahibəsində Ermənistanın son təxribatlarından danışıb

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Əl-Ərəbiyə" kanalına müsahibə verib. AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi müsahibədə Ermənistanın son təxribatları barədə danışıb.

Hikmət Hacıyev Ermənistan silahlı qüvvələrinin azərbaycanlı mülki insanları qətlə yetirdiyini, infrastruktura böyük zərər vurduğunu bildirib. Qeyd edib ki, Ermənistan indi də müxtəlif raket sistemlərindən istifadə etməklə zərbələr endirir və bu, bizi çox narahat edir. Oktyabrın 17-də gecə saatlarında Ermənistan "SCUD" raketləri ilə Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncəni atəşə tutub. Nəticədə 10-dan çox mülki şəxs ölüb. Ermənistan təcavüzkar dövlətdir, bu ölkənin silahlı qüvvələri tərəfindən Azərbaycan vətəndaşları qətlə yetirilir. Ermənistan Azərbaycana qarşı etnik təmizləmə həyata keçirib, mədəni irsimizi məhv edib. Ermənistanın raket sistemlərindən istifadə edərək mülki vətəndaşlarımızı hədəfə almasını İkinci Dünya müharibəsi zamanı baş verənlərə bənzətmək olar. Bəzi hallarda onlar gün ərzində çoxlu sayda raket hücumları həyata keçirirlər. Odur ki, bu silahlar məsuliyyətsiz şəkildə Ermənistana təqdim edilməməlidir. Ermənistan mülki şəxslərlə hərbçilər arasında fərq qoymur, bu raketləri necə gəldi, məsuliyyətsiz şəkildə istifadə edir. Bütün kanallardan istifadə edərək Ermənistanın bu raketlərlə təmin edilməsinin qarşısını almaq lazımdır. Ermənistan kasıb ölkədir. O, bu cür müasir silahları pulla almaq iqtidarında deyil.

Humanitar atəşkəslə bağlı suala cavabında Hikmət Hacıyev bildirib ki, Moskvada bununla bağlı əldə edilmiş razılaşmanı Ermənistan pozub, Gəncə şəhərinə ballistik raket hücumları həyata keçirib, yaşayış məskənlərimizi bombalayıb. Ermənistan çoxlu sayda hərbi qüvvələri cəm edib, işğaldan azad etdiyimiz kəndləri geri almağa cəhd edib. Azərbaycanın mövqelərini bombalamaq üçün hərbi təyyarələrdən, raketlərdən istifadə edib. Ermənistan atəşkəsdə maraqlı deyil. Onlar bu atəşkəsdən Azərbaycan torpaqlarının işğalına əsaslanan siyasətlərini davam etdirmək üçün istifadə edirlər. Nəticədə mülki şəxslər arasında çoxlu itkilər var. Əgər Ermənistan atəşkəsdə və sülhdə maraqlıdırsa, o, Azərbaycanın mövqelərini, Qarabağdakı tarixi yerləri, məscidlərimizi, dini abidələrimizi atəşə tutmağı dayandırmalıdır. Ermənistan bütün mədəni, dini abidələrimizi dağıdıb, təhqir edib, bununla da islam ümmətini təhqir edir. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın ədalətli mövqeyini, münaqişənin beynəlxalq hüquq çərçivəsində həllini daim dəstəkləyib. Türkiyə, Pakistan, Mərakeş, Səudiyyə Ərəbistanı kimi dövlətlər Azərbaycanı dəstəkləyirlər, beynəlxalq hüquqa görə Ermənistanın təcavüzkar tərəf olduğunu qəbul edirlər. Əgər Ermənistan bu münaqişənin həllində maraqlıdırsa, niyə yaşayış məskənlərimizi davamlı şəkildə atəşə tutur, köçkünlərin evlərinə qayıtmasına mane olur? Əgər bu münaqişənin sülh yolu ilə həllində maraqlıdırsa, danışıqlar masasına qayıtmalıdır. Əksinə, Ermənistan danışıqları uzadıb, substantiv danışıqlara getməyib. Ona görə də heç bir nəticə əldə edilməyib. Münaqişə BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında tam şəkildə həll olunmalıdır. Bu qətnamələrin əsas tələblərindən biri də Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarmasıdır. Atəşkəs çağırışı edən tərəflərdən gözləyirdik ki, onlar Ermənistandan təcavüzkar siyasətini dayandırmağı, silahlı qüvvələrini işğal olunmuş bütün ərazilərimizdən çıxarmağı da tələb edəcəklər. Bu, regionda sülhün bərqərar olması üçün əsas şərtdir.

# Azərbaycanın Baş prokuroru Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri ilə görüşüb

Oktyabrın 19-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas ilə görüşüb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Baş prokuror Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın əhəmiyyətini vurğulayaraq, milli qanunvericilik sahəsində Avropa İttifaqına daxil olan ölkələrin qabaqcıl təcrübəsinin öyrənilməsinin önəmli olduğunu vurğulayıb.

Kamran Əliyev prokurorluqda aparılan genişmiqyaslı islahatlardan söhbət açaraq, prokurorluq orqanlarında struktur dəyişikliyi ilə əlaqədar yeni yaradılmış idarələrin, o cümlədən Xüsusi müsadirə məsələlərinin əlaqələndirmə idarəsinin fəaliyyət istiqamətləri barədə məlumat verərək, bu sferada Avropa İttifaqının uğurlu təcrübəsindən geniş istifadə olunduğunu diqqətə çatdırıb.

Baş Prokuror Ermənistan tərəfindən Dağlıq Qarabağ münaqişənin törədilməsini, o cümlədən mülki əhalinin sıx yaşadığı Gəncənin raket atəşinə tutulmasını pisləyən Avropa İttifaqının bəyanatlarını yüksək qiymətləndirib. Münaqişənin mahiyyəti barədə məlumat verən Baş prokuror sentyabrın 27-dən başlayaraq Ermənistanın silahlı qüvvələri tərəfindən Azərbaycanın yaşayış məntəqələrinin ağır artilleriya və raket qurğularından atəşə tutulması nəticəsində dinc mülki əhalimizə qarşı sülh və insanlıq əleyhinə cinayətlərin törədilməsini, o cümlədən 4, 11 və 17 oktyabr tarixlərində Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin raket zərbələrinə məruz qalması nəticəsində xeyli sayda mülki insanın həlak olması və yaralanmasını xüsusilə vurğulayıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən Kestutis Yankauskas ikitərəfli münasibətlərə toxunaraq Avropa İttifaqının Azərbaycanla əlaqələrə böyük önəm verdiyini və münasibətlərin yüksək səviyyədə və müvəffəqiyyətlə inkişaf etdiyini bildirib.

Avropa İttifaqının nümayəndəsi ölkəmizlə Ermənistan arasındakı mövcud münaqişə barədə fikir mübadiləsi aparılarkən Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyaraq Dağlıq Qarabağ ərazisinin ölkəmizin tərkib hissəsi olmasını təsdiqləmiş, münaqişənin BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində nəzərdə tutulmuş qaydada ATƏT-in Minsk qrupunun iştirakı ilə baza prinsipləri əsasında Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həllinin vacibliyini qeyd edib.

Həmçinin Kestutis Yankauskas Avropa İttifaqının Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tanınmasının təmsil etdiyi qurumun rəsmi sənədlərində dəfələrlə təsdiq edildiyini xüsusilə vurğulayıb.

Ermənistan silahlı qüvvələri tərəfindən Gəncənin yaşayış məntəqələrinin raket atəşinə tutulmasının Avropa İttifaqı tərəfindən bəyanatla pislənildiyi bildirilib, bu hadisələrin dünya ictimaiyyətinə tanıdılması məqsədilə Baş Prokurorluq tərəfindən keçirilmiş brifinqlər, verilən məlumatlar və görülmüş digər tədbirlərin xüsusi əhəmiyyət kəsb etdiyi vurğulanmaqla bu kimi mətbuat konfranslarının tez-tez keçirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Kestutis Yankauskas missiya rəhbəri kimi Gəncədə dinc əhaliyə qarşı törədilmiş cinayətləri pislədiyini bir daha xüsusilə qeyd edib.

Yekunda maraq kəsb edən suallara və mövzulara dair ətraflı məlumatın verilməsi təmin edilməklə, bir sıra digər məsələlər, o cümlədən Avropa İttifaqının TAIEX və TWINNING layihələrinin əhəmiyyəti müzakirə edilib, faydalı fikir mübadiləsi aparılıb.

# Həqiqəti əks etdirməyən məlumatların yayılması ümumi işimizə əngəl törədir

Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (DTX) dəqiqləşdirilməmiş məlumatların yayılmaması ilə bağlı sosial şəbəkə istifadəçilərinə müraciət edib.

AZƏRTAC xəbər verir ki, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) İctimai əlaqələr şöbəsinin yaydığı məlumatda qeyd olunub ki, sentyabrın 27-dən başlayaraq cəbhənin bütün istiqamətlərində Azərbaycan Ordusu uğurlu əks-hücum əməliyyatlarını davam etdirərək düşmənə sarsıdıcı zərbələr endirir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin televiziya ilə xalqa müraciətlərində və sosial şəbəkələrdəki rəsmi səhifələri vasitəsilə düşməndən azad edilmiş şəhər və kəndlərimiz, ələ keçirilmiş döyüş mövqeləri, hərbi texnika və silah-sursatlar barədə vətəndaşlarımıza mütəmadi məlumatlar verilir. Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar və ön xətdəki yerdəyişmələr barədə Müdafiə Nazirliyi tərəfindən gün ərzində bir neçə dəfə əhali rəsmən məlumatlandırılır.

Bütün bunlara baxmayaraq, ayrı-ayrı sosial şəbəkələrdə Azərbaycan Ordusunun bəzi yaşayış məntəqələrini işğaldan azad etməsinə və digər əməliyyatlarına dair həqiqəti əks etdirməyən məlumatların yayılması ümumi işimizə əngəl törətməklə qələbənin asanlıqla qazanılması kimi cəmiyyətdə yanlış təsəvvürlərin və arxayınçılığın formalaşmasına zəmin yaradır. Vətəndaşlarımızın qələbə əhvali-ruhiyyəsinin yüksək olmasını, ərazilərimizin tez bir zamanda düşməndən azad edilməsi kimi müqəddəs arzularını anlayışla qarşılayaraq, onlardan yalnız rəsmi məlumatlara istinad etmələri, dəqiqləşdirilməmiş məlumatları yaymamaları xahiş olunur.

Unutmayaq ki, biz məkrli düşmənlə üz-üzəyik, döyüş əməliyyatları barədə xoş məramla işlədilmiş qeyri-dəqiq məlumatlar da erməni tərəfinin mənafeyinə xidmət edə bilər.

# Xarici İşlər naziri Ceyhun Bayramovun bir neçə həmkarı ilə telefon danışığı olub

Oktyabrın 18-də Xarici İşlər naziri Ceyhun Bayramovun Avropa İttifaqının Xarici və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozef Borel ilə telefon danışığı olub.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı tərəflər bölgədəki son vəziyyət barədə fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov şənbə günü, humanitar atəşkəs barədə ikinci razılığın əldə olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələrinin Cəbrayıl rayonu istiqamətində Azərbaycan mövqelərinə hücum etdiyini, həmçinin Ermənistan-Azərbaycan dövlət sərhədində Azərbaycanın Gədəbəy və Tovuz rayonlarını atəşə tutduğunu ali nümayəndənin diqqətinə çatdırıb. Nazir humanitar atəşkəs rejimini pozmaqla Ermənistanın beynəlxalq hüquqa, eləcə də beynəlxalq humanitar hüquqa dair öhdəliklərinə riayət etmədiyini bir daha nümayiş etdirdiyini vurğulayıb.

Ali nümayəndə Cosef Borel Aİ-nin sözçüsünün Gəncə şəhəri ilə bağlı açıqlamasına toxundu və mülki insanları və mülki obyektləri hədəf almağın qəbuledilməz olduğunu söyləyib. O, hər iki tərəf ilə razılaşdırılmış humanitar atəşkəsin tətbiq olunmasının vacibliyini vurğuladı və münaqişənin həlli üçün mahiyyət üzrə danışıqların zəruriliyini qeyd edib.

Nazir Ceyhun Bayramov Azərbaycanın Gəncə şəhərinə hücum və mülki şəxslərin hədəf alınması ilə bağlı bəyanatla çıxış etdiyi üçün Avropa İttifaqının ali nümayəndəsinə təşəkkürünü bildirib. Nazir bu hərbi cinayətə görə Ermənistan rəhbərliyinin məsuliyyət daşıdığını vurğulayıb.

* * *

Oktyabrın 18-də Xarici İşlər naziri Ceyhun Bayramov və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Baş katibi Bağdad Amreyev arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir C.Bayramov baş katibə bölgədəki son vəziyyət barədə məlumat verib və atəşkəsin rəsmi elan olunmasından sonra ikinci dəfə Ermənistan silahlı qüvvələri tərəfindən humanitar atəşkəsin pozulduğunu bildirib. O, qeyd edib ki, Azərbaycan mövqelərinin intensiv atəşə tutulması, Füzuli, Cəbrayıl və Hadrut bölgələri istiqamətlərində hücum cəhdləri açıq şəkildə Ermənistanın atəşkəs rejiminə əməl etmədiyini və Azərbaycanın işğal olunmuş ərazilərindəki mövqeləri bərpa etməyi hədəf aldığını göstərir.

Nazir Ermənistanın beynəlxalq hüquq normalarına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə əməl etməli olduğunu vurğulayıb.

Baş katib B.Amreyev Ermənistanın münaqişə zonasından uzaqda yerləşən Azərbaycanın şəhərlərinə və yaşayış yerlərinə hücumlarını pisləyib və Türk Şurasının Azərbaycanla həmrəyliyini qeyd edib. B.Amreyev vurğulayıb ki, Ermənistan mülki əhaliyə qarşı hücumları dayandırmalı və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq qüvvələrini Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmalıdır.

Nazir C.Bayramov Türk Şurasının Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan haqlı mövqeyinə verdiyi dəstəyə görə Baş katibə təşəkkürünü bildirib.

* * *

Oktyabrın 18-də Xarici İşlər naziri Ceyhun Bayramov və Estoniya Xarici İşlər naziri Urmas Reynsalu arasında telefon danışığı olub.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər bölgədəki son vəziyyət ətrafında fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov estoniyalı həmkarına Ermənistanın atəşkəsi pozması barədə məlumat verib. Ermənistan silahlı qüvvələri tərəfindən mülki şəxslərin və mülki infrastrukturların məqsədyönlü şəkildə hədəf alındığı, o cümlədən humanitar atəşkəsin rəsmi elan olunmasından sonra iki dəfə Gəncəyə edilən raket hücumları qeyd olunub. Gəncə şəhərinə edilən son raket zərbəsi nəticəsində 3-ü uşaq olmaqla, 13 mülki şəxsin həlak olduğu, 48 nəfərin yaralandığı qarşı tərəfin diqqətinə çatdırılıb. Bu əməlləri müharibə cinayətləri kimi qiymətləndirən nazir Bayramov buna görə Ermənistan rəhbərliyinin məsuliyyət daşıdığını vurğulayıb.

Nazir Urmas Reynsalu öz tərəfindən münaqişənin siyasi yolla həll olunmasının vacibliyini ifadə edib. Humanitar atəşkəsə hörmət etməyin vacibliyini vurğulayan Estoniya Xarici İşlər naziri bu xüsusda Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) rolunu və Estoniyanın BQXK-ya verdiyi humanitar yardım vasitəsilə töhfəsini qeyd edib.

* * *

Oktyabrın 19-da qarşı tərəfin təşəbbüsü əsasında Xarici İşlər naziri Ceyhun Bayramovun Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəli ilə telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov həmsöhbətinə Ermənistan silahlı qüvvələri tərəfindən humanitar atəşkəsin pozulması barədə məlumat verib. O, Ermənistan silahlı qüvvələrinin ikinci humanitar atəşkəsə baxmayaraq, ötən gün Cəbrayıl rayonu istiqamətində Azərbaycan mövqelərinə hücum etdiyini, həmçinin Ermənistan-Azərbaycan dövlət sərhədində Azərbaycanın Gədəbəy və Tovuz rayonlarını atəşə tutduğunu, eləcə də gün ərzində Tərtər bölgəsində yerləşən Pambıq Emalı Zavodu daxil olmaqla mülki infrastrukturu atəşə tutduğunu bildirib. Nazir Ceyhun Bayramov Azərbaycanın Gəncə şəhərinə Ermənistan tərəfindən edilən raket hücumu və mülki şəxslərin hədəf alınmasını müharibə cinayəti olduğunu, Ermənistan rəhbərliyinin bu cinayətə görə məsuliyyət daşıdığını vurğulayıb.

Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəli mülki şəxslərin həyatını itirməsi ilə əlaqədar Azərbaycana başsağlığını ifadə edib. O, Ermənistan silahlı qüvvələri tərəfindən Gəncənin məqsədyönlü şəkildə raket atəşinə tutulmasını qəti şəkildə pislədi və mülki şəxslərin və infrastrukturun hədəf alınmasının qəbuledilməz olduğunu vurğulayıb. Darxan Kıdırəli münaqişənin Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həllinin vacibliyini qeyd edib.

Nazir Ceyhun Bayramov Azərbaycanın ədalətli mövqeyinə qəti dəstək ifadə etdiyi üçün Beynəlxalq Türk Akademiyasının prezidentinə təşəkkürünü bildirib.

* * *

Oktyabrın 19-da Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov ilə Fransa Respublikasının Xarici İşlər naziri Jan-İv Lö Drian arasında telefon danışığı olub. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı bölgədə mövcud olan vəziyyətlə bağlı fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov rəsmən atəşkəs elan olunmasından sonra Ermənistan silahlı qüvvələri tərəfindən ikinci dəfə humanitar atəşkəsin pozulduğu barədə Fransa Xarici İşlər nazirinə məlumat verib. O, qeyd edib ki, Azərbaycan mövqelərinin intensiv atəşə tutulması, Füzuli, Cəbrayıl və Hadrut istiqamətlərində hücum cəhdləri açıq şəkildə Ermənistanın atəşkəs rejiminə əməl etmədiyini, Azərbaycanın işğal olunmuş ərazilərindəki mövqeləri yenidən ələ keçirməyi hədəfə aldığını göstərir.

Nazir humanitar atəşkəsi pozmaqla Ermənistan Respublikasının bir daha beynəlxalq humanitar hüquqa əsasən üzərinə götürdüyü beynəlxalq öhdəliklərə biganə olduğunu nümayiş etdirir.

Nazir Jan-İv Lö Drian humanitar atəşkəsin tətbiq olunmasının vacibliyini vurğulayıb və ATƏT-in Minsk qrupunun həmsədrlərinin himayəsi altında təxirə salınmadan mahiyyət üzrə danışıqların zəruriliyini qeyd edib.

Nazir bu müharibə cinayətinə görə Ermənistan rəhbərliyinin məsuliyyət daşıdığını vurğulayıb. Nazir Ceyhun Bayramov BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq, Ermənistanın bütün silahlı qüvvələrinin Azərbaycanın işğal altındakı ərazilərindən çıxarılmasının bölgədə sülhün təminatı üçün mühüm şərt olduğunu bildirib.

# *Allahşükür PAŞAZADƏ:* "Məscidlərinizin minbərlərindən ucalan dualar, oxunan xütbələr azərbaycanlı qardaşlarınız tərəfindən heç zaman unudulmayacaq"

"Qafqaz müsəlmanları, Azərbaycan dindarları və şəxsən öz adımdan Zati-möhtərəmlərinizə salamlarımı və xeyir-dualarımı yetirir, Allah-Təaladan cümlə müsəlman ümmətinə xeyirli fəaliyyətlər arzulayıram. Biz İstanbulun və bütün türk dünyasının incisi sayılan Aya Sofiyanın ibadətə açılışını cani-könüldən təqdir etdiyimiz kimi, bu gün də İslam dünyasının elm və irfan mərkəzi olacaq İbn Haldun Külliyəsinin açılışına dəvət aldığımıza görə dərin təşəkkürlərimizi bildirir, bütün savab fəaliyyətlərin millətlərimiz və dövlətlərimiz üçün xeyirlərə vəsilə olmasını arzu edirik".

AZƏRTAC xəbər verir ki, bu sözləri oktyabrın 19-da İstanbulda İbn Haldun Universitet Kompleksinin açılış mərasimində Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə deyib.

Açılış mərasimində iştirak edənlərin Azərbaycanın Qarabağ uğrunda mübarizəsindən xəbərdar olduqlarını xatırladan Qafqaz Müsəlmanları İdarəsinin sədri deyib: "Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızı, təcavüzə məruz qalmış ərazilərimizi, zəbt edilmiş məscidlərimizi dövlətimizin başçısı, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad etmək əzmindəyik. Əminik ki, 30 illik müsibətlərimiz tezliklə sona yetəcək, haqq və ədalət zəfər çalacaqdır. Bizim üçün çox çətin və məsuliyyətli bir dönəmdə qardaş Türkiyə dövlətinin, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan həzrətlərinin, bütün Türkiyə xalqının Azərbaycana göstərdiyi qardaş sevgisi, uzatdığı dost əli və arxalandığımız millət dəstəyi, camilərinizin minbərlərindən ucalan dualar, oxunan xütbələr azərbaycanlı qardaşlarınız tərəfindən heç zaman unudulmayacaq, xeyir-duaları hər zaman Türkiyə dövlətinin və xalqının rifahı üçün olacaqdır.

Bu gün "Bir millət, iki dövlət!" şüarını çəkinmədən dünyaya bəyan edən iki qardaş - prezidentlər Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev dünya tarixinə yeni bir şərəfli səhifə yazır, yeni qəhrəmanlıq dastanı yaradırlar. Bu günlərdə Azərbaycanın qəlbi Türkiyə ilə bərabər döyünür, şəhərlərimizdə, kəndlərimizdə bayraqlarımız bərabər dalğalanır. Böyükdən - kiçiyə qədər bütün Azərbaycan xalqı sizlər üçün dualar edir. Mən də haqq savaşımızda, ədalət çağırışımızda bizə dəstək olduğunuz, əsl qardaş kimi arxa-dayaq durduğunuz üçün Uca Rəbbimə Türkiyə dövlətini, bütün türk dünyasını qoruması üçün dualar edirəm.

Mən bu möhtəşəm külliyənin açılış tədbirindəki iştirakımı tarixi baxımdan əlamətdar hadisə hesab edirəm. Bu gün gənclərə - gələcəyin ictimai-siyasi xadimləri, hüquqçuları və filosofları olacaq İbn Haldun Universitetinin tələbələrinə bir Şeyxülislam, bir ata çağırışı etmək istəyirəm: Hər zaman Haqqın yanında olun! Unutmayın ki, Haqq həmişə qalibdir, Zalim həmişə məğlubdur!

Mən çıxışımın sonunda bir daha Azərbaycan xalqı və Prezidenti İlham Əliyevin adından Türkiyə Respublikasının rəhbəri Rəcəb Tayyib Ərdoğana, əziz qardaşım, Diyanet İşleri Başkanı Ali Erbaş həzrətlərinə, burada iştirak edən və dostluğu, qardaşlığı bizim üçün əziz olan Bilal Erdoğana minnətdarlığımı bildirir, dövlətlərimizin daim, qardaşlığımızın baqi olmasını Allah-Təaladan raz-niyaz edirəm!"

# Ali Baş Komandanın qətiyyətli mövqeyi ordumuzda böyük ruh yüksəkliyi yaradıb


FUAD NƏBİYEV


FƏRİD AYDİLOV


CAHANDAR CAHANDAROV


FUAD QAFARZADƏ


ELMAR İSMAYILOV


ELMAR NƏSİBOV







Hazırda əməliyyat şəraiti tam olaraq bölmələrimizin nəzarəti altındadır. Düşmənə xəbərdarlıq edirik ki, Ermənistan ordusu humanitar atəşkəs rejiminə məhəl qoymadan əməliyyat bölgəsində yenə gərginlik yaratmaqda davam edərsə, ordumuz tərəfindən daha kəskin şəkildə adekvat cavab tədbirləri görüləcək. Azərbaycan Ordusu düşmənin istənilən təxribatının qarşısını almağa, Ali Baş Komandanın qarşıya qoyduğu istənilən döyüş tapşırığını vaxtında və tam olaraq icra etməyə hazırdır.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 18-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Müdafiə Nazirliyinin mətbuat katibi qeyd edib ki, son sutka ərzində düşmən ağır itkilərə məruz qalıb. Belə ki, düşmənin 2 ədəd S-300 ZRK, 3 ədəd BM-21 "Qrad" YARS, 2 ədəd "Smerç" yaylım atəşli raket sistemi, beşdən çox tank, bir neçə haubitsa və zenit topları, o cümlədən avtomobil texnikaları və xeyli sayda canlı qüvvəsi bölmələrimiz tərəfindən məhv edilib. Uğurlu əməliyyatlar nəticəsində Füzuli ərazisində düşmənin hərbi hissəsi bölmələrimiz tərəfindən ələ keçirilib. Bu hərbi hissədə olan bütün texnikalar, döyüş sənədləri hərbi qulluqçularımızın əlindədir.

"Humanitar atəşkəs qətiyyən sülh demək deyil. Ali Baş Komandanımızın göstərişinə əsasən, Azərbaycan Ordusu hazırda əməliyyat ərazisində humanitar atəşkəs rejimini tam təmin etməklə, cəsədlərin toplanılması, eyni zamanda tərəflərdə olan əsirlərin dəyişdirilməsi üçün lazımi şəraiti yaratmaqdadır. Təəssüf ki, Ermənistan tərəfi humanitar atəşkəs rejiminə məhəl qoymadan işğaldan azad edilmiş əraziləri, o cümlədən Cəbrayıl şəhərini dəfələrlə ağır artilleriya və minaatanlardan atəşə tutur. Həmçinin Azərbaycan-Ermənistan dövlət sərhədinin müxtəlif istiqamətlərində - Tovuz, Daşkəsən rayonlarında Azərbaycan Ordusunun mövqeləri iriçaplı pulemyotlardan atəşə tutulur. Bundan başqa, Ermənistan ordusu humanitar atəşkəs rejiminin yenidən elan olunduğu dövrdən bəri Ağdərə, Füzuli, Hadrut, Cəbrayıl istiqamətində hücuma keçməyə cəhd göstərib. Bütün hallarda Ermənistan ordusunun bölmələri bölmələrimiz tərəfindən qətiyyətlə dəf edilib və düşmən itki verərək geri çəkilməyə məcbur edilib.

Ali Baş Komandanın qətiyyətli mövqeyi ordumuzun hərbi qulluqçularında, xüsusilə əsgərlərimizdə böyük ruh yüksəkliyi yaradıb. Hərbi qulluqçularımızın mənəvi-psixoloji vəziyyəti, eləcə də ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir", - deyə Anar Eyvazov vurğulayıb.

* * *

Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Azərbaycan Ordusu bu günlərdə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yeni tarix yazır. Torpaqlarımızı düşmən işğalından azad etmək üçün böyük fədakarlıq göstərən Azərbaycan əsgərinin rəşadəti və hünəri hər bir vətəndaşımızda sonsuz qürur hissi yaradıb. Azərbaycan əsgərinin yazdığı şanlı tarixlərdən biri də Hadrutun işğaldan azad olunmasıdır.

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla Hadrut qəsəbəsinin və digər yaşayış məntəqələrimizin işğaldan azad olunmasında fədakarlıq nümayiş etdirən qəhrəman əsgərlərimizin bir neçəsinin fotolarını təqdim edir.

Qeyd edək ki, Hadrut qəsəbəsi 1992-ci il oktyabrın 2-dən Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Ali Baş Komandanın rəhbərliyi altında şanlı Ordumuzun keçirdiyi uğurlu əks-hücum əməliyyatı nəticəsində Hadrut qəsəbəsi, eyni zamanda ətraf kəndlər işğaldan azad edildi və hazırda ordumuzun tam nəzarətindədir. Azərbaycan Ordusu bu uğurlu əməliyyatı ilə 28 illik həsrətə son qoydu.

* * *

Ağır döyüşlərdə xeyli canlı qüvvə və döyüş texnikası itirən Ermənistan silahlı qüvvələrinin 527-ci motoatıcı alayının atıcı taboru praktiki olaraq iflic vəziyyətindədir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan silahlı qüvvələrinin 1-ci korpusunun hərbi hissələrinə əlavə qüvvə olaraq kömək məqsədilə göndərilən taborun ölən və yaralıları əsasən zabit və gizir heyətidir.

Döyüşlərdə darmadağın edilən hərbi hissəyə əlavə qüvvə və texnika verilmir. Şəxsi heyət ilə komplektləşdirilə bilməyən və sursat baxımından çətinlik çəkən tabor müdafiə zolağını tam bağlaya bilmir. Bu səbəbdən də taborun şəxsi heyəti döyüşlərdə iştirak etməkdən imtina edib.

* * *

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sosial şəbəkə istifadəçilərinə müraciət edib.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan müraciətdə qeyd edilib ki, son günlər bəzi sosial şəbəkə istifadəçiləri əməliyyatların aparıldığı istiqamət və cari vəziyyətlə bağlı müxtəlif şəxsi fikirlər paylaşaraq hadisələri qabaqlamağa çalışırlar.

Bildiririk ki, bu cür addımlar həm məxfilik rejiminin pozulmasına, həm də hərbi qulluqçularımızın həyatının təhlükəyə atılmasına səbəb ola bilər.

Bütün bunları nəzərə alaraq sosial şəbəkə istifadəçiləri və KİV nümayəndələrini rəsmi surətdə öz təsdiqini tapmamış məlumatları yaymamağa və yalnız Müdafiə Nazirliyinin rəsmi məlumatlarına istinad etməyə çağırırıq.

* * *

Azərbaycan Ordusu qarşısında aciz qalan düşmən silah-sursatını, döyüş texnikalarını ataraq və döyüş mövqelərini tərk edərək qaçır.

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri xəbər verir ki, hərbçilərimizin uğurlu əməliyyatı nəticəsində düşmənin daha bir neçə hərbi texnikası - 2 "KamAZ", 1 "Ural", 3 "QAZ", 2 "UAZ", 1 "Niva" markalı avtomobil və 1 traktor qənimət kimi ələ keçirib. Texnikaların hamısı işlək vəziyyətdədir.

Qeyd edək ki, daha əvvəl də Ermənistan ordusunun hərbi texnikaları qənimət olaraq ələ keçirilmişdi.

* * *

Müdafiə Nazirliyi Füzuli istiqamətində gedən döyüşlərdə xeyli sayda canlı qüvvə və texnika baxımından itkilərə məruz qalan düşmənin döyüş meydanında atıb qaçdığı hərbi texnikası və silah-sursatının foto və videogörüntülərini paylaşıb.

* * *

Oktyabrın 18-də düşmənin daha bir pilotsuz uçuş aparatı (PUA) vurulub.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, saat 13:00-da Horadiz istiqamətində uçuşlar keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus taktiki PUA Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilib.

* * *

Ermənistan silahlı qüvvələri Tərtər və Ağdam rayonlarının yaşayış məntəqələrini artilleriya atəşinə tutur.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

* * *

Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan ilə dövlət sərhədində növbəti dəfə vəziyyəti gərginləşdirməyə cəhd göstərib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 19-u saat 11.10-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Berd rayonu istiqamətindən Tovuz rayonu, Vardenis rayonu istiqamətindən isə Daşkəsən rayonu ərazisindəki Azərbaycan Ordusunun döyüş mövqelərini iriçaplı silahlardan atəşə tutur.

* * *

Ermənistan silahlı qüvvələrinin bölmələri ərazilərimizi atəşə tutmaqda davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmən oktyabrın 19-u saat 12.00-dan başlayaraq işğal olunmuş Kəlbəcər rayonu istiqamətindən Göygöl rayonu ərazisindəki Azərbaycan Ordusunun döyüş mövqelərini 82 və 120 millimetrlik minaatanlardan və iriçaplı atıcı silahlardan atəşə tutur.

# XİN sosial şəbəkələrdə erməni istifadəçilər tərəfindən Azərbaycan diplomatlarına qarşı terror çağırışlarına münasibət bildirib

Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva sosial şəbəkələrdə erməni istifadəçilər tərəfindən Azərbaycan diplomatlarına qarşı terror çağırışlarının yayılmasına münasibət bildirib.

XİN-dən AZƏRTAC-a bildiriblər ki, Leyla Abdullayeva bununla bağlı deyib: "Son günlər sosial şəbəkələrdə erməni istifadəçilər tərəfindən dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan və Türkiyə diplomatlarına qarşı həyati təhlükə xarakterli çağırışların geniş yayıldığını müşahidə edirik. Bu, növbəti dəfə radikal erməni qüvvələrinin terrorçu xislətinin təzahürüdür. Təəssüflə bildirmək istərdik ki, tarixboyu radikal erməni qruplarının istifadə etdiyi terrorçuluq, hətta Ermənistanda dövlət səviyyəsində dəstəklənir. Hər kəsə yaxşı bəllidir ki, ASALA və digər erməni terror təşkilatları 1970-1980-ci illərdə dünyanın 22 ölkəsində 235-dən çox terror aktı törədib və nəticədə 24 türk diplomatı qətlə yetirilib. 1990-cı illərin əvvəllərində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və yeddi ətraf rayonunun işğalı prosesində Ermənistan tərəfindən ölkəmizin müxtəlif yerlərində terror vasitələrindən geniş istifadə edib.

Ermənistan silahlı qüvvələrinin bu ilin iyulunda Azərbaycan-Ermənistan sərhədində əl atdıqları təxribat nəticəsində də xarici ölkələrdəki radikal erməni qüvvələri tərəfindən yerli azərbaycanlı icma üzvlərinə, eləcə də diplomatlarımıza qarşı son dərəcə aqressiv əməllərin və nifrət zəminində cinayətlərin törədildiyini gördük. Erməni radikal ünsürləri tərəfindən Azərbaycan və Türkiyə diplomatlarına qarşı təhdid dolu ismarışların, hətta onların öldürülməsi çağırışlarının yayılmasını qətiyyətlə pisləyirik.

Bildiyiniz kimi, 1961-ci il Diplomatik Əlaqələr haqqında Vyana Konvensiyasına əsasən, diplomata qarşı, onun şəxsiyyətinə, azadlığına və şərəfinə qarşı hər hansı hücumun qarşısının alınması qəbul edən ölkənin məsuliyyətindədir və bu xüsusda tərəfimizdən xarici ölkələrdəki diplomatlarımızın mühafizəsinin, təhlükəsizliyinin möhkəmləndirilməsi tədbirlərinin görülməsi üçün müvafiq müraciətlər göndəriləcək".



# Arxa cəbhə



## 20 Oktyabr Energetiklər Günüdür

# İşğaldan azad olunan ərazilərimizdə tezliklə işıqlı günlər başlayacaq

### Azərbaycan öz potensialı hesabına enerji təhlükəsizliyini təmin edən nadir ölkələrdəndir

Azərbaycan Ordusunun Ermənistanın təxribatlarına qarşı əks-hücum əməliyyatlarını uğurla həyata keçirərək torpaqlarımızı işğaldan azad etdiyi bu tarixi günlərdə regionun təhlükəsizliyinin təmin olunmasında enerji amilinin rolu xüsusi aktuallıq kəsb edir. Çünki hazırda ölkəmizin apardığı haqq savaşının əsas məqsədlərindən biri də ədalətin bərpası ilə yanaşı, Azərbaycanın səyləri nəticəsində regionda qazanılmış sabitlik və inkişaf mühitinin dayanıqlığının təmin edilməsi, gələcək üçün təhlükələrin aradan qaldırılmasıdır.

Terroru dövlət siyasətinə çevirmiş Ermənistan Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası sayılan və energetiklərin peşə bayramı üçün də tarixi əsas rolunu oynayan “Azərbaycan” İES-i, ölkəmizin ən böyük su elektrik stansiyası olan Mingəçevir SES-i də davamlı hədəfə alır, həmçinin yaşayış məntəqələrimizin raket atəşinə tutulması elektrik qurğularının və müxtəlif gərginlikli elektrik xətlərinin vurulması faktları ilə müşayiət olunur.

“Yeni ərazilər uğrunda yeni müharibə” ritorikasını Dağlıq Qarabağdan yüz kilometrlərlə uzaqlıqda yerləşən, regionu qərblə birləşdirən geosiyasi və iqtisadi əhəmiyyətli enerji-kommunikasiya xətlərinin keçdiyi Tovuz istiqamətində hərbi təxribatlar müstəvisinə keçirən Ermənistan bu günlər uğursuz cəhdlərini Yevlax istiqamətində də təkrarladı. Raket atəşlərinin hədəfi kimi Bakı-Tbilisi-Ceyhan neft kəməri, Cənubi Qafqaz Boru kəməri və Qərb İxrac Boru kəmərinin seçilməsi ilə bu təxribatların miqyasca tək Azərbaycanla məhdudlaşmayan, regional və qlobal əməkdaşlığa, enerji təhlükəsizliyinə, beynəlxalq şirkətlərin və dövlətlərin maraqlarına qarşı yönəlmiş terror cəhdi olduğunu bir daha göstərdi. Bu gün Azərbaycanın hərbi və diplomatik gücü də işğalın aradan qaldırılmasına, ədalətin və regionda təhlükəsizlik mühitinin bərqərar olmasına yönəlib. “Biz dəfələrlə bunu demişik, öz xoşunuzla çıxın bizim torpaqlarımızdan. BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirin, yoxsa, peşman olacaqsınız. Hesab edirsiniz ki, Azərbaycan bu vəziyyətlə barışacaq? Barışmayacaq, dəfələrlə demişəm. Hesab edirdiniz ki, Azərbaycan xalqı bu təhqirlərlə barışacaq? Barışmayacaq, dəfələrlə demişəm.... Biz onlara göstərdik ki, döyüş meydanında da, beynəlxalq müstəvidə də, siyasi meydanlarda da biz qalib gəlirik. Onlar bizim gücümüzü gördülər, bizim iradəmizi gördülər. Onlar gördülər ki, dünyada heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz”. Prezident, Ali Baş Komandan İlham Əliyevin bu qətiyyəti, Ordumuzun davam edən qələbələri cəmiyyətimizin bütün üzvləri kimi, energetiklərimizə də böyük ruh yüksəkliyi verir. Eyni zamanda torpaqlarımızın işğaldan azad edilməsi qarşımızda yeni vəzifələr, fəaliyyət planları müəyyənləşdirir. Üzərimizə azad edilmiş torpaqlarımızdakı hər evə işıq, enerji, həyat gətirmək öhdəliyi qoyur.

Müstəqillik hər bir dövlətin ən böyük sərvətidir. Enerji müstəqilliyi isə milli təhlükəsizliyin ən mühüm hissəsidir. Təqvimdə oktyabrın 20-nin Azərbaycan energetiklərinin peşə bayramı günü kimi təsbit olunması da ölkəmizin enerji müstəqilliyinin və rifahının təmin edilməsindəki tarixi hadisəyə əsaslanır. Belə ki, 1981-ci ilin oktyabrın 20-də Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə “Azərbaycan” İES-in birinci enerji blokunun istifadəyə verilməsi ölkəmizin müstəqil, dayanıqlı enerji sisteminin formalaşdırılması və enerji təhlükəsizliyi sisteminin yaradılmasının möhkəm bünövrəsi oldu. Ulu Öndər o illərdə energetika sahəsində gördüyü işlər haqqında demişdi: “Hər dəfə elektrik stansiyası tikilməsi haqqında məsələ qoyarkən mənə deyirdilər ki, bu, sənə nəyə lazımdır?! Bizdə - SSRİ-də vahid elektrik enerjisi sistemi var... Bütün SSRİ-ni əhatə edən sistem var. Azərbaycana nə qədər elektrik enerjisi istəyirsinizsə verək. Mən deyirdim ki, yox, istəyirəm bizim özümüzünkü olsun. Niyə özümüzünkü olsun? Mən istəyirdim ki, müəyyən sahələrdə biz asılı olmayaq. Bu gün iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan elektrik enerjisi sahəsində asılı deyildir”.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən enerji siyasəti sovet dövründə və müstəqillik illərində bu sahədə görülmüş işləri, əldə edilmiş nəticələri nəinki məntiqi cəhətdən tamamlayır, eyni zamanda elektroenergetika sisteminin müasir qlobal trendlərə uyğun inkişafını təmin edir. Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, öz potensialı hesabına enerji təhlükəsizliyinin təminatına tam nail ola bilib.

Energetika sektorunda həyata keçirilən kompleks tədbirlər hesabına son on ildə 2055,4 MVt gücündə 23 yeni elektrik stansiyasının istismara verilməsi ilə ölkəmizin ümumi elektrik enerjisi istehsalı gücü 7516,5 MVt-a çatdırılıb. Elektroenergetika sistemində ümumi gücü 6237,7 MVt olan 18 istilik elektrik stansiyası, 1278,8 MVt gücündə isə su və digər bərpa olunan enerji mənbələri üzrə elektrik stansiyaları fəaliyyət göstərir. Reabilitasiya proqramı çərçivəsində “Azərbaycan” İES və digər elektrik stansiyalarının dayanıqlılığı, etibarlılığı, təhlükəsizliyi və səmərəliliyi yeni səviyyəyə yüksəlib. Ümumiyyətlə, son illər enerji sisteminə qoyulmuş investisiyalar, modernləşmə işlərinin aparılması nəticəsində səmərəlilik, elektrik enerjisinin keyfiyyət göstəriciləri nəzərəçarpacaq dərəcədə yüksəlib, itkilərin səviyyəsi isə aşağı düşüb. Son 10 ildə elektrik enerjisinin ötürülməsi və paylanmasında itkilərin 22,4%-dən 10,2%-dək, 1 kVtost elektrik enerjisinin istehsalına yanacağın xüsusi sərfinin isə 305,6 qramdan 263,4 qrama qədər azaldılmasına nail olunub. Respublikanın energetika sisteminin infrastrukturunda da ciddi dəyişikliklər edilib. Belə ki, hazırda ümumi gücü 25133,5 MVA olan 110-500 kV-luq 228 yarımstansiya fəaliyyətdədir.

Yeni istehsal güclərinin yaradılması hesabına son 10 ildə elektrik enerjisinin istehsalında 39,7 faiz artım əldə edilib. Ölkənin inkişafı, əhalinin artımı, sənayeləşmə prosesi ilə əlaqədar olaraq elektrik enerjisinin istehlakı 58,3 faiz artıb. 2019-cu ildə elektrik enerjisinin istehsalı 26,1 milyard kVt•st, istehlakı isə 21,6 milyard kVt•st təşkil edib. COVID-19 pandemiyasının qlobal energetika sektorunda enerjiyə tələbatın azalması ilə müşayiət olunan təsirləri bu il ölkəmizin elektrik enerjisi ilə bağlı göstəricilərini qismən azaldıb. Belə ki, bu ilin 9 ayı ərzində elektrik enerjisinin istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,8% azalaraq, 19,4 milyard kVt•st təşkil edib. Qarşıdakı illərdə isə elektrik enerjisinə tələbat və istehsal həcmləri ilə bağlı dinamikada əhəmiyyətli dərəcədə artım gözlənilir. 2025-ci ilə qədər ölkəmizdə elektrik enerjisinə tələbatın 25,5 milyard kVt•st-a qədər artacağı, ixrac da nəzərə alınmaqla elektrik enerjisi istehsalının isə ötən ilə nisbətən 15% artımla 30 milyard kVt•st-a çatacağı proqnozlaşdırılır. Bu istehsal həcmlərinin bir qismi ötən il istismara verilmiş, qoyuluş gücü 409 MVt olan “Şimal-2” elektrik stansiyası, bu il təməli qoyulmuş və 2022-ci ildə istifadəyə verilməsi planlaşdırılan 385 MVt gücündə “Qobu” elektrik stansiyası hesabına əldə ediləcək. Həmçinin bu prosesdə “Azərenerji” ASC-nin istehsal güclərinin optimallaşdırılması və bərpası nəticəsində yenidən istismara cəlb edilən 1300 MVt imkan gücündən istifadə ediləcək.

Eyni zamanda təhlillər göstərir ki, tələbatın tam qarşılanması üçün yeni istilik elektrik stansiyalarının tikilməsinə də ehtiyac var.

Yeni stansiyaların tikintisi ölkəmizin daxili tələbatını tam ödəməklə bərabər, elektrik enerjisinin ixracına da imkan verir. Rusiya, Gürcüstan, Türkiyə və İranla elektrik enerjisi üzrə əməkdaşlıq formatında ixracatçı və tranzit ölkə kimi Azərbaycanın rolu möhkəmlənir. Əgər 2006-cı ildə Respublikanın daxili ehtiyaclarını tam ödəmək üçün 1,8 milyard kVt•st elektrik enerjisi idxal edilirdisə, 2019-cu ildə bu göstərici 136,9 milyon kVt•st-a qədər azalıb. İxrac isə on il ərzində 3 dəfə artaraq 1,5 milyard kVt•st-a qədər yüksəlib. Cari ilin 9 ayı ərzində 104,3 milyon kVtost elektrik enerjisi idxal, 841,9 milyon kVt•st elektrik enerjisi ixrac edilib. Gürcüstana 450,2 milyon kVt•saat, Rusiyaya 92,5 milyon kVt•saat, Türkiyəyə 101,8 milyon kVt•saat, İrana 197,4 milyon kVt•saat elektrik enerjisi ixrac edilib. İdxalın həcmi Rusiyadan 64,7 milyon kVt•saat, İrandan 22,8 milyon kVt•saat, Gürcüstandan 16,8 milyon kVt•saat olub.

Elektrik enerjisinin mübadiləsi hazırda Azərbaycan və Gürcüstan arasında 500 kV-luq Samux-Qardabani və 330 kV-luq Ağstafa-Qardabani, Türkiyə ilə iki dövrəli 154 kV-luq “İqdır-Babək”, 34,5 kV-luq “Aralıq-Sədərək”, Rusiya ilə 330 kV-luq “Yaşma-Dərbənd”, 110 kV-luq “Yalama-Bilici” elektrik verilişi xətləri vasitəsilə həyata keçirilir. Azərbaycanla İranın enerji sistemləri arasında elektrik enerjisi mübadiləsi isə 330 kV-luq “Muğan”, 230 kV-luq “İmişli”, 110 kV-luq “Astara-Astara”, 132 kV-luq “Araz-Araz” və 132 kV-luq “Culfa-Culfa” EVX-ləri vasitəsilə reallaşdırılır.

Azərbaycan, İran və Rusiyanın enerji sistemlərinin əlaqələndirilməsi üzrə proses də davam edir. Hər üç ölkənin müvafiq enerji şirkətlərinin razılığı ilə müəyyən edilmiş məsləhətçi şirkət tərəfindən layihənin texniki-iqtisadi əsaslandırılmasının hazırlanmasına başlanılıb.

Hazırda qlobal energetika sistemində enerji keçidi prosesi sürətlənir. Enerji keçidi müasir dövrdə enerji təhlükəsizliyi, iqtisadi inkişaf və ətraf mühitin qorunması arasında balansı təmin edən alət kimi qəbul olunur. Bu məqsədlə dünyada bərpa olunan, ekoloji cəhətdən təmiz enerjidən istifadənin genişləndirilməsi və enerji səmərəliliyinin artırılmasını birmənalı dəstəkləyən strateji qərarlar qəbul edilir. Bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, energetika sisteminin səmərəliliyinin artırılması və mərhələli şəkildə liberal bazar modelinə keçilməsi də Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar prosesinin hədəfləridir. Dövlət başçısının “Energetika sektorunda islahatların sürətləndirilməsi haqqında” 2019-cu il 29 may tarixli 1209 nömrəli, “Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında” 2019-cu il 5 dekabr tarixli sərəncamları, eləcə də 2020-ci il 22 sentyabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin yaradılması energetika sektorunda əsaslı dəyişikliklərə yüksək səviyyədə təminat verilir.

Bu gün əsas məqsədimiz dövlət başçısı tərəfindən qarşımıza qoyulmuş vəzifələrə uyğun olaraq, 2030-cu ilə qədər bərpa olunan enerji mənbələri hesabına 1500 MVt əlavə güc yaratmaqla elektrik enerjisinin qoyuluş gücündə bərpa edən enerjinin payını 30%-ə çatdırmaqdır. Energetika sahəsində müəyyən edilmiş bu yeni strateji xəttin həyata keçirilməsində ilk uğurlu addımlardan biri cari ilin yanvarında 7 beynəlxalq şirkət arasında mövcud topdansatış qiymətlərinə uyğun təkliflər vermiş Səudiyyə Ərəbistanının “ACWA Power” və Birləşmiş Ərəb Əmirliyinin “Masdar” şirkətləri ilə 240 MVt gücündə külək və 200 MVt gücündə günəş enerjisi üzrə pilot layihələrlə bağlı İcra müqavilələrinin imzalanması oldu. Külək və günəş enerjisi ilə işləyən bu 440 meqavatlıq stansiyalar təxminən 400 milyon ABŞ dolları məbləğində tam xarici investisiya hesabına tikiləcək ki, bu da ölkəmizdə bərpa edilən enerji sahəsində bir ilk, digər layihələrə investorların cəlbi üçün nümunə olacaq.

Bu stansiyalar hesabına ümumilikdə, təxminən, illik 1,4 milyard kVt•st elektrik enerjisinin istehsalı, 300 milyon kubmetrdən çox təbii qaza qənaət edilməsi, 600 min tona yaxın karbon qazı tullantısının azaldılması və yeni iş yerlərinin yaradılması gözlənilir.

Dövlət başçısının islahatlarla bağlı digər mühüm bir tapşırığı da elektroenergetika sahəsində liberal bazar münasibətlərinin formalaşdırılması ilə bağlıdır. Liberal bazar modelinə mərhələli keçidlə bağlı təkliflər hazırlanmış və hazırda hökumətdə baxılmaqdadır. Beynəlxalq təcrübə göstərir ki, liberal bazar münasibətlərinə keçid üçün, ilk növbədə, elektrik enerjisi istehsalının iqtisadi optimallaşdırılması, tariflərin müəyyənləşdirilməsi üzrə metodologiyanın, Şəbəkə Məcəlləsinin hazırlanması, gələcək bazar subyektlərinin kommersiya uçotu sisteminin təşkili ilə bağlı tədbirlər görülməlidir. Hazırda bu istiqamətdə müvafiq işlər yerinə yetirilir.

Bu prosesdə mühüm əhəmiyyət daşıyan, mütərəqqi bazar prinsipləri və beynəlxalq təcrübə nəzərə alınmaqla “Elektroenergetika haqqında” qanunun yeni layihəsi hazırlanmışdır. Qanun layihəsində elektrik enerjisinin istehsalı, təchizatı, ötürülməsi və paylanması sahələrində təkmilləşdirilmiş institusional mühitin və mütərəqqi idarəetmə sistemlərinin tətbiqi, özəl investisiyaların cəlbi, dövlətin maliyyə yükünün, elektrik enerjisinin istehsalına çəkilən xərclərin azaldılması və xidmətin keyfiyyətinin yüksəldilməsinə münbit şəraitin yaradılması kimi məsələlər nəzərdə tutulmuşdur.

Elektroenergetika sisteminin səmərəliliyinin artırılmasında özəl sektorun iştirakına nail olmaq da həlli vacib məsələlərdəndir. Bununla əlaqədar ilkin mərhələ kimi kiçik gücə malik bir sıra modul, su və günəş elektrik stansiyalarının nümunəsində elektrik enerjisinin istehsalı sahəsinə özəl investisiyaların cəlb edilməsi istiqamətində təkliflər hazırlanmış və hazırda baxılmaqdadır. Eyni zamanda özəl sektor və xarici investisiya hesabına ənənəvi enerji ilə işləyən yeni güclərin yaradılması da əsas prioritetimizdir. Bu məqsədlə 550 MVt-lıq yeni müasir tipli, həmdövrəli qazturbin elektrik stansiyasının tikintisi üzrə müvafiq işlər görülür. Stansiyanın özəl investisiya hesabına inşası məqsədilə xarici şirkətlərlə danışıqlar aparılıb və Energetika Nazirliyi tərəfindən hazırlanmış ilkin Texniki Göstəriciləri ehtiva edən sənəd təqdim edilib. Şirkətlərdən artıq nazirliyə layihə təklifləri daxil olub. Elektrik stansiyasının fəaliyyəti üçün zəruri köməkçi infrastrukturun mövcudluğu baxımından stansiyanın Bakıdan 40 km məsafədə yerləşən “Yaşma” və 120 km uzaqlıqda olan “Şirvan” ərazilərindən birində tikilməsi planlaşdırılır.

İslahatlar prosesinin strateji məqsədləri sırasında enerji sektorunda tənzimləmədə dayanıqlılığı və effektivliyi təmin edən tənzimləyicinin yaradılması da mühüm yer tutur. Bu aspektdə Energetika Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu Enerji Məsələlərini Tənzimləmə Agentliyi üç il ərzində elektrik və istilik enerjisi, həmçinin qaz təchizatı sahələrində dövlət, istehlakçılar və tənzimlənən subyektlər arasında maraqlar balansının, hər bir istehlakçıya münasibətdə müasir yanaşmanın təmin edilməsinə, obyektivlik, şəffaflıq və hesabatlılıq kimi prinsiplərə əsaslanan fəaliyyətə nail olub. Enerji təchizatında bir sıra proseslər sadələşdirilib, çeviklik təmin edilib, xidmətləri sahibkarlar üçün əlçatan edən addımlar atılıb. 2020-ci ilin avqust ayından etibarən agentlik istehlakçı hüquqlarının qorunması baxımından əhəmiyyətli sayılan, “Azəriqaz” İB-nin Metrologiya Departamentində qaz sayğaclarının dövlət yoxlanılması prosesinin monitorinqinə də başlayıb.

Energetikada tənzimlənmənin perspektivdə liberal bazar münasibətlərinə uyğunlaşdırılması prosesi kontekstində isə istehlakda səmərəliliyin artırılması mexanizmləri, “Tarif Metodologiyası” hazırlanıb. Xərcləri əks etdirən (elektrik enerjisinin qiymətlərini subsidiyalaşdırmadan) tariflərin tətbiqi, bəzi sənaye sahələri üçün güzəştlərin optimallaşdırılması, qiymətlərin günün vaxtına görə differensiasiyası, aztəminatlı istehlakçı kateqoriyaları üzrə son istehlakçı qiymətlərinin müəyyənləşdirilməsi, reaktiv enerjidən istifadənin səmərəliliyinin artırılması, elektrik enerjisinin topdansatış bazarının yaradılması, özəlləşdirmə, elektrik enerjisi istehsalı sahəsinə dövlət-özəl tərəfdaşlığı razılaşmaları əsasında yeni investisiyaların təşviqi üçün araşdırmalar aparılıb və təkliflər verilib. Agentlik tərəfindən, həmçinin tənzimlənən sahədə investisiya layihələri və elektrik enerjisi bazarının fəaliyyətinin monitorinqi qaydalarının layihələri kimi normativ sənədlər hazırlanır. Bu sırada digər vacib bir sənəd “Müstəqil enerji istehsalçılarının ötürücü və paylayıcı elektrik şəbəkələrinə çıxışının monitorinqi Qaydaları”nın layihəsidir.

Hazırda baxılmaqda olan “Energetika və kommunal xidmətlər sahələrində tənzimləyici haqqında” qanunun qəbulu isə imkan verəcək ki, elektrik enerjisi bazarının mühüm iştirakçısı kimi Enerji Məsələlərini Tənzimləmə Agentliyi tənzimləyici funksiyalarını daha effektiv şəkildə yerinə yetirərək, elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində münasibətlərin müasir dövrün mütərəqqi tələblərinə uyğun inkişafını təmin etsin.

Əlbəttə, görülən bütün işlər nəticədə vətəndaş məmnunluğunda ifadə olunur. “Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı”na əsasən, Kommunal Xidmətlər üzrə Vahid İnformasiya Sistemi və Vahid Çağrı Mərkəzinin yaradılması nəzərdə tutulur. “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Kommunal Xidmətlər Vahid İnformasiya Sisteminin operatoru funksiyaları Energetika Nazirliyinə həvalə edilib. 2020-ci ilin sonuna kimi ASAN tərəfindən sistemin test fazasına başlanması planlaşdırılır. Bu, istehlakçıların bütün kommunal xidmətlər üzrə onlara aid məlumatları vahid şəxsi kabinet üzərindən idarə etmələrinə imkan yaradır. Kommunal xidmətlər üzrə vahid informasiya bazasının yaradılması bu sahədə həyata keçirilən siyasətin mərkəzləşdirilməsi və sistemləşdirilməsi, müvafiq xidmətlər üzrə müraciətlərin vahid platformadan ünvanlanması, bu xidmətlərin hər kəs üçün daha əlçatanlığı və fasiləsizliyi, yaranan çətinliklərin operativ həlli baxımından faydalıdır.

Vətəndaş müraciətlərinin obyektiv araşdırılaraq cavablandırılması, xidmətlərin icrası zamanı sui-istifadə hallarının qarşısının alınması, xidmətlərin icra vəziyyətinə dair mərkəzləşdirilmiş təhlil və hesabatların aparılması, istifadəçilər tərəfindən xidmətin keyfiyyətinə dair təklif və iradların toplanması, həmçinin vətəndaş məmnunluğunun artırılması məqsədilə yaradılacaq Vahid Çağrı Mərkəzinin formalaşdırılması ilə bağlı Konsepsiya layihəsi də Nazirlər Kabinetinə təqdim edilib.

Bütün bu tədbirlər açıqlıq, şəffaflıq və hesabatlılıq prinsiplərini əsas tutaraq dövlət xidmətlərinin təkmilləşdirilməsinə, ictimai nəzarətin gücləndirilməsinə xidmət edəcəkdir.

2020-ci ilin Azərbaycan energetikası üçün daha bir xüsusi məqamı da bundan ibarətdir ki, ölkəmiz bu il Beynəlxalq Enerji Xartiyası Konfransına sədrlik edir. Konfransa sədrliyi dövründə ölkəmiz tərəfindən ənənəvi enerji mənbələrindən bərpa olunan enerjiyə keçidin sürətləndirilməsi, bərpa olunan enerjinin nəqliyyatda və istilik təchizatında payının artırılması, enerji səmərəliliyinin təşviqi, hamının qabaqcıl enerji səmərəliliyi təcrübələrinə çıxışının təmin edilməsi, enerji təchizatının təhlükəsizliyinə çağırışlar kimi aktual məsələlər beynəlxalq enerji ictimaiyyətinin müzakirəsinə təqdim edilmişdir.

Azərbaycan enerji təhlükəsizliyindəki rolunu zəfərləri ilə daha da möhkəmləndirəcək. Ölkəmizin energetika sahəsində qlobal uğurları bundan sonra da davamlı olacaq və tarixən də, bu gün də dünyanın əsas enerji mərkəzlərindən sayılan Azərbaycanın energetikləri öz vəzifə borclarını ləyaqətlə yerinə yetirərək ölkəmizin ümumi inkişafına töhfələr verəcəklər. Rəşadətli Ordumuzun işğaldan azad etdiyi torpaqlarımızda qısa müddət ərzində normal həyatın bərpası prosesində energetiklərimizin yaxından iştirakı növbəti illərin töhfələri sırasında xüsusi yer tutacaq.

***Pərviz ŞAHBAZOV,***
***Azərbaycan Respublikasının Energetika naziri***

## TRASEKA-nın Azərbaycan hissəsində 27,1 milyon ton yük daşınıb

Cari ilin yanvar-avqust aylarında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin (TRASEKA) Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 27,1 milyon ton, yük dövriyyəsi isə 6 milyard 269,1 milyon ton-kilometr olub.



Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, yüklərin 15 milyon 287,4 min tonu və ya 56,3 faizi avtomobil nəqliyyatı, 8,5 milyon tonu və ya 31,5 faizi dəmir yolu nəqliyyatı, 3,3 milyon tonu və ya 12,2 faizi dəniz nəqliyyatı ilə daşınıb.

Dəhliz vasitəsilə daşınmış yüklərin 20,2 faizini və ya 5 milyon 500 min tonunu tranzit yüklər təşkil edib.

## Kürdəmirin istixana təsərrüfatlarında 1516 tondan çox tərəvəz yığılıb

Kürdəmir rayonunda 18,6 hektar istixana təsərrüfatı var. Cari ildə bu təsərrüfatlarda 17,2 hektar sahə əkilib və doqquz ayda buradan 1516,4 ton tərəvəz yığılıb.

Rayon Statistika İdarəsindən AZƏRTAC-a verilən məlumatda bildirilib ki, bu il istixana təsərrüfatlarında əkin sahəsi ötən ildəkinə nisbətən 5,7 hektar çox olub. İstehsal edilən tərəvəz məhsulları da 58,3 ton artıb. Cari ildə təsərrüfatlardan satışa 112,8 ton xiyar, 1403,6 ton pomidor çıxarılıb.

## AMB depozit hərracının nəticələrini açıqlayıb

Azərbaycan Mərkəzi Bankı (AMB) vəsaitlərin cəlb edilməsi üzrə depozit hərracının nəticələrini açıqlayıb.



AMB-dən bildirilib ki, oktyabrın 19-da Mərkəzi Bank tərəfindən 14 gün müddətinə vəsaitlərin cəlb edilməsi üzrə keçirilmiş depozit hərracında tələb 611,1 milyon manat, hərracın nəticəsində bağlanılmış depozit əqdləri üzrə orta ölçülmüş faiz dərəcəsi isə 6,01 faiz təşkil edib.

## 9 ayda 485 min e-arayış verilib

2020-ci ilin yanvar-sentyabr aylarında vətəndaşlara əmək, məşğulluq, sosial müdafiə sahələri üzrə 485 min e-arayış verilib.

Bu arayışlar iş yeri, əlillik, müavinət, pensiya, təqaüd, sosial yardımla təmin edilmə, fərdi uçot sistemində qeydiyyata alınma və s. aid olub.

Ötən il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 13 yeni elektron arayış xidməti əhalinin istifadəsinə verilməklə, nazirliyin e-arayış xidmətlərinin sayı 15-ə çatıb. Bu ilin sonuna qədər daha 15 növdə e-arayış xidmətinin hazırlanaraq istifadəyə verilməsi planlaşdırılıb.

## Şamaxıda üzüm plantasiyalarından indiyədək 21 min ton məhsul yığılıb

Şamaxı rayonunun təsərrüfatlarında üzüm yığımı başa çatmaq üzrədir. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildirilib ki, vaxtilə üzümçülük üzrə məşhur olan Şamaxıda son illər bu sahə sürətlə inkişaf etdirilir.



Hazırda rayonda 1808 hektar bar verən üzüm bağı var. Məhsul istehlakçıları indiyədək 1420 hektar bağın məhsulunu yığıb, 21000 ton üzüm tədarük ediblər. Yığılan texniki sort üzüm emal müəssisələrinə göndərilib. Yetişdirilən süfrə üzümü isə birbaşa daxili bazara çıxarılıb.

Qeyd edək ki, cari mövsümdə Şamaxının üzüm bağlarından 25 min tondan çox məhsul yığımı proqnozlaşdırılır.

## İnək və camışların baş sayında artım var

Cari il oktyabrın 1-i vəziyyətinə ölkə üzrə 2 milyon 665 min baş iribuynuzlu mal-qara (o cümlədən 1 milyon 286,7 min baş inək və camış), 8 milyon 308,6 min baş qoyun və keçi mövcud olub.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə qoyun və keçilərin sayı 143,3 min baş (1,7 faiz) azalıb.

İribuynuzlu mal-qaranın ümumi sayında da 4,4 min baş (0,2 faiz) azalma müşahidə olunsa da, inək və camışların sayı 2,7 min baş (0,2 faiz) artıb.

# Azərbaycan Ordusu xalqımızın 30 illik arzusunu şərəflə həyata keçirir



Sentyabrın 27-dən başlayaraq tariximizə yeni və şərəfli səhifələr yazılır. Ermənistanın növbəti təxribatına cavab olaraq rəşadətli Azərbaycan Ordusunun həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində 30 ilə yaxındır düşmən tapdağında qalan doğma torpaqlarımız işğaldan azad edilir.

Cəbrayılda, Hadrutda, Xocavənddə, Suqovuşanda və digər neçə-neçə kəndimizdə Azərbaycan bayrağı ucalır. Füzuli şəhərinin və rayonun bir sıra kəndlərinin azad edilməsi, Xudafərin körpüsündə bayrağımızın ucaldılması göstərdi ki, möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz qarşısında duran şərəfli vəzifəni inamla yerinə yetirir və tezliklə bütün torpaqlarımız azad ediləcək.

Xalqımız torpaqlarımızın işğaldan azad ediləcəyi günü çoxdan gözləyirdi. 30 ilə yaxın idi hər bir azərbaycanlı məhz bunu arzulayırdı. Çünki 1994-cü ildən aparılan sülh danışıqları ATƏT-in Minsk qrupunun səriştəsizliyinə görə nəticəsiz qalırdı. Ona görə Ermənistanın təxribatından sonra Prezident, Ali Baş Komandan İlham Əliyevin əmri ilə Azərbaycan Ordusunun əks-hücuma keçməsini xalqımız coşqu ilə qarşıladı. Döyüşlərin başladığı gündən xalqımız bu müqəddəs amal uğrunda yumruq kimi birləşdi. Hər bir azərbaycanlı bu müharibədə cənab İlham Əliyevin ətrafında sıx səfərbər olub. Məramından, baxışlarından asılı olmayaraq bütün siyasi partiyalar (Ə.Kərimlinin sədri olduğu AXCP-dən başqa) dövlət başçısı ilə həmrəy olduqlarını bildirib.

Ermənistan-Azərbaycan münaqişəsinə dair ən mühüm sənədlər BMT Təhlükəsizlik Şurasının 1993-cü il ərzində qəbul etdiyi 4 qətnamədir. Həmin qətnamələrdə Azərbaycanın ərazi bütövlüyü dəstəklənir və işğalçı qüvvələrin Azərbaycan ərazisindən qeyd-şərtsiz çıxarılması tələb edilir. Lakin BMT kimi mötəbər bir təşkilatın qətnamələri 27 ildir kağız üzərində qalıb. Bu gün isə şanlı Azərbaycan Ordusu torpaqlarımızı azad etməklə tarixi ədaləti inamla bərpa edir.

Azərbaycan həmişə danışıqlar prosesinə sadiq olub. Lakin hələ 2016-cı ilin aprelində Azərbaycana qarşı hərbi təxribat törədən Ermənistan danışıqlarda maraqlı olmadığını göstərdi. Rəşadətli Ordumuz həmin vaxt dördgünlük müharibədə inamlı qələbə qazandı, torpaqlarımızın bir hissəsini işğaldan azad etdi.

Ötən ildən başlayaraq isə Ermənistanın baş naziri, Sorosun göstərişlərini icra edən Nikol Paşinyanın yürütdüyü siyasət danışıqların aparılmasını tamamilə mənasız etmişdi. Hakimiyyətə gəldikdən sonra Dağlıq Qarabağ problemi ilə bağlı ziddiyyətli açıqlamalar verən, danışıqların formatının dəyişdirilməsini istəyən Paşinyanın sərsəm "Qarabağ Ermənistandır" bəyanatı, Azərbaycanın qarşısında 7 şərt qoyması, nəhayət bu ilin iyulunda Tovuza hücum etməsi bu ölkə ilə sivil danışıqları tamamilə mənasız etmişdi. Bunların davamı kimi avqustda Goranboy istiqamətində diversiya-kəşfiyyat təxribatı, Azərbaycanın işğal olunmuş ərazilərində Livandan gətirilən ermənilərin qeyri-qanuni məskunlaşdırılması, Şuşada qondarma rejimin andiçmə mərasiminin keçirilməsi göstərdi ki, Ermənistanla danışıqlar aparılmasının heç bir mənası yoxdur.

Bu məsələlər, o cümlədən Ermənistanın cəbhə zonasına yeni hərbi qüvvələr cəmləməsi Azərbaycan tərəfindən zamanında beynəlxalq təşkilatların diqqətinə çatdırılmışdı. Prezident İlham Əliyev sentyabrın 21-də BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda demişdi ki, hərbi təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını nümayiş etdirir. Sentyabrın 25-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edərkən də Prezident İlham Əliyev son dövrlərdə baş verən bütün prosesləri, Ermənistanın iyul təxribatını, Azərbaycana diversiya qrupu göndərdiyini onun diqqətinə çatdırdı.

Sentyabrın 27-dən sonra baş verənlər Prezident İlham Əliyevin beynəlxalq ictimaiyyəti xəbərdar etməkdə nə qədər haqlı olduğunu göstərdi. Xəbərdarlıqlardan nəticə çıxarmayan, Azərbaycan torpaqlarında ikinci erməni dövləti qurmaq istəyən, son dövrlər təxribatlarını daha da artıran Ermənistan indi tarixinin ən ağır günlərini yaşayır. N.Paşinyanın atəşkəs üçün zəng etmədiyi dövlət başçısı qalmayıb.

Sentyabrın 27-dən bəri cəbhədə baş verənlər bir daha göstərdi ki, Azərbaycanda ordu quruculuğu ən yüksək səviyyədə həyata keçirilib. Çünki bu gün ordumuz ən müasir metodlarla döyüş əməliyyatları aparır. Hətta dünyanın ən güclü ordularına malik dövlətlərindən olan ABŞ və Hindistanın generalları Azərbaycanın həyata keçirdiyi əməliyyatları təqdir edirlər. Təbii ki, ordumuzun bu cür yüksək döyüş imkanlarını mənimsəməsində qardaş Türkiyənin böyük rolu var. Hərbi gücünə görə NATO-nun liderlərindən olan Türkiyə ilə Azərbaycan arasında müdafiə sahəsində uzun illərdən bəri dərin əməkdaşlıq mövcuddur. Qardaş ölkə Azərbaycan Ordusunu NATO-nun standartlarına uyğunlaşdırılmasına, müdafiə sənayesi kompleksinin inkişafına mühüm töhfələr verib. Belə bir ölkənin ordusu ilə hər il birgə hərbi təlimlərin keçirilməsi isə Azərbaycan Ordusunun ən müasir döyüş imkanlarını mənimsəməsində böyük rol oynayır.

Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməyən Ermənistan bu günlərdə ölkəmizin ayrı-ayrı yaşayış məntəqələrini atəşə tutmaqla, 60 nəfərdən artıq mülki vətəndaşımızı qətlə yetirməklə növbəti dəfə müharibə cinayətlərinə imza atdı. Döyüş bölgəsindən kifayət qədər kənarda yerləşən Gəncənin üç dəfə ballistik raketlə atəşə tutulması nəticəsində 27 nəfərin, Tərtərdə qəbiristanlığın atəşə tutulması ilə 3 nəfər mülki şəxsin qətlə yetirilməsi Ermənistanın insanlıq əleyhinə törətdiyi cinayətlərdir. Bütün bunlar dünyanın gözü qarşısında baş versə də, beynəlxalq təşkilatlar sanki görməzdən gəlirlər. Dünya sussa da, Azərbaycan Ordusu öz sözünü deyəcək, torpaqlarımızı azad etməklə həm də qətlə yetirilən günahsız mülki vətəndaşlarımızın da intiqamını alacaq.

Bu şərəfli və məsuliyyətli günlərdə hamımız işğal altındakı torpaqlarımızın azad olunması, müstəqil dövlətçiliyimizin qorunması və daha da inkişaf etdirilməsi naminə Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında daha sıx birləşməliyik. Bu çətin dönəmdə biz ağsaqqallar gənclik enerjisi ilə fəaliyyət göstərməli, Vətənimiz uğrundakı ölüm-dirim mübarizəsində hərəmiz öz mövqeyimizdə daha əzmlə çalışmalıyıq. Azərbaycanın şanlı tarixi boyu ən məsuliyyətli məqamlarda hər zaman xalqın önündə olmuş respublika ağsaqqalları torpaqlarımızın azadlığı uğrunda başlanmış bu müharibədə də yüksək döyüş ruhu ilə dövlətimizin, Silahlı Qüvvələrimizin və onun Ali Baş Komandanının yanındadırlar. Biz bu məsul günlərdə bütün xalqımızı milli həmrəylik göstərməyə, hər bir sahədə düşmənə layiqli cavab verməyə çağırırıq.

Bu gün Azərbaycan əsgərinin rəşadəti bizi o qədər ruhlandırıb ki, Respublika Ağsaqqallar Şurasının hər bir üzvü yaşından asılı olmayaraq, gənclərlə yanaşı, döyüşə atılmağa, üzərinə düşən vəzifələri şərəflə yerinə yetirməyə hazırdır. Bu günlərdə hamımızın qəlbi dövlət başçısının irəli sürdüyü "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" şüarı ilə döyünür. Qələbə bizimlədir, çünki bizim işimiz haqq işidir, biz Vətənimiz uğrunda, torpaqlarımızı işğaldan azad etmək üçün vuruşuruq! Biz əminik ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin başçılığı altında qüdrətli Ordumuz işğal altındakı bütün torpaqlarımızı tezliklə azad edərək Vətənimizin ərazi bütövlüyünü təmin edəcək və şanlı bayrağımızı Şuşada, Xankəndidə dalğalandıracaq!

***Eldar QULİYEV,***
***Azərbaycan Ağsaqqallar Şurasının sədri,***
***Milli Məclisin deputatı***

## *Dövlət Komissiyası:* "Azərbaycan birtərəfli qaydada erməni hərbçilərinin meyitlərinin bir hissəsini verməyə hazırdır"

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyi ilə keçirilmiş görüşlərdə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında elan edilmiş müvəqqəti humanitar atəşkəsin ruhuna uyğun olaraq, Azərbaycanın birtərəfli qaydada hazırda Azərbaycan tərəfində olan erməni hərbçilərinin meyitlərinin bir hissəsini iki ölkənin dövlət sərhədinin Tovuz rayonu istiqamətində əvvəlcədən razılaşdırılmış dəhlizdə BQXK-nın vasitəçiliyi ilə Ermənistana verməyə hazır olduğunu diqqətə çatdırıb.

Komissiyadan AZƏRTAC-a bildiriblər ki, bu barədə qarşı tərəfə bildirilməsi xahiş olunub.

## 1992-ci ildə əsir götürülmüş Azərbaycan hərbçisinin tapılması barədə məlumatlar həqiqətə uyğun deyil

Sosial şəbəkələrdə Azərbaycan Ordusu tərəfindən Füzuli şəhərinin işğaldan azad edilməsi zamanı 1992-ci ildə əsir götürülmüş Azərbaycan hərbçisinin şəhər binalarından birinin zirzəmisində zəncirlə bağlanmış vəziyyətdə tapılması barədə yayılmış məlumatlar həqiqətəuyğun deyil.

Bu barədə AZƏRTAC-a Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından daxil olan məlumatda bildirilir.

Dövlət Komissiyası vətəndaşlardan bu cür həssas məsələlərlə bağlı diqqətli olmağı, yalnız aidiyyəti dövlət qurumlarının rəsmi məlumatlarına istinad olunmasını və dəqiqləşdirilməmiş informasiyanı yaymamağı xahiş edir.

# İki canda bir ürək

# "Qatili Xocalıdan tanıyırıq"

## Türkiyə mediası Ermənistanın terrorçu mahiyyətini dünyaya çatdırır




**Türkiyə Azərbaycanın dərdini hər zaman bölüşdüyünü və xalqımızı heç zaman yalnız qoymayacağını bütün dünyaya nümayiş etdirməkdədir. Ordumuzun uğurlu hərbi əməliyyatları ilə yanaşı, Ermənistanın Gəncə şəhərini növbəti dəfə raketlə vurması Türkiyə mediasının xüsusi diqqət mərkəzində yer almaqdadır.**

Qardaş ölkənin mətbuatında cəbhədə aldığı məğlubiyyətlə barışmayan Ermənistanın azğınlaşaraq günahsız insanları yenə hədəfə aldığı diqqətə çatdırılır. Qəzetlər Ermənistanın Azərbaycana qarşı törətdiyi davamlı təxribatlarla bağlı xüsusi reportajlar təqdim edir, ölkəmizin haqq səsini dünyaya çatdırır.

"Milliyet" qəzeti "İkinci Gəncə qətliamı" başlıqlı xəbəri manşetdən təqdim edib. Qəzet yazır ki, Ermənistan atəşkəsi pozub və oktyabrın 17-si gecə saatlarında Azərbaycanın ikinci ən böyük şəhəri olan və təmas xəttindən uzaqda yerləşən Gəncə şəhərini növbəti dəfə raketlə vurub, nəticədə aralarında 4-ü azyaşlı uşaqlar da olmaqla 14 nəfər mülki şəxs həlak olub, 55 nəfərdən artıq insan yaralanıb. Bildirilir ki, terror aktında ilk "Skad" raketindən istifadə edilib: "İşğalçı Ermənistan dinc azərbaycanlı sakinlər arasında qırğın törətmək istəyir, o cümlədən Gəncə sakinləri arasında təşviş yaratmağa çalışır. Lakin Azərbaycan xalqını haqq yolundan döndərmək mümkün deyil".

"Hürriyet" qəzetinin "Uşaq qatili" başlıqlı xəbərində Ermənistanın bölgə və beynəlxalq aləmdə sülhü və təhlükəsizliyi ciddi şəkildə təhdid etdiyi diqqətə çatdırılır. Qeyd olunur ki, erməni silahlı qüvvələri bütün maskalarını ataraq özlərinin iblis simalarını göstərdilər. Azərbaycanın dinc sakinlərinə - uşaqlara, qadınlara, qocalara əl qaldırıb, murdar əllərini bu günahsız insanların qanına bulayıblar.

"Atanın ən acı yükü" başlıqlı xəbər "Sabah" qəzetində dərc olunub. Qəzet yazır ki, Ermənistanın dövlət səviyyəsində terror siyasəti davam edir: "İşğalçı Ermənistanın silahlı birləşmələrinin Gəncəni yenidən raket hücumuna tutması erməni terrorunun növbəti bariz nümunəsidir. Bu, barbarlıq, beynəlxalq hüququn ayaqlar altına atılması və müharibə qanunlarının pozulmasıdır. Bir sözlə, bu, əsl terror aktıdır. Bir atanın 10 aylıq körpəsini göz yaşları içərisində məzara tapşırması çox acı mənzərədir, ən acı yükdür".

"Yeni Şafak" qəzeti "Qatili Xocalıdan tanıyırıq" başlıqlı xəbərini manşetdən oxuculara təqdim edib. Bildirilir ki, Ermənistan tərəfindən həyata keçirilən növbəti vandallıq aktı nəticəsində Azərbaycanın mülki vətəndaşları həlak olub, onlarca insan yaralanıb. Qeyd olunub ki, oktyabrın 17-də gecə saatlarında Gəncə şəhərinin növbəti dəfə raket hücumuna məruz qalması Paşinyan hakimiyyətinin növbəti hərbi cinayətidir. Beynəlxalq təsisatlar, dünya ölkələri bu cinayətə açıq şəkildə münasibət bildirməlidir.

"Akşam" qəzetinin "Yatan uşaqları vurdular" başlıqlı məqaləsində yazılır ki, Gəncə kimi qədim tarixə malik, dünya mədəni irsində xüsusi yeri olan şəhərin növbəti dəfə hədəf seçilməsi Ermənistanın insanlıq əleyhinə yönəlmiş təhlükəli siyasətindən xəbər verir: "Ermənistanın Gəncəyə raket hücumları onun törətdiyi vandalizm və terror aktlarıdır. Gecə saatlarında Gəncənin raket atəşinə tutulması aciz vəziyyətə düşən Ermənistanın cəbhədəki məğlubiyyətinin heyfini dinc insanlardan alması kimi qiymətləndirilməlidir. Ölənlər və yaralananlar arasında körpələrin olması düşmənin faşist mahiyyətini bir daha ortaya qoyur".

"Karar" qəzetinin "Mülki qətliama dayan deyən yoxdur" başlıqlı xəbərində deyilir ki, Ermənistan üçüncü dəfə Gəncədə mülki insanların məskunlaşdığı əraziyə raket hücumu edib, nəticədə 14 nəfər mülki şəxs həlak olub. Bildirilir ki, beynəlxalq ictimaiyyət də Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi cinayətlərə laqeyd qalmamalı, işğalçı ölkənin cinayətkar rəhbərliyi məsuliyyətə cəlb olunmalı və törətdiyi qəddar əməllərə görə cavab verməlidir.

"Türkiyə" qəzetinin "Qatillər" başlıqlı xəbərində deyilir ki, Ermənistanın Gəncədə mülki insanların yaşadığı əraziyə raket hücumu nəticəsində 14 nəfər mülki şəxs həlak olub. Müəllif yazır ki, Yerevan açıq-aydın terror fəaliyyəti ilə məşğul olur, ilk növbədə, dinc əhaliyə zərbə vurur: "1990-cı illərdə Dağlıq Qarabağda ilk hərbi əməliyyatlar zamanı ermənilər tərəfindən insanların başları kəsilir, onları diri-diri yandırırdılar. Təkcə Xocalı soyqırımını xatırlamaq kifayətdir. İndiyə qədər bu soyqırımına lazımınca qiymət verilməyib".

"Diriliş Postası" qəzeti "Ciyəriniz yansın" başlıqlı xəbəri manşetdən verib. Qeyd olunub ki, Gəncə şəhəri cəbhədən 100 km uzaqlıqda yerləşir: "Sonuncu dəfə İraq müharibəsi zamanı Səddam Hüseyn "Skad" raketlərindən istifadə edib. Təəssüf ki, Ermənistan dinc sakinlər arasında daha çox itkiyə səbəb olmaq üçün hücumu gecə saatlarında həyata keçirib".

"Cümhuriyyet" qəzetinin "Uşaqları vurdular" başlıqlı xəbərində yazılır ki, dünya birliyinin Ermənistanı sərt şəkildə qınamaması Paşinyan hakimiyyətinin cinayət əməllərinin davam etməsinə imkan yaradır. Müəllif qeyd edir ki, Azərbaycan işğalçıların cavabını döyüş meydanında verir və Gəncə qətliamının qisası alınmaqdadır. Həmin gecə düşmənin xeyli sayda canlı qüvvəsi və texnikası məhv edilib.

"Milat" qəzetinin "Ermənistan yenə mülkü əhalini hədəf aldı" başlıqlı məqaləsində qeyd olunur ki, beynəlxalq təşkilatlar bu cinayəti lazımınca qiymətləndirmirlər: "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin 30 illik tarixində gördük ki, beynəlxalq təşkilatlar, müvafiq qurumlar işğalçı ölkəni qınamır və cəzalandırmır".

Qəzetlərdən "Yeniçağ"ın "Bunlardan insan olmaz", "Posta"nın "Şərəfsizlər", "Takvim"in "P-300", "Yeni akit"in "Erməni qətliamı", "Yeni Asya"nın "Yenə mülki əhali hədəfdə", "Sözçü"nün "Uşaq qatilləri", "Aydınlık"ın "Müharibə cinayətinə səs çıxartmadılar", "Milli gazete"nin "Soyqırım dediyiniz baxın, budur", "Doğru haber"in "Ermənistan intiqamını mülki əhalidən alır", "Dokuz sütun"un "Xain hücum", "Yeni mesaj"ın "Şərəfsizlikdi bu" və "Türkgün"ün "Mədəniyyətiniz batsın" başlıqlı xəbərlərində diqqətə çatdırılır ki, Gəncənin mülki əhalisini hədəf alan Ermənistan münaqişənin sülh yolu ilə həllində maraqlı deyil və Azərbaycana qarşı yeni hücumlar üçün fürsət və bəhanələr axtarır. Qeyd olunur ki, cəbhədəki məğlubiyyətdən Ermənistan qisas almaq məqsədilə Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə yenə raket zərbələri endirib. Uşaqlar, qadınlar, adi mülki əhali həlak olub və buna heç vəchlə haqq qazandırmaq olmaz.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Humanitar atəşkəsin antihumanist qatilləri

## YAP Ermənistan tərəfindən Gəncədə törədilən terror aktı ilə əlaqədar 50-dən çox siyasi partiyaya və beynəlxalq təşkilatlara müraciət ünvanlayıb

**Yeni Azərbaycan Partiyası işğalçı erməni silahlı qüvvələri tərəfindən Gəncə şəhərində törədilən terror aktı ilə əlaqədar Avropa Xalqları Partiyasına, Mərkəzçi Demokrat İnternasionalına, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransına, İslam Əməkdaşlıq Təşkilatına, Avronest Parlament Assambleyasına, Milli Demokratiya İnstitutuna, İqtisadi Əməkdaşlıq Təşkilatına, Ərəb Dövlətləri Liqasına, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatına, Türkiyə Ədalət və İnkişaf Partiyasına, "Yedinaya Rossiya" Partiyasına, Çin Kommunist Partiyasına, Yaponiya Liberal-Demokrat Partiyasına və ümumilikdə 50-dən çox siyasi partiyalara və beynəlxalq təşkilatlara müraciət ünvanlayıb.**

YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müraciətdə deyilir: "Məlumdur ki, 2020-ci il sentyabrın 27-də səhər saat 06-dan etibarən Ermənistanın hərbi qüvvələri 1994-cü ildən qüvvədə olan atəşkəs razılaşmasını kobud şəkildə pozaraq genişmiqyaslı hərbi əməliyyatlara başlamış, bütün təmas xətti boyunca Azərbaycanın mülki obyektlərini iriçaplı silahlardan və ballistik raketlərdən atəşə tutub. Sentyabrın 27-dən oktyabrın 17-dək Ermənistanın silahlı qüvvələri döyüş bölgələrindən kənarda yerləşən Gəncə və Mingəçevir şəhərlərini, Abşeron, Xızı, Bərdə, Beyləqan, Ağcabədi, Goranboy, Göygöl, Tərtər, Yevlax, Horadiz yaşayış məntəqələrini atəşə tutaraq qadın və uşaqlar daxil olmaqla, 70-ə qədər mülki şəxsi qətlə yetirib, 200-dən çox mülki şəxsi yaralayıblar. Yaralananlar içərisində qadın və uşağın olması diqqət çəkir. Bu hücumlar nəticəsində minlərlə şəxsi evə, eləcə də sosial infrastruktur obyektlərinə və yaşayış binasına ciddi zərər dəyib. Bundan əlavə, işğalçı Ermənistanın hərbi qüvvələri bölgə üçün böyük enerji və irriqasiya əhəmiyyəti daşıyan Mingəçevir Su Elektrik Stansiyasını, Avropanın enerji təhlükəsizliyinin əsasını təşkil edən və regionun iri strateji obyektləri sayılan Bakı-Tbilisi-Ərzurum qaz və Bakı-Tbilisi-Ceyhan neft boru xətlərini hədəf kimi seçərək raket hücumu həyata keçirib. Qeyd olunan şəhərlərə və digər yaşayış məntəqələrinə qarşı qadağan olunmuş "9N235", həmçinin "M85" bombalarından və "Kaset Sursatlar haqqında" Konvensiyaya (CCM) uyğun olaraq 2008-ci ildə qadağan olunmuş sursatlardan istifadə edib.

Eyni zamanda Ermənistan hərbi-siyasi hakimiyyəti tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərinə digər ölkələrdən muzdlu terrorçular gətirilərək dinc azərbaycanlı əhaliyə qarşı istifadə olunub. Onlar beynəlxalq humanitar hüququn ən elementar normalarına məhəl qoymayaraq, Azərbaycanın üzərində ağ bayraq qaldırılan tibbi maşınlarını atəşə tutub.

Yeni Azərbaycan Partiyası hesab edir ki, tərəfləri daim atəşkəsə çağıran beynəlxalq ictimaiyyət Ermənistanın beynəlxalq hüquqa və humanitar atəşkəs prinsiplərinə zidd olan bu əməllərinə münasibət bildirməlidir. Humanitar atəşkəs rejiminin qüvvəyə minməsindən cəmi bir neçə saat sonra Gəncə, Mingəçevir və digər yaşayış məntəqələrimizin hədəfə alınması, eləcə də Azərbaycan Silahlı Qüvvələrinə qarşı son hücumlar Ermənistanın beynəlxalq ictimaiyyətə hörmətsizliyinin, eləcə də bu ölkə rəhbərliyinin atəşkəs çağırışlarının riyakarlıqdan başqa bir şey olmadığının göstəricisidir.

Ona görə də Yeni Azərbaycan Partiyası olaraq beynəlxalq qurumları, o cümlədən tərəfdaş siyasi partiyaları və beynəlxalq siyasi partiya təşkilatlarını Ermənistanın humanitar atəşkəsi pozan əməllərini və dinc əhaliyə qarşı hücumlarını qəti şəkildə pisləməyə çağırırıq".

## Azərbaycan Ağsaqqallar Şurası beynəlxalq və regional təşkilatlara müraciət edib

**Azərbaycan Ağsaqqallar Şurasının sədri Eldar Quliyev qurumun 21 min 500 üzvü adından beynəlxalq və regional təşkilatlara müraciət ünvanlayıb.**

Ağsaqqallar Şurasından AZƏRTAC-a bildiriblər ki, müraciətdə deyilir:

"Müharibəni insanlığa qarşı cinayət kimi qiymətləndirən, mülki əhalinin, körpələrin və ahılların öldürülməsini yolverilməz sayan sülhsevər dünya ictimaiyyətinin, dövlətlərin və beynəlxalq təşkilatların diqqətinə!

Azərbaycanın bir milyondan artıq vətəndaşını öz ata-baba yurdlarından qovaraq ərazisinin iyirmi faizini işğal edən Ermənistan öz təcavüzkar siyasəti ilə 30 ildən artıq müddətdə bölgəmizdə sabitlik və təhlükəsizliyi ciddi təhdid yaradıb.

Bütün dünyada sülhün və təhlükəsizliyin əsas təminatçısı olan BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrdə Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasının tələb olunmasına baxmayaraq, Ermənistan indiyə qədər bu tələblərə əməl etmir. Azərbaycanın ərazi bütövlüyünün və beynəlxalq aləmdə tanınmış sərhədlərinin toxunulmazlığının diqqətə çatdırıldığı həmin qətnamələrdə münaqişə tərəfi olmayan mülki şəxslərin qorunmasının vacibliyi və ərazi əldə etmək üçün güc tətbiqinin yolverilməzliyi vurğulanır. Lakin beynəlxalq hüquq normalarını saymayan Ermənistan bütün bu illər ərzində ciddi surətdə silahlanaraq öz militarist siyasətini davam etdirib, Azərbaycanın yeni ərazilərini işğal etməyə cəhdlər göstərib.

Belə ki, 2016-cı ilin aprelində Ermənistan atəşkəs rejimini kobud şəkildə pozaraq hərbi əməliyyatlara başlayıb, mülki əhalinin yaşadığı qəsəbə və kəndləri ağır silahlardan atəşə məruz qoyub. Yalnız Azərbaycan Ordusunun adekvat cavab tədbirlərindən sonra təxribata son qoyulub. Azərbaycanın yeni ərazilərini işğal etməyi qarşısına məqsəd qoyan Ermənistan cari il iyulun 12-də ölkəmizə qarşı yeni təxribat törədərək, münaqişə zonası olan Dağlıq Qarabağdan yüzlərlə kilometr kənarda yerləşən Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində genişmiqyaslı hərbi əməliyyatlara başlayıb, yenə də Azərbaycan Ordusunun layiqli cavablarından sonra geri çəkilməyə məcbur olub. Sentyabrın 27-də Ermənistan ordusu işğal altında saxladığı Dağlıq Qarabağda yenidən Azərbaycana qarşı genişmiqyaslı hərbi əməliyyatlara başlayıb. Düşmən ordusu hərbi mövqelərimizdən daha çox ölkəmizin böyük şəhərlərinin əhalisi sıx olan yaşayış məntəqələrinə, mülki və sənaye obyektlərinə ağır silahlardan və artilleriya qurğularından atəş açmağa üstünlük verib. Erməni təxribatçılarının döyüş bölgələrindən kənarda yerləşən Gəncə və Mingəçevir şəhərlərinə, Abşeron və Xızı, eləcə də Ağcabədi, Bərdə, Beyləqan, Zərdab, Goranboy, Göygöl, Tərtər, Yevlax rayonlarına raket zərbələri endirməsinə cavab olaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə Ordumuz əks-hücum əməliyyatlarına başlayıb, qısa müddətdə düşmənə sarsıdıcı zərbələr endirərək Cəbrayıl və Füzuli şəhərlərini, 40-dan artıq yaşayış məntəqəsini, bir çox strateji yüksəklikləri işğaldan azad edib, Ermənistanın xeyli canlı qüvvəsini və döyüş texnikasını məhv edib.

Oktyabrın 10-da Rusiyanın vasitəçiliyi ilə humanitar atəşkəs barədə razılaşma əldə olunsa da, atəşkəs rejiminin qüvvəyə minməsindən az sonra - oktyabrın 11-i gecə saat 2 radələrində Ermənistan silahlı qüvvələri öz ölkəsinin ərazisindən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə "Elbrus" (SCUD) ballistik raketləri ilə zərbələr endirib. Bu cinayətkar təxribat nəticəsində 5-i qadın olmaqla 10 nəfər həlak olub, 16 qadın və 6 azyaşlı uşaq daxil olmaqla, 34 nəfər yaralanıb, 3 bina tamamilə dağıdılıb, 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı mülki obyektlərə ziyan dəyib. Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri və xarici media işçiləri əraziyə baş çəkərək, erməni vəhşiliyinin əyani şahidi olublar.

Erməni silahlı qüvvələri oktyabrın 15-də səhər saatlarında işğal altında olan Qubadlı rayonu ərazisindən Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunu atəşə tutub.

Kəskin beynəlxalq reaksiyaları vecinə almayan Ermənistan öz faşist xislətinə sadiq qalaraq hərbi cinayətlər törətməyə davam edib, oktyabrın 17-si gecə saat 1 radələrində 500 minə yaxın əhalisi olan və cəbhə xəttindən çox uzaqda yerləşən Gəncə şəhərinə raket zərbələri endirib. İnsanların şirin yuxuda olduqları vaxt edilən bu dəhşətli raket hücumu nəticəsində 14 şəxs, o cümlədən 4 azyaşlı uşaq həyatını itirib, 52 nəfər ağır yaralanıb. Bu hərbi cinayət nəticəsində ölü və yaralı sayının daha da artacağı ehtimalı çox yüksəkdir. Eyni zamanda, çoxsaylı yaşayış binaları tamamilə dağılıb, mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib. Gəncə şəhərinin dinc sakinlərinin ballistik raketlərlə atəşə tutulması beynəlxalq hüququn norma və prinsiplərinin, o cümlədən 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarının, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrinin kobud surətdə pozulmasıdır. Mülki əhaliyə qarşı törədilən bu amansızlıqlar hərbi cinayətdir və buna beynəlxalq səviyyədə hüquqi qiymət verilməlidir.

Biz ağsaqqallar Ermənistanın mülki əhaliyə qarşı həyata keçirdiyi terror aktını qətiyyətlə pisləyərək bəyan edirik: "Azərbaycan hazırda öz tarixi torpaqlarını işğaldan azad etmək üçün Vətən müharibəsi aparır. Azərbaycan xalqı münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ölkə rəhbərliyinin göstərdiyi səyləri yüksək qiymətləndirərək, bu səylərin müsbət nəticə verəcəyini 30 il müddətində səbirlə gözləyib. Lakin son vaxtlar Ermənistanın ardıcıl törətdiyi təxribatlar hər kəsin səbir kasasını daşırıb. Ona görə də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xalqımızın uzun illər boyu gözlədiyi əks-hücum əməliyyatlarına başlamaq barədə qətiyyətli qərarını ürəkdən dəstəkləyirik. Biz rəşadətli Ordumuzun uğurlarından qürur hissi keçirir, Azərbaycan xalqı, ölkəmizdə fəaliyyət göstərən 52 siyasi partiyalardan Prezidentin siyasətini dəstəkləyən 51 partiya ilə birlikdə dövlətimizin başçısının ətrafında monolit qüvvə kimi birləşərək onun müdrik siyasətini müdafiə etdiyimizi Ermənistanın və dünya ictimaiyyətinin diqqətinə çatdırırıq.

Rəşadətli Ordumuzun zərbələrinə tab gətirməyərək dağılmaq həddinə çatan, fərarilərinin sayı günbəgün çoxalan, təhdid altında münaqişə zonasında saxlanılan Ermənistan ordusu müharibə meydanında əsgərlərimizə cavab verə bilməyərək, yaşayış məntəqələrimizi atəşə tutur, mülki əhali arasında təşviş yaratmağa çalışır. Lakin onların bütün səyləri nəticə vermir. Azərbaycan Ordusu və xalqı yenilməzdir. Qələbə bizimlədir. Qarabağ Azərbaycandır!

Beynəlxalq hüququn norma və prinsiplərini, eləcə də oktyabrın 10-da Rusiyanın vasitəçiliyi ilə qəbul olunmuş humanitar atəşkəsi kobud şəkildə pozaraq insanların məqsədli şəkildə öldürülməsi müharibə cinayət və insanlıq əleyhinə cinayətdir. Bu cinayətlərə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Hesab edirik ki, beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi bu qeyri-insani aktlara biganə qalmamalı, hərbi təcavüzə və mülki insanlara qarşı qəddar hücumlara son qoymağı Ermənistandan qətiyyətlə tələb etməlidir.

Bununla yanaşı, Ermənistana silah satan dövlətləri ölkəmizin şəhər və rayonlarını bombalamaqla mülki əhaliyə, xüsusən qadınlara, uşaqlara və körpələrə qarşı törədilən cinayətlərə ortaq olmamaq üçün ona silah satışını dayandırmağa çağırırıq.

Ermənistanın hərbi-siyasi rəhbərliyi terroru dövlət siyasəti vasitəsinə çevirib. Terrorçu dövlətə qarşı milli və beynəlxalq hüquq mexanizmlərindən istifadə etməklə adekvat tədbirlər görülməli, mülki əhaliyə qarşı hərbi cinayət törədənlər ədalət mühakiməsinə cəlb edilməlidir.

Biz bu müraciəti Birləşmiş Millətlər Təşkilatına, BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinə, Qaçqınlar üzrə Ali Komissarlığına, Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumuna və Uşaq Fonduna (UNESKO və UNICEF), NATO və onun Parlament Assambleyasına, ATƏT və onun Parlament Assambleyasına, ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinə, Avropa İttifaqına, Avropa Şurasına və onun Parlament Assambleyasına, Qoşulmama Hərəkatına, Müstəqil Dövlətlər Birliyinə, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına, Milli Demokratiya İnstitutuna, "Human Rights Watch", "Transparensy İnternational", "Amnesty İnternational", "Sərhədsiz Jurnalistlər" və "Sərhədsiz həkimlər" təşkilatlarına ünvanlayırıq".







## Gəncənin raket atəşinə tutulması Xocalı soyqırımının davamıdır

**Moskvada humanitar atəşkəsin imzalanmasından sonra Ermənistanın razılaşmanı pozması, yaşayış məntəqələrimizi hədəfə almaqla dinc əhalini qətlə yetirməsi bir daha işğalçıların təcavüzkar mahiyyətini ortaya qoydu. Gəncəyə raket zərbələri endirərək günahsız qadınları, uşaqları və yaşlıları qətlə yetirməklə bir daha təsdiq edildi ki, Paşinyan rejimi hələ də azərbaycanlılara qarşı soyqırımı siyasətindən əl çəkmək fikrində deyil.**

Düşmənin Azərbaycanın ikinci ən böyük şəhərini atəşə tutmasının bir sıra səbəbləri var. Birincisi, hər gün cəbhədə uğursuzluğa düçar olan düşmənin ölkə daxilində diqqəti yayındırmaqdırsa, ikinci səbəb vətəndaşlarımızın iradəsini sarsıtmaq, əhali arasında xof yaratmaqdır. Lakin onların bu cinayət əməlləri xalqımızın mübarizə ruhunu, qələbə əzmini nəinki sındırır, əksinə düşmənə nifrətini daha da artırır.

Xəbər verildiyi kimi, oktyabrın 11-də və 17-də gecə saatlarında, insanların yuxuda olduqları vaxt ağır artilleriya qurğularından açılan atəş nəticəsində onlarca mülki şəxs həlak olmuş və yaralanmışlar. Bununla döyüş bölgəsindən xeyli kənarda yerləşən Gəncə erməni terrorunun növbəti qurbanına çevrilmişdir. Həmişə olduğu kimi, bu dəfə də dünya birliyi törədilən bu qanlı olaylara münasibət bildirmədi. Susmaqla və ya yumşaq ifadələrlə öz işlərini bitmiş hesab etdilər. Lakin bu terrora layiq olduğu cavabı Azərbaycan Ordusu döyüş meydanında verir. Yeni yaşayış məntəqələrinin və strateji mövqeləri azad etməklə.

Bir məsələni də diqqətə çatdırmaq lazımdır. Raket zərbələrindən dərhal sonra Fövqəladə Hallar Nazirlinin xilasediciləri və polis əməkdaşları hadisə yerinə gəldilər. Onlar sağ qalmış insanları xilas etmək üçün var qüvvələri ilə çalışdılar. Lakin bu zaman diqqəti bir məqam da çəkdi. Şəhər əhalisi gecəyarı olmasına baxmayaraq, hadisə yerinə axışmışdı. Hamı əllərindən gələn köməklə Fövqəladə Hallar Nazirliyinin xilasedicilərinə yardım etmək istəyirdi. Qısa vaxtda uçmuş binaların altından sağ qalmış bütün sakinlər çıxarıldı. Yaralılar təcili tibbi yardım maşınları ilə xəstəxanalara daşındı. Həkimlər onların sağ qalması üçün əllərindən gələni əsirgəmədilər. Kommunal təsərrüfatının işçiləri də operativ işlədilər. Təhlükəsizlik üçün şəhərə qazın verilişi dayandırılsa da, səhər saat 6-da bərpa edildi.

İndi gəncəlilər sarsıntılı günlər yaşasa da, əhvali-ruhiyyələri əvvəlkindən daha qətiyyətlidir. Hamının bir arzusu var: "Təki, Qarabağ düşməndən azad edilsin". Hətta "biz yataqda deyil, cəbhədə həlak olmaq istəyirik" deyənlər də az deyil.

Hadisə zamanı xəsarət alanlardan biri - Şairə Quliyeva dedi ki, raketin düşdüyü anı yaxşı xatırlayır: "Elə bil evimizin altı üstünə çevrildi. Başıma daşlar yağmağa başladı. Yaralanmağıma baxmayaraq, uşaqlarımın üstünə cumdum. Onları salamat görəndə sevindim".

Aftandıq Sadıqov isə hadisəni belə xatırlayır: "Sağ olsunlar, özümə gələndə gördüm ki, xilasedicilər üstümə tökülmüş daş və taxtaları təmizləyirlər. Məni çıxarıb həkimlərə təhvil verdilər. Nə baş verdiyini bir müddət anlamadım. Sonralar özümə gələndə hər şeyi başa düşdüm".

Hadisə şahidləri də baş vermiş faciəni erməni hərbi-siyasi rəhbərliyinin vandalizm aktı kimi qiymətləndirirlər. Hadisə yerində rastlaşdığımız Azad Bayramov və Göyərçin Rzayeva: "Bilirik ki, bütün bunlar erməni ordusunun cəbhədəki uğursuzluğunun nəticəsidir. Ancaq ermənilər başa düşməlidirlər ki, artıq işğal etdikləri torpaqlardan rədd olmalıdırlar. Artıq 90-cı illər deyil. İndi güclü iqtisadiyyatımız, güclü ordumuz və qətiyyətli Ali Baş Komandanımız var. Bunu Azərbaycan Ordusunun əks-hücumları bir daha sübut edir. Az bir vaxtda işğal olunmuş ərazilərimizin xeyli hissəsi azad olunub. Döyüşlər zamanı düşmən minlərlə canlı qüvvə, texnika itirib. Qənimət götürülmüş tanklar, döyüş silahları düşmənin özünə qarşı yönəldilir".

Hadisə şahidi Dilbazi Sadıqova isə bunu dedi: "Ən dəhşətli müharibələrdə də mülki əhaliyə qarşı amansızlıq edilməyib. Bu qaniçənlər isə cəbhədəki uğursuzluqlarını dinc əhalidən çıxırlar. 10 gündə iki dəfə Gəncəni raket atəşinə tutdular. Oktyabrın 11-də atılan reket azyaşlı uşaqları valideynsiz qoymuşdu. Oktyabrın 17-də törədilən faciədə də uşaqlar valideynsiz qaldılar. Buna nə ad vermək olar?! Bu qədər də vəhşilik olmaz axı".

Raket düşərkən onun partlayış dalğası təkcə həmin ərazilərdəki evlərə deyil, xeyli kənarda yerləşən binalara, sosial infrastruktur obyektlərinə də xeyli ziyan vurub. Hətta bir qədər aralıda yerləşən 29 nömrəli tam orta məktəbdə, eləcə də məktəblə üzbəüz olan uşaq bağçasında da dağıntılar olub. Məktəbin sinif otaqlarının qapı və pəncərələri yararsız hala düşüb. Yaxınlıqdakı çoxmənzilli binaların isə pəncərələrinin şüşələri sınaraq tökülmüşdür. Biz orada olarkən insanlar evlərində səliqə-sahman yaradır, dağılmış yerləri müvəqqəti də olsa bərpa etməyə çalışırdılar.

Yadıma Xocalı faciəsi düşür. Ermənilər Xocalıda da insanlara gecə hücum etmişdilər. Ölənlər, yaralananlar, eləcə də əsir götürülənlər Gəncədəki kimi mülki əhali idi.

Onu da qeyd edək ki, hadisədə zərərçəkmiş sakinləri dinləmək, dəymiş ziyanın hesablanmasını aparmaq və digər məsələlərlə bağlı səyyar qərargah yaradılmışdır. Gəncə Şəhər İcra Hakimiyyətinin rəhbərləri, Milli Məclisin Gəncədən olan deputatları, dövlət qurumlarının nümayəndələri hər gün qərargahda olur, törədilən faciənin fəsadlarının aradan qaldırılması ilə bağlı tədbirlər görürlər.

İndi Gəncənin Muxtar Hacıyev küçəsində böyük izdiham var. İnsanlar baş verən faciəni öz gözləri ilə görmək üçün ard-arda bura gəlir və işğalçıların növbəti vəhşiliyinin izlərini gördükdən sonra düşmənə nifrətləri, Ordumuza isə inamları birə-beş artır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Dünya bu haqsızlığa susmamalıdır

**Oktyabrın 17-də gecə saat 1 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın ikinci böyük şəhəri Gəncəyə sayca üçüncü dəfə raket zərbəsi endirilib. Qədim və gözəl Gəncənin bağrına namərd düşmən yenidən yara vurub. Ermənistan silahlı qüvvələrinin bu şəhərə, mülki əhalinin sıx yaşadığı məhəlləyə raket hücumu nəticəsində 14 nəfər həlak olub, 52-dən artıq şəxs yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib. Ölən və yaralananlar arasında azyaşlı uşaqlar, qadınlar və yaşlılar da var. Sonradan dağıntılar arasından daha iki azyaşlı uşağın cəsədi tapılıb.**





Bu şəhərin sakinlərinin qulaqlarından hələ atəş səsi getməmişdi. Oktyabrın 11-də də düşmən hücum üçün gecəni seçmişdi. Həmin gün gecə saat 2 radələrində Ermənistanın hərbi-siyasi rəhbərliyinin əmri ilə atılan atəş nəticəsində 4-ü qadın olmaqla 10 nəfər həlak oldu, 16-sı qadın, 6-sı azyaşlı olmaqla 34 nəfər yaralandı. 10-dan artıq çoxmənzilli binaya, eləcə də 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəydi.

500 mindən çox əhalisi olan Gəncə şəhəri cəbhə bölgəsindən xeyli uzaqda yerləşir. Öz evində qətlə yetirilənlər, yaralananlar dinc sakinlərdir. Ermənistan bu əməlləri ilə - mülki insanları hədəf seçməklə, dinc sakinlərə qarşı qətliamlar həyata keçirməklə müharibə cinayətləri törətməkdə davam edir.

Azərbaycan Respublikasının Baş Prokuroru tərəfindən Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibəni aparma), 120.2.1 (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4 (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürmə), 120.2.7 (qəsdən iki və ya daha çox şəxsi öldürmə), 120.2.12 (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürməyə cəhd), 186.3-cü (əmlakı qəsdən məhv etmə və ya zədələmə xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə) və digər maddələri ilə artıq cinayət işi başlanaraq istintaq aparılmasına başlanıb. Ermənistan dövlətinin Gəncədə törətdiyi cinayət əməlləri yalnız Azərbaycan dövlətinə və Azərbaycan xalqına qarşı deyil, ümumilikdə haqqa, ədalətə, insanlığa yönəldilib.

Bu günlər bütün dünyanın gözü qarşısında Ermənistan dövləti özbaşınalıq, azğınlıq edir. Gəncənin dinc əhalisinin qəsdən və kütləvi şəkildə qətlə yetirilməsi əmrini verməklə Ermənistanın baş naziri Nikol Paşinyan və müdafiə naziri David Tonoyan, bu əmri icra edən Ermənistan silahlı qüvvələri BMT-nin nizamnaməsini, beynəlxalq hüququ və beynəlxalq humanitar hüququ heçə sayıblar. Hüquq və ədalət nöqteyi-nəzərindən onların dərhal tutularaq müvafiq qaydada cəzalandırılması üçün BMT Təhlükəsizlik Şurasının prosedurları işə salınmalıdır. Dünya bu haqsızlığa susmamalıdır.

Çox təəssüf ki, XXI əsrdə bütün bəşəri dəyərləri heçə sayan kiçik bir dövlət böyük faciələr törədir. XX əsrin sonuncu onilliyində iyirmi faizini işğal edib otuz ilə yaxın əsarətdə saxladığı Azərbaycan torpaqlarında müharibə aparır. Halbuki 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələrə əsasən Ermənistan silahlı qüvvələri dərhal və qeyd-şərtsiz olaraq Azərbaycanın ərazisini tərk etməli, 1 milyon məcburi köçkün yaşayış yerlərinə qayıtmalıdır. Təəssüf ki, Ermənistan dövləti beynəlxaq tələb və qətnamələrə məhəl qoymur.

1994-cü ildə atəşkəs elan olundu. Lakin Ermənistan silahlı qüvvələri tərəfindən ərazilərimiz mütəmadi olaraq atəşə tutuldu. Bu il sentyabrın 27-dən alovlanan müharibənin səbəbkarı da Ermənistan tərəf oldu. Daha güclü və haqlı tərəf olmasına rəğmən Azərbaycan sülhə hazır olduğunu yenidən göstərdi. Moskvada Ermənistan Xarişi İşlər naziri ilə Azərbaycan Xarici İşlər naziri arasında humanitar atəşkəs barədə razılığa gəlindi. Amma yenidən Ermənistan dövləti atəşkəs rejimini pozmaqda davam etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 17-də xalqa müraciətində diqqətə çatdırdığı kimi: "Atəşkəs elan olundu, ondan bir gün keçmədi Gəncəni bombaladılar. Özü də haranı? Yaşayış massivlərini. Bu gün də haranı vurdular? Yenə də yaşayış massivlərini. Nə vaxt vurdular? Gecə saatlarında ki, daha çox insan həlak olsun".

Bəli, düşmən bu qədər namərddir. Döyüş meydanında gücsüzlüyünün əvəzini dinc sakinlərdən çıxmaqdan nə utanır, nə qorxur, nə də çəkinir. Nəinki döyüş bölgəsinə yaxın ərazilərdə, cəbhədən uzaq məsafədə yerləşən Gəncə, Mingəçevir, Bərdə, Beyləqan və digər yaşayış yerlərimizi Ermənistan ordusu ağır artilleriya qurğularından və raket sistemlərindən intensiv atəşə tutur. Uşaq, qoca, qadın demədən günahsız insanları qətlə yetirir, evlərini dağıdırlar.

Azərbaycan xalqına qarşı erməni vandallarının terror əməllərinə son qoymaq üçün dünya ölkələri qətiyyətli mövqelərini bildirməlidirlər. Çünki dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, bu insanlığa qarşı cinayətdir.

Azərbaycan Ordusu layiq olduğu qələbəni qazanmaqdadır. Ordumuzun zəfər yürüşü davam edir. Ermənistan silahlı qüvvələri bu gücün, bu iradənin qarşısında geri çəkilməyə, məğlubiyyətə uğramağa məhkumdurlar. Hər gün düşmən işğalından azad edilmiş torpaqlarımız genişlənir. Vəhşi əməlləri özünə layiq bilən Ermənistan silahlı qüvvələri isə müxtəlif istiqamətlərdən Azərbaycanın həm cəbhə bölgələrini, həm də döyüş ərazilərindən uzaqda olan yaşayış yerlərini güllələbaran etməkdə davam edirlər. Bu təhdidlərlə Azərbaycan xalqının gözünü qorxutmaq mümkün deyil. Yolumuz Şuşayadır. Məramımız qələbədir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Erməni faşistlərinin hədəfləri mülki şəxslər və obyektlərdir

## Baş Prokurorluq xəbər verir

Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyalarını və onların Əlavə protokollarını, habelə humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini və strateji obyektləri raket və ağır artilleriya zərbələrinə məruz qoymaqda davam edir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 18-də saat 13 radələrində Ermənistan silahlı birləşmələri mühüm dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə edib Azərbaycan Respublikasının Xızı rayonunun ərazisində hərbi hədəf olmayan xam neft və kondensat ixrac edən kəmərləri hədəfə alıb.

Ermənistan silahlı qüvvələri hərbi əməliyyatlar aparılan ərazidən təxminən 300 kilometrdən artıq məsafədə yerləşən Xızı rayonu istiqamətində raket zərbələri endirməyə çalışıb. Azərbaycan Ordusunun Hava Hücumundan Müdafiə qüvvələri tərəfindən havada zərərsizləşdirilməsi nəticəsində raketin içərisində olan partlayıcı hissəciklərin bir hissəsi Azərbaycan-Rusiya iqtisadi əməkdaşlığında strateji əhəmiyyətli Bakı-Novorossiysk neft kəmərinin Xızı rayonunun Sitalçay kəndindən keçən hissəsindən 250 metr məsafəyə səpələnib.

Törədilmiş həmin cinayət nəticəsində neft ixrac edən və dağıdılması əhəmiyyətli maddi zərər vurulmasına səbəb ola bilən böyük ötürücülü xam neft və kondensat ixrac edən kəmərlər üçün təhlükəli şərait yaranmaqla infrastruktur obyektlərinə məxsus xüsusilə külli miqdarda əmlakların qəsdən məhv edilməsinə cəhd olunub.

Bununla bağlı prokurorluq əməkdaşları tərəfindən hadisə yerində zəruri istintaq tədbirləri və prosessual hərəkətlər həyata keçirilir.

* * *

Ermənistanın silahlı qüvvələri elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini, o cümlədən 1949-cu il tarixli Cenevrə konvensiyalarının əsas norma və prinsiplərini kobud şəkildə pozmaqla dinc mülki əhalimizə qarşı cinayət əməllərini davam etdirir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 19-da səhər saatlarından başlayaraq düşmənin silahlı birləşmələri tərəfindən Ağdam rayonu müxtəlif istiqamətlərdən raket və ağır artilleriyadan intensiv atəşə tutulub.

Saat 15 radələrində rayonun Bənövşələr qəsəbəsinə top mərmisinin düşməsi nəticəsində 1955-ci il təvəllüdlü Quliyeva Şamama İsa qızı və 1976-cı il təvəllüdlü Quliyeva Maya Məmməd qızı müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdiriliblər.

Həmçinin həmin vaxt Bənövşələr qəsəbəsində olan "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin (AzTV) cəbhəboyu zonaya ezam edilmiş əməkdaşı 1982-ci il təvəllüdlü Həsənov Anar Bəybala oğlu Ermənistanın mülki əhaliyə qarşı törətdiyi təxribatları dünya ictimaiyyətinə çatdırarkən düşmən tərəfindən atəşə tutulması nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib.

Bundan başqa, rayonun Paşabəyli kəndi ərazisinə top mərmisinin düşməsi nəticəsində kənd sakini Məhiyəddinli Çiçək İlyas qızı müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilir.

* * *

Ermənistanın silahlı qüvvələri humanitar atəşkəs rejiminin tələblərini, o cümlədən 1949-cu il tarixli Cenevrə konvensiyalarının əsas norma və prinsiplərini kobud şəkildə pozmaqla dinc mülki əhalini, mülki infrastruktur obyektlərini ağır artilleriya və raket atəşinə tutmaqda davam edir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 19-da səhər saatlarından başlayaraq düşmən silahlı birləşmələri tərəfindən Tərtər rayonu müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulub. Saat 16 radələrində rayonun Azad Qaraqoyunlu kəndi ərazisinə top mərmisinin düşməsi nəticəsində "Pambıq emalı zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətin Tərtər filialında yanğın baş verib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən yanğın zamanı hər hansı şəxsin (şəxslərin) xəsarət alıb-almamasını müəyyən etmək məqsədilə mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilir.

İctimaiyyətə əlavə məlumat veriləcək.

* * *

Ermənistanın silahlı qüvvələri elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozmaqla dinc mülki əhalimizə qarşı cinayət əməllərini davam etdirir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 18-də düşmənin silahlı birləşmələri tərəfindən Ağcabədi rayonunun müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulması nəticəsində Yuxarı Qiyaməddinli və Qaraxanlı kəndlərində ümumilikdə 25-dən artıq evə külli miqdarda ziyan dəyib.

Bundan başqa, oktyabrın 19-da səhər saatlarından başlayaraq Ermənistanın silahlı qüvvələri tərəfindən Tərtər rayonunun müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulması nəticəsində Ələsgərli kənd sakini 1962-ci il təvəllüdlü Səlimov Niyaz Hüseynalı oğlu yaşadığı evin həyətinə top mərmisinin düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib. Onun yaşadığı evə isə ciddi ziyan dəyib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilir.

* * *

Ermənistan silahlı qüvvələri oktyabrın 10-da saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozmaqla dinc mülki əhalimizə qarşı cinayət əməllərini davam etdirib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 17-də saat 21 radələrində düşmənin silahlı birləşmələri tərəfindən Ağdam rayonunun müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulması səbəbindən Mahrızlı kənd sakini 1981-ci il təvəllüdlü Həsənov Ramil Kamal oğlu yaşadığı evin həyətinə top mərmisinin düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Evə külli miqdarda ziyan dəyib.

Hazırda prokurorluq əməkdaşları mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirlərini həyata keçirirlər.

* * *

Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən aparılmış araşdırmalarla son günlərdə müxtəlif terror təşkilatlarının üzvlərinin, o cümlədən xarici ölkə vətəndaşlarının dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan Ermənistan ərazisindən qanunsuz keçərək Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinə gəlib Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə qarşı, eləcə də Azərbaycan Respublikasının ərazilərinin işğalına yönələn təcavüzkar müharibədə muzdlu kimi istifadə olunmaları müəyyənləşdirilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu kimi qanunsuz halların qarşısının alınması məqsədilə xarici ölkə vətəndaşlarının Azərbaycan Respublikasının ərazisinə hansı qaydada gəlmələri ilə bağlı fransız, ispan, alman, rus, ingilis və ərəb dillərində maarifləndirici videoçarx hazırlanıb.

Xarici vətəndaşlardan Azərbaycan Respublikasının dövlət sərhədini keçərkən Azərbaycan Respublikasının qanunvericiliyinə əməl olunması tələb edilir.

## Düşmənin artilleriya atəşinə tutduğu Tərtərin Qapanlı kənd məktəbinə ciddi ziyan dəyib

Erməni hərbçilərinin yaşayış məntəqələrini intensiv atəşə tutması nəticəsində yaşayış evləri, inzibati binalar, elektrik və qaz təsərrüfatı ilə yanaşı sosial obyektlərə, o cümlədən məktəblərə və uşaq bağçalarına da ziyan dəyir. Ermənistan törətdiyi müharibə cinayətləri ilə mülki insanlara, o cümlədən uşaqlara qarşı terror vasitələrindən istifadə etdiyini və beynəlxalq humanitar hüququ kobudcasına pozduğunu nümayiş etdirir.

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri xəbər verir ki, Tərtər rayonunun müxtəlif istiqamətlərdən ağır artilleriyadan atəşə tutulması nəticəsində Qapanlı kənd tam orta məktəbinə də ciddi ziyan dəyib. Məktəbin üstünə top mərmisinin atılması nəticəsində təhsil müəssisəsi dağılıb.

Qeyd edək ki, düşmənin ağır artilleriyadan atəşi nəticəsində sentyabrın 27-dən indiyədək Tərtər şəhərində, rayonun qəsəbə və kəndlərində, ümumilikdə, 13 orta məktəb, 1 musiqi məktəbi, 1 peşə ixtisas məktəbi, 3 uşaq bağçasına ziyan dəyib.





## "MKT İstehsalat Kommersiya" MMC-nin Tərtər filialı ağır artilleriyadan atəşə tutulub

Ermənistan silahlı qüvvələri "MKT İstehsalat Kommersiya" MMC-nin Tərtər filialını ağır artilleriyadan atəşə tutub.

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri xəbər verir ki, mərmilərin partlaması nəticəsində "MKT İstehsalat Kommersiya" MMC-nin Tərtər filialında mal-material və hazır məhsul anbarlarında yanğın baş verib, digər binalara ciddi ziyan dəyib.



## ANAMA: İndiyədək cəbhəboyu ərazilərdə 90-dan çox partlamamış hərbi sursat aşkarlanaraq götürülüb





Sentyabrın 27-dən etibarən cəbhəboyu ərazilərdə aparılan hərbi əməliyyatlarla bağlı Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) xüsusi mobil əməliyyat qrupları, həmçinin baş qərargahda operativ qərargah yaradılıb. Agentlik cəbhəboyu ərazilərdə əməliyyat-axtarış tədbirlərini davam etdirir. Daxil olmuş çağırışlar və müraciətlər əsasında operativ şəkildə əməliyyat-axtarış çıxışları həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, bu barədə oktyabrın 18-də keçirilən brifinqdə ANAMA-nın operativ qərargahının rəisi İdris İsmayılov məlumat verib.

Qərargah rəisi bildirib ki, yerli sakinlər tərəfindən mərmi və raketlərin ərazilərə düşməsi barədə Daxili İşlər Nazirliyinin (DİN) 102 - Zəng Mərkəzi Xidmətinə, Fövqəladə Hallar Nazirliyinin 112 - qaynar telefon xəttinə 600-dan çox çağırış daxil olub. Bu məlumatlardan sonra DİN və agentliyin əməkdaşları tərəfindən aparılan əməliyyat-axtarış tədbirləri nəticəsində 92 ədəd partlamamış hərbi sursat, 200-dən çox partlamış mərmi və raket qalıqları aşkarlanaraq götürülüb.

Hazırda əməliyyat axtarış qruplarının bu istiqamətdə tədbirləri davam etdirilir.

* * *

Sentyabrın 27-dən başlayaraq düşmən tərəfindən mülki əhaliyə qadağan olunmuş mərmilər atılıb. Belə ki, oktyabrın 3-dən 4-nə keçən gecə Yevlax, Goranboy və Ağcabədi rayonları ərazisində kaset bombaları və bombacıqları aşkarlanıb. İndiyədək 1142 ədəd belə bombacıq aşkarlanaraq götürülüb.

AZƏRTAC xəbər verir ki, bu faktları oktyabrın 18-də keçirilən brifinqdə ANAMA-nın operativ qərargahının rəisi İdris İsmayılov bildirib. O qeyd edib ki, bu silahların dünyada dinc əhaliyə qarşı istifadə olunması qadağandır.

İdris İsmayılov deyib ki, eləcə də Füzuli rayonunun Arayatlı kəndi ərazisində tərkibində 3,6 kiloqram ağ fosfor olan tüstülü mərmi aşkarlanaraq zərərsizləşdirilib. Bu günədək 11 ədəd "Elbrus" ballistik raketinin qalıqları aşkar olunaraq götürülüb.

Məlumat verilib ki, ANAMA-nın Horadiz bazasındakı əməkdaşı oktyabrın 9-da səhər saatlarında top mərmisinin atılması nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Hazırda onun vəziyyəti yaxşıdır.

Qeyd edilib ki, yerli sakinlərin məlumatlandırılması məqsədilə ANAMA-nın mina maarifləndirmə qrupları düşmənin atdığı mərmilərin, bombacıqların və digər hərbi təyinatlı əşyaların fotoşəkillərini insanların sıx toplaşdığı ərazilərdə paylayır. İndiyədək üç minə yaxın yerli sakin bu barədə məlumatlandırılıb. Maarifləndirmə tədbirləri hazırda da davam etdirilir.

* * *

Oktyabrın 18-də saat 13:00 radələrində Xızı rayonu ərazisində partlayış baş verməsi barədə yerli sakinlər tərəfindən Daxili İşlər Nazirliyinin 102 - Zəng Mərkəzi Xidmətinə məlumat daxil olub. Bu məlumatı aldıqdan sonra Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) əməliyyat qrupu, nazirliyin və digər müvafiq orqanların əməkdaşları dərhal həmin əraziyə gediblər. Rayondakı Sitalçay ərazisinə baxış zamanı bir ədəd "S-300" raketinin partlamış qalıqları aşkarlanıb.

AZƏRTAC xəbər verir ki, bu barədə oktyabrın 18-də keçirilən brifinqdə ANAMA-nın operativ qərargahının rəisi İdris İsmayılov bildirib.

İ.İsmayılov qeyd edib ki, əraziyə baxış zamanı raketin Azərbaycan Hərbi Hava Qüvvələri tərəfindən vurulması müəyyən olunub. Həmin raket 300 kilometr radiusda hədəfləri vurmaq imkanına malikdir. Hazırda ərazidə olan raketin qalıqlarına baxış zamanı onun 250-280 kilometr məsafədə uçuş qabiliyyətinə malik olduğu müəyyənləşdirilib. Partlayış nəticəsində xəsarət alan olmayıb. Hazırda agentliyin əməliyyat qrupu tərəfindən raketin hissələrinin götürülməsi həyata keçirilir.

* * *

Oktyabrın 18-də cəbhə bölgəsindən yüz kilometrlərlə aralıda yerləşən Xızı rayonuna raket atılıb.

AZƏRTAC xəbər verir ki, raket Xızı rayonunun Sitalçay qəsəbəsi ərazisində havada zərərsizləşdirilib. Raket şumlanmış əkin sahəsinə düşərək 3 hissəyə bölünüb. Xoşbəxtlikdən xəsarət alan yoxdur.

Əraziyə cəlb olunan Azərbaycan Respublikası Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) əməkdaşları bir ədəd "S-300" raketinin partlamış qalıqlarını aşkarlayıblar.

Qeyd edək ki, "S-300" raketinin qalıqlarına baxış zamanı onun 250-280 kilometr məsafədə uçuş qabiliyyətinə malik olduğu müəyyənləşib.

## Ağcabədinin yaşayış məntəqələri artilleriya atəşinə tutulub









Ermənistan silahlı qüvvələri Ağcabədi rayonunun cəbhə xəttinə yaxın yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutmaqda davam edir. Nəticədə yaşayış evlərinə, yardımçı binalara, təsərrüfatlara ziyan dəyir.

Ağcabədi rayonunun düşmənin artilleriya atəşinə məruz qalan yaşayış məntəqələrindən biri Yuxarı Qiyaməddinli kəndidir. Sentyabrın 27-dən indiyədək kənddə 12 ev tamamilə dağılıb, 44 evə ziyan dəyib. 56 baş xırdabuynuzlu, 30 baş iribuynuzlu heyvan, 200 baş ev quşları, 12 arı ailəsi tələf olub, 1000 ədəd ot bağlaması yanıb. Erməni hərbçiləri dünən növbəti dəfə kəndi atəşə tutublar.

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri Yuxarı Qiyaməddinli kəndinə gedərək, qəhrəman kənd sakinləri ilə həmsöhbət olub. Ağalar İsgəndərov düşmənin mütəmadi olaraq kəndi atəşə tutduğunu bildirib: "Axşam mərmilərdən biri oğlumun həyətinə düşüb. Evə, təndirxanaya ziyan dəyib. Lakin biz kəndimizi tərk etmirik. Ordumuza, Prezidentimizə güvənirik. Xüsusən Prezidentin çıxışları bizə böyük ruh yüksəkliyi verir".

Digər sakin Nurəli İsgəndərov isə deyib: "Səhər düşmən yenə kəndi atəşə tutmağa başladı. Həmin vaxt həyətdə idim. Mərmilərdən biri evimi dağıtdı. Evin içərisindəki əşyalar da yararsız hala düşüb. Bundan başqa, bir inək, eləcə də toyuq-cücə tələf olub. Buna baxmayaraq, öz torpağımızda möhkəm dayanmışıq. Əminik ki, tezliklə qələbə qazanacağıq".

Qeyd edək ki, Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı ən çox zərər çəkən, ağrı-acı yaşayan yaşayış məntəqələrindən biridir. Təmas xəttinə yaxın məsafədə yerləşən bu kəndi 1993-cü və 1994-cü illərdə Ermənistan silahlı birləşmələri iki dəfə işğal etsə də, Azərbaycan Ordusu tərəfindən düşməndən azad olunub. Kəndi tərk etməyə məcbur qalan ermənilər evləri yandıraraq, hər tərəfə mina basdırıblar. Öz doğma yurdlarına qayıdan kənd sakinləri ötən dövr ərzində həm ermənilərin basdırdığı minalardan, həm də atəşkəsi tez-tez pozmasından əziyyət çəkirlər. Lakin kənddə həyat hər zaman öz axarı ilə davam edir. Kənd sakinləri gündəlik qayğıları ilə məşğul olur, əkib-biçirlər. Buna səbəb isə kəndin dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunması, əhalinin yurda, torpağa bağlılığı, Azərbaycan Ordusuna və Ali Baş Komandana olan böyük inamıdır.

# Ordumuzdan nümunə götürməliyik

## Qəhrəman əsgərlərimiz ön cəbhədə işğalçını qovduqları kimi, biz də arxa cəbhədə koronavirusu məhv etməliyik

Martın 11-dən Ümumdünya Səhiyyə Təşkilatının pandemiya elan etdiyi koronavirus planetin hər yerində sürətlə yayılmaqda davam edir. Mütəxəssislər həyəcan təbili çalaraq, payız-qış fəslində COVID-19-a yoluxanların sayının artacağı ilə bağlı xəbərdarlıq edirlər.

Dünyanın indiki koronavirus mənzərəsi də proqnozların özünü doğrultduğunu təsdiq edir. Belə ki, hazırkı dövrə qədər dünyada koronavirus infeksiyasına yoluxanların sayı 40 milyon nəfəri ötüb, 1 milyondan çox insan həyatını itirib. Təkcə oktyabrın 16-da planet üzrə 400 mindən çox insanın bu virusa yoluxması təhlükənin hansı həddə olmasını gözlər önünə gətirir. ABŞ-da COVID-19 infeksiyasına yoluxanların sayı 8, Hindistanda 7, Braziliyada 5, Rusiyada isə l milyonu keçib.

Ermənistanda da koronavirusla bağlı vəziyyət hər ötən gün daha da pisləşir. Artıq bu ölkədə COVID-19-a yoluxanların sayı sürətlə 70 minə yaxınlaşır. Çünki artıq burada gündəlik yoluxma sayının min beş yüz civarında olması adi hal alıb, son günlər isə rəqəmlərin 2 minə yaxınlaşdığı müşahidə olunur.

### Koronavirus Qarabağdan gələn qələbə müjdələrinin kölgəsində qaldı

COVID-19-un Azərbaycanda qeydə alındığı ilk gündən etibarən ona qarşı çevik və effektiv mübarizə aparılır. Sistemli şəkildə həyata keçirilən tədbirlər, sanitar-epidemioloji vəziyyətin təhlilinə əsasən verilən qərarlar, pandemiya ilə mübarizədə müsbət nəticəsini verib. Buna görədir ki, ölkəmizdə virus ötən müddətdə nəzarətolunan həddə saxlanılıb, səhiyyə sisteminin səfərbərliyi sayəsində 10 minlərlə vətəndaşımız müalicə olunaraq sağaldılıb. Mütəxəssislərin də bildirdiyi kimi, koronavirusun erkən aşkarlanması pandemiya ilə mübarizədə əsas şərtlərdəndir.

Bununla əlaqədar ölkəmizdə əsaslı işlər görülür və hazırkı dövrə qədər aparılan ümumi test sayı 1 milyondan çoxdur.

Onu da vurğulamalıyıq ki, hazırda ölkəmiz təkcə pandemiya ilə deyil, ondan daha təhlükəli və qaniçən bir düşmənlə mübarizə aparır. Vətənimizə göz dikən mənfur düşmənə qarşı savaşan Azərbaycan Ordusu onlara layiqli cavab verərək, torpaqlarımızdan qovur və ardarda zəfərlər çalır. Elə buna görədir ki, bütün Azərbaycanın ürəyi Qarabağla döyünür, vətəndaşlarımızın fikri cəbhədən gələn qələbə müjdələrinə yönəldi. Təbii ki, bu zaman ikinci düşmən, koronavirus da qürurverici anlarımızın kölgəsində qaldı. Biz tamamilə pandemiyanın varlığını unutduq, infeksiyanın yox olduğunu düşündük. Elə buna görə də bir müddət əvvələ qədər Azərbaycanda COVID-19-a qarşı aparılan mübarizədə müsbət dinamika əldə olunmuşdusa da, təəssüf ki, son günlər bunun əksi ilə qarşılaşırıq. Ölkəmizdə infeksiyaya yoluxma hallarında artım müşahidə olunur.

### Karantin rejimi çərçivəsində məhdudiyyətlərin tətbiqinə başlanılıb

Bu səbəbdən də artıq dünəndən etibarən mövcud sanitar-epidemioloji vəziyyət, koronavirusa yoluxmuş aktiv xəstə sayı və yoluxma sürəti əsas götürülməklə, xüsusi karantin rejimi çərçivəsində bir sıra məhdudiyyətlərin tətbiqinə başlanılıb. Oktyabrın 19-dan noyabrın 2-dək ölkə üzrə bütün təhsil müəssisələrində tətil elan olunub.

Nazirlər Kabinetinin müvafiq tapşırığına əsasən, dövlət qurumlarında çalışan işçilərin say həddi 30 faizədək azaldılaraq, digər əməkdaşlar məsafədən iş rejiminə keçirilib. Özəl sektorda və digər sahələrdə fəaliyyət göstərən qurum və təşkilatlara eyni qaydanın tətbiq edilməsi tövsiyə olunub. Yüksək risk qrupuna daxil olan 65 yaşdan yuxarı şəxslərin ən zəruri hallarda yaşayış yerlərini tərk etmələri tövsiyə edilib.

Eyni zamanda Nazirlər Kabinetinin qərarına əsasən, oktyabrın 19-dan noyabrın 2-dək Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti dayandırılıb.

### Bir yumruğa dönüb hər iki düşmənin başında zərbəyə çevrilməliyik

Əhalinin sağlamlığı və təhlükəsizliyinin təmin edilməsi, hər zaman olduğu kimi, indi də Azərbaycan dövləti üçün ən mühüm və prioritet vəzifədir və qəbul edilən bütün qərarlar da məhz buna hesablanıb.

Əvvəldə də qeyd edildiyi kimi, hazırda ölkəmiz iki təhlükəli düşmənlə eyni anda savaşır. Bir yumruğa dönüb hər ikisinin başında zərbəyə çevrilməliyik. Qəhrəman əsgərlərimiz ön cəbhədə erməni quldurlarına dərs verdiyi kimi, biz də arxa cəbhədə COVID-19-un əl-qolunu bağlamalıyıq.

Yaddan çıxarmamalıyıq ki, xəstəxanaların, tibb işçilərinin diqqətinin cəbhəyə yönəldiyi bir dövrdə onları bu vacib missiyadan ayırmaq olmaz. Həm ön cəbhəyə, həm də həkimlərə kömək etmək, özümüzün və əsgərlərimizin sağlamlığını qorumaq üçün karantin qaydalarına xüsusi diqqət yetirməliyik. Üzərimizə düşən məsuliyyəti unutmamalı, xüsusi karantin rejiminin qaydalarına riayət etməli, maska taxmalı, şəxsi gigiyenanı gözləməliyik. Bilməliyik ki, bu sadə qaydalara əməl etməklə, digər problemlərin həllini də sürətləndirmiş olacağıq.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanda koronavirus infeksiyasına 331 yoluxma faktı qeydə alınıb, daha 107 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına 331 yeni yoluxma faktı qeydə alınıb, daha 107 nəfər sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 4 nəfər vəfat edib.




Hazırkı dövrədək ölkəmizdə 46 min 295 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 40 min 144 nəfər müalicə olunaraq sağalıb, 630 nəfər vəfat edib. Aktiv xəstə sayı 4521 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 232 min 636 test aparılıb. Dünənki test sayı isə 4612-dir.

# Lənkəranda COVID-19-a qarşı mübarizə sərtləşdirilir

Payız fəslinin gəlişi ilə əlaqədar havaların tez-tez dəyişməsi müxtəlif xəstəliklərlə yanaşı, koronavirus epidemiyasının da yenidən baş qaldırmasına rəvac verib. Artıq bəzi xəstələrdə virusa yoluxmanın simptomlarına rast gəlindiyindən rayonun iki kəndində sərt karantin elan olunaraq sosial fəallığa məhdudiyyət qoyulub.

Əhali arasında sanitariya təbliğatını gücləndirmək məqsədilə Lənkəran Şəhər İcra Hakimiyyətinin rəhbərliyi ilə yaradılmış mobil qruplar yenidən səfərbərliyə alınaraq, şəhərdə, kənd və qəsəbələrdə, insanların sıx olduğu yerlərdə söhbətlər aparılır və epidemiyadan qorunmaq üçün tətbiq olunan karantin qaydalarının, özünütəcridin, maska və digər tibbi mühafizə vasitələrindən müntəzəm istifadənin əhəmiyyəti əhaliyə ətraflı izah olunur. Mobil qrupun üzvləri avtobus dayanacaqlarında, ictimai nəqliyyatda, marketlərdə, mərkəzi bazarda, hərəkətin sıx olduğu yerlərdə reydlər keçirib vətəndaşların özünüqoruma qaydalarına əməl etmə vəziyyətini yoxlayır, qaydalara riayət etməyən şəxslərlə ciddi izahat işi aparılır.

***"Azərbaycan"***

# "Azərişıq" ASC-nin yenidənqurma işləri abonentlər tərəfindən məmnuniyyətlə qarşılanıb

"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, Şamaxı rayonunun Çuxuryurd kəndində köhnə transformator məntəqələri, yararsız kabellər, çürümüş ağac dayaqlar və sayğaclar yeniləri ilə əvəz olunub. 5 minədək sakini olan Çuxuryurd kəndində ilk dəfə 1966-cı ildə elektrik şəbəkəsi qurulub.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə həyata keçirdiyi sosial siyasətin tərkib hissəsi olaraq əhalinin elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması istiqamətində qarşıya qoyulan tədbirlər proqramının icrası uğurla davam edir. Xatırladaq ki, "Yeni kəndlər" layihəsi çərçivəsində "Azərişıq" ASC indiyədək ölkə üzrə 500-dən çox kənddə elektrik enerjisi sistemini tamamilə yenidən qurub.

# "Azərişıq" ASC "İşıqlı Azərbaycan" rəsm müsabiqəsinin qaliblərini mükafatlandırıb

**"Azərişıq" ASC və Azərbaycan Respublikası Təhsil Nazirliyi 2 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə oktyabrın 16-da "Azərişıq" ASC-nin 5 illiyinə həsr olunmuş "İşıqlı Azərbaycan" respublika rəsm müsabiqəsinin qaliblərinin mükafatlandırılma mərasimi keçirilib.**



"Azərişıq" ASC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, respublika rəsm müsabiqəsi Bakı şəhərində və respublikamızın regionlarında fəaliyyət göstərən Uşaq-Gənclər İnkişaf mərkəzlərinin dərnək üzvləri arasında 2 mərhələdən ibarət olmaqla, 3 yaş qrupu (6-9, 10-13,14-18) üzrə keçirilib. Müsabiqəyə ölkə üzrə 52 Uşaq-Gənclər İnkişaf mərkəzlərindən 200-dən artıq rəsm əsərləri göndərilmişdir.

Müsabiqə ölkəmizi dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin edən "Azərişıq" ASC-nin fəaliyyətində vətəndaş məmnunluğunu ifadə etmək, elektrik enerjisinin israfçılığının qarşısını almaq, elektrik enerjisinə qənaət etmək, dünyada koronavirus infeksiyasının yaratdığı pandemiya ilə əlaqədar ev şəraitində uşaq və gənclərin asudə vaxtlarını səmərəli təşkil etmək, onların yaradıcılıq qabiliyyətlərini üzə çıxarmaq, izolyasiya müddətində qarşılıqlı əməkdaşlıq, təcrübə mübadiləsini təmin etmək məqsədi ilə keçirilib.

Münsiflər heyəti tərəfindən seçilən qaliblər "Azərişıq" ASC tərəfindən müvafiq diplom, təşəkkürnamə və hədiyyələrlə mükafatlandırılıb.


## B İ L D İ R İ Ş

Xüsusi texnika vasitəsi ilə xidmətlərin satın alınması məqsədi ilə "Təmiz Şəhər" ASC tərəfindən keçirilmiş açıq tenderdə ən az qiymət təklifi vermiş "Avto 039" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla 193.000,80 manat məbləğində 13 oktyabr 2020-ci il tarixli müqavilə imzalanmışdır.

***Tender komissiyası***



## E l a n

## Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə məlumat

**19.10.2020-ci il, Bakı** - "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun 107.1.1-ci maddəsinə və Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 19 oktyabr 2020-ci il tarixli qərarına əsasən, İbrahimov Hüseybaba Hüseyn oğluna sığorta agenti fəaliyyətinə verilmiş 24 may 2012-ci il tarixli 000667 nömrəli lisenziya ləğv edilmişdir.



## Təkliflər üçün Dəvətnamə
## Malların satın alınması üzrə Çərçivə Sazişi
*(İlkin satınalma, tək zərfli tender prosesi)*

Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi
**Ölkə:** Azərbaycan Respublikası
**Layihənin adı:** Məşğulluğa Dəstək Layihəsi
**Çərçivə Sazişinin adı:** Aktivlərin satın alınması
**TÜDNo.:** AZ-MLSPP-9044-FA-GOODS
**KreditNo.:** 9044-AZ

1. Azərbaycan Respublikasının Hökuməti Dünya Bankından Məşğulluğa Dəstək Layihəsinin həyata keçirilməsi məqsədilə kredit almış və bu kredit vəsaitinin bir hissəsini Çərçivə Sazişi əsasında bağlanacaq müqavilələrdən irəli gələn ödənişlərə ayırmaq niyyətindədir. (Aktivlətin satın alınması üçün Çərçivə Sazişi bu TÜD ilkin satınalma əsasında həyata keçiriləcək.)
2. Satınalan təşkilat İlkin satınalma prosesini Çərçivə Sazişini bağlamaq məqsədi ilə həyata keçirir. Satınalma təşkilatı Çərçivə Sazişinə əsasən yeganə Alıcıdır. Satınalan təşkilat müvafiq tender iştirakçılarından aktivlərin satın alınması üçün möhürlənmiş təklifləri təqdim etməsinə dəvət edir.
3. Bağlanacaq Çərçivə Sazişi "Yeganə İstifadəçi" olacaqdır. "Çərçivə Sazişi əsasında satın alma hüququ olan Yeganə İstifadəçi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsidir.
4. Çərçivə Sazişi "Bir neçə təchizatçı" ilə olacaqdır.
5. Çərçivə Sazişi əsasında bağlanacaq müqavilələr Çərçivə Sazişində göstərilən İkinci satınalma prosesi yolu ilə həyata keçiriləcəkdir. Lakin Çərçivə Sazişinin bağlanması satınalan təşkilata, o cümlədən iştirak edən təchizatçılara, Çərçivə Sazişi əsasında bağlanacaq müqavilələr əsasında mal almaq öhdəliyi qoymayacaqdır. Təchizatçılarla bağlanan Çərçivə Sazişi, Çərçivə Sazişi əsasında müqavilənin onlarla bağlanacağına heç bir zəmanət vermir.
6. Tender Dünya Bankının "İLM Borcalanları üçün Satınalma Qaydaları" 2016-cı il iyul, 2017-ci il noyabr və avqust 2018-də aylarında qəbul olunmuş ("Satınalma Qaydaları") ilə müəyyən edilmiş bir Təkliflər üçün Dəvətnamə (TÜD) istifadə edilərək Beynəlxalq Rəqabətli Tender yolu ilə aparılacaq və Satınalma Qaydalarında müəyyən olunmuş bütün uyğun İddiaçılara açıqdır.
7. İddiaçılar bir və ya daha çox "LOT" üzrə təklif verə bilərlər.
8. Çərçivə Sazişi imzalandığı tarixdən etibarən 2 il müddətinə bağlanacaq və qənaətbəxş olması şərtilə, illik əsasda ən çox üç (3) il əlavə müddətə uzadıla bilər. (Müddət + 1 + 1 + 1)
9. İlkin satınalma prosesi ilə Qapalı Çərçivə Sazişi (ləri) quracaqdır.
10. Maraqlı olan İddiaçılar əlavə məlumatı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsindən, **asep.huseyn@gmail.com**, Kimə: Satınalma Mütəxəssisi - Hüseynqulu İsmayılovdan əldə edə bilər və tender sənədlərini aşağıda göstərilən ünvanda və ya göstərilən linkdən **(https://drive.google.com/file/d/1BmR5nu_dSoFTVDyCakRC4Knds6zBqeRe/view?usp=sharing)** iş saatları (09:00 - 18:00) ərzində nəzərdən keçirə bilərlər.
11. Maraqlı olan iddiaçılar tender sənədlərinin ingilis dilindəki tam toplusunu aşağıda göstərilən ünvana məktub təqdim etməklə və geri qaytarılmayan 500 AZN və ya 300 ABŞ dolları ödəməklə əldə edə bilərlər. Ödəniş birbaşa depozit və ya Əmək və Əhalinin Müdafiəsi Nazirliyi nəzdində fəaliyyət göstərən Məşğulluğa Dəstək Layihəsi, Layihə İdarəetmə Qrupunun aşağıda göstərilən hesabına köçürmə yolu ilə keçirilə bilər. Tender sənədləri kuryer vasitəsilə göndəriləcəkdir. Sənədlərin PDF versiyası yuxarıda göstərilən linkdə yalnız tanışlıq və məlumatlandırma məqsədi ilə yerləşdirilib.

**ABŞ Dollar Hesabı**
**Azerbaijan Republic Ministry of Labor and Social Protection of Population**
**Tax ID: 1700093011**
**IBAN: AZ49IBAZ38190048409330186120**
**International Bank of Azerbaijan**
**Bank code (BIC): 805250**
**Corr acc: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**

**AZN Hesabı**
**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**IBAN: AZ93IBAZ38090029449330186120**
**Azərbaycan Beynəlxalq Bankı**
**Bank Kodu (BIC): 805250**
**M\H: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**

12. Təkliflər 10 dekabr 2020-ci il Bakı vaxtı ilə 15:00-dan gec olmayaraq aşağıdakı ünvana göndərilməlidir. Təkliflərin elektron şəkildə təqdim edilməsinə icazə verilmir. Gecikmiş təkliflər qəbul olunmayacaqdır. Təkliflər 10 dekabr 2020-ci il Bakı vaxtı ilə 15:00-da aşağıda göstərilən ünvanda keçiriləcək. Təkliflər iddiaçıların nümayəndələrinin iştirakı ilə açılacaqdır.
13. Yuxarıda nəzərdə tutulan ünvan:

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi /
Məşğulluğa Dəstək Layihəsi, 18-ci mərtəbə
Fəqan Əsgərov, Layihə koordinatoru
AZ1009, Salatın Əsgərova, 85, Bakı, Azərbaycan
Telefon: (99412) 541-98-49
E-mail: fagan.askerov@outlook.com; asep.huseyn@gmail.com



## Request for Bids
## Framework Agreement(s) for Goods
*(Primary Procurement, One-Envelope Bidding Process)*

**Procuring Agency:** Ministry of Labor and Social Protection of Population / Employment Support Project
**Country:** The Republic of Azerbaijan
**Name of Project:** Employment Support Project
**Framework Agreement Title:** Procurement of Assets
**RFB Reference No.:** AZ-MLSPP-9044-FA-GOODS
**Loan No./Credit No./Grant No.:** 9044-AZ

1. The Government of the Azerbaijan Republic has received financing from the World Bank toward the cost of the Employment Support Project, and intends to apply part of the proceeds toward payments under Call-off Contracts that may be awarded under the Framework Agreement (FA for Procurement of Assets concluded through this RFB Primary Procurement process.
2. The Procuring Agency is undertaking the Primary Procurement with a view to concluding a Framework Agreement. The Procuring Agency is the sole Purchaser under the Framework Agreement. The Procuring Agency now invites sealed Bids from eligible Bidders for Procurement of Assets.
3. The Framework Agreement to be concluded will be "Single-User." "The Single-User entitled to purchase under the Framework Agreement is Ministry of Labor and Social Protection of Population / Employment Support Project.
4. The Framework Agreement to be concluded will be "Multi-Supplier.".
5. The selection of a FA Supplier to be awarded a Call-off Contract will be done through a Secondary Procurement process as defined in Framework Agreement. However, the conclusion of a Framework Agreement shall not impose any obligation on the Procuring Agency, including participating Purchasers, to purchase Goods under a Call-off Contract. The conclusion Framework Agreement does not guarantee that a FA Supplier will be awarded a Call-off Contract.
6. Bidding will be conducted through International Competitive Procurement using a Request for Bids (RFB) as specified in the World Bank's "Procurement Regulations for IPF Borrowers" July 2016, Revised November 2017 and August 2018 ("Procurement Regulations"), and is open to all eligible Bidders as defined in the Procurement Regulations.
7. Bidders may submit Bids for one or more "lots".
8. The Framework Agreement shall be concluded for a Term of 2 years from the commencement date stated in the Framework Agreement, and may be extended subject to satisfactory performance, for a maximum of up to three (3) additional years on yearly basis (i.e. Term +1+1+1)
9. The Primary Procurement shall establish a Closed Framework Agreement(s).
10. Interested eligible Bidders may obtain further information from Ministry of Labor and Social Protection of Population / Employment Support Project, asep.huseyn@gmail.com, Attn: Huseyngulu Ismayilov, Procurement Specialist and inspect the Bidding document during office hours (09:00 am to 17:00 am) at the address or link (https://drive.google.com/file/d/1BmR5nu_dSoFTVDyCakRC4Knds6zBqeRe/view?usp=sharing) given below.
11. The Bidding document in English may be purchased by interested Bidders upon the submission of a written application to the address below and upon payment of a nonrefundable fee of 500AZN or 300 USD. The method of payment will be **direct deposit or wire transfer to the below account in favor of the Ministry of Labor and Social Protection of Population / Employment Support Project.** The document will be sent by courier. A PDF version of bidding document will be available in the link for review and information purpose only.

**USD ACCOUNT**
**Azerbaijan Republic Ministry of Labor and Social Protection of Population**
**Tax ID 1700093011**
**IBAN: AZ49IBAZ38190048409330186120**
**International Bank of Azerbaijan**
**Baku Branch**
**Bank code (BIC): 805250**
**Corr acc: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**

**AZN ACCOUNT**
**Azerbaijan Republic Ministry of Labor and Social Protection of Population**
**Tax ID 1700093011**
**IBAN: AZ93IBAZ38090029449330186120**
**International Bank of Azerbaijan**
**Baku Branch**
**Bank code (BIC): 805250**
**Corr acc: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**

12. Bids must be delivered to the address below on or before 10 December, 2020 (15:00 pm local Baku time). Electronic Bidding will not be permitted. Late Bids will be rejected. Bids will be publicly opened in the presence of the Bidders' designated representatives and anyone who chooses to attend, at the address below on 10 December, 2020 (15:00 pm local Baku time).
13. The address(es) referred to above is (are):

Ministry of Labor and Social Protection of Population /
Employment Support Project 18th floor
Mr.Fagan Askerov, Project Coordinator
AZ1009, Salatin Askerova 85, Baku, Azerbaijan
Tel: (994) 12 5419849
E-mail: fagan.askerov@outlook.com; asep.huseyn@gmail.com

## “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti
## *açıq tenderə dəvət edir*

Tender 3 LOT üzrə keçirilir:

**LOT 1 - Elektrikli məişət avadanlıqlarının satın alınması.**
**LOT 2 - Radiodetal, cihaz, ləvazimatlar, paçkordlar, fiber optik cross kabineti ODF və düzləndirici elektrik qida modullarının satın alınması.**
**LOT 3 - Nəqliyyat vasitələri üçün avtoşinlərin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1. 90 (doxsan) manat (ƏDV daxil)**
**LOT 2. 150 (bir yüz əlli) manat (ƏDV daxil)**
**LOT 3. 50 (əlli) manat (ƏDV daxil)**

iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına “ASAN Ödəniş” portalı vasitəsi ilə ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin Əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.I.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin Əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **11 noyabr 2020-ci il saat 11:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **19 noyabr 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **20 noyabr 2020-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada **etender@gov.az** dövlət satınalmalarının vahid internet Portalında aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Gəncə Regional Mədəniyyət İdarəsi
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir.

LOT 1. İstehlak yönümlü müxtəlif xidmətlərin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

İştirak haqqı LOT üzrə 100 (bir yüz) manat

**Hesab: AZ48CTRE00000000000002170602**
**VÖEN: 2300144211**
**Adı: DXA**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ 22**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
- *tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (zərflərin açıldığı tarixdən azı 60 (altmış) bank günü çox olmalıdır);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar (01 oktyabr 2020-ci il tarixdən sonra alınmalıdır);*
- *iddiaçının mikro, kiçik və orta sahibkarlıq subyektinə aid edilməsi barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçıların son üç ildə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədiyinə görə məhkəmə araşdırmalarına cəlb olunub-olunmaması barədə arayış.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **06 noyabr 2020-ci il saat 13:00-a** qədər və tender təklifi və bank təminatı sənədlərini **17 noyabr 2020-ci il saat 13:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **18 noyabr 2020-ci il saat 13:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 26.08.2020-ci il tarixli nömrəsində dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilmiş Azərbaycan Respublikasının Mərkəzi Bankı əsas vəsaitlərin, nağd pulun və nəqliyyat vasitələrinin sığortasından ibarət olan birləşdirilmiş sığorta xidmətinin satın alınmasına dair açıq tender Tender komissiyasının 25 sentyabr 2020-ci il tarixli qərarına əsasən baş tutmamış elan edilir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən “Dəftərxana və təsərrüfat mallarının satın alınması”, “Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin alınması” və “Digər malların alınması” xərc maddələri üzrə malların satın alınması məqsədilə 02 sentyabr 2020-ci il tarixdə keçirilmiş açıq tenderlərin yekun protokollarına uyğun olaraq “Simplex” QSC qalib elan edilmişdir.

Həmin təşkilatla müvafiq satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu ilin sonunadək 1 (bir) dəfə Aparatın inzibati binasının fasad örtüyünün və şüşələrin yuyulması xidmətinin göstərilməsinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 530-29-03 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 22.10.2020-ci il saat 11:00-dək qəbul olunur.

***Tender komissiyası***

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti inzibati binasının zirzəmisinin avtodayanacağına nişanlar və avadanlıqların quraşdırılması (Mal-material və işçilik) məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 29 oktyabr 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı, Heydər Əliyev prospekti, 152, “Çinar plaza”, 24-cü mərtəbə.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.

***Tender komissiyası***

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti tökmə sahəsinə tələb olunan malların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 02 noyabr 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, “Çinar plaza”, 24-cü mərtəbə.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 10.09.2020-ci il tarixdə “Bakı Telefon Rabitəsi” MMC LTE avadanlıqlarının dayanıqlı elektrik enerjisi ilə təmin etmək məqsədilə tələb olunan 3 KVA UPS-in tender üsulu ilə satın alınması üzrə elan edilmiş açıq tenderin davamından “Dövlət satınalmaları haqqında” qanunun 11-ci maddəsinə əsasən imtina edilmişdir.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Maddi-Texniki Təminat Baş İdarəsi aşağıdakı işlərin satın alınması məqsədilə təkliflər sorğusu elan edir

**DİN-in A.N.Heydərov adına Respublika Hospitalında tibbi tullantıların utilizasiyası məntəqəsinin tikintisi işləri**

Maraqlanan təşkilatlar (012) **408-81-25** nömrəli telefonla əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusu **23 oktyabr 2020-ci il saat 16:00-da** keçiriləcəkdir.

İştirak etmək üçün sənədlər **22 oktyabr 2020-ci il saat 17:00-dək** qəbul olunur.

Ünvan: Bakı şəhəri, Azadlıq prospekti, 161

***Tender komissiyası***

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov ailəsi ilə birlikdə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadəyə əzizi

**AYDIN ALLAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclis Aparatının və İşlər İdarəsinin kollektivləri Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Cəmil Musayevə oğlu

**TOĞRUL MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları iş yoldaşları Cəmil Musayevə oğlu

**TOĞRUL MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadəyə əzizi

**AYDIN ALLAHVERDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baba Rzayev və “Azərenerji” ASC-nin kollektivi Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçilərinin Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Məhəmmədəli Salmanova oğlu

**ELÇİN SALMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçilərinin Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Məhəmmədəli Salmanova oğlu

**ELÇİN SALMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC-nin sədri Əhməd Əhmədzadəyə əzizi

**AYDIN ALLAHVERDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin Geoloji kəşfiyyat şöbəsinin mütəxəssisi Nabat Qocayevaya babası

**ƏLİ NAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7466
Sifariş 2448
Qiyməti 40 qəpik